دفتر مقام معظم رهبری
www.leader.ir


BİRİNCİ FƏSİL XÜMSÜN HESABLANMASI VƏ ÖDƏNİŞİNƏ DAİR MƏSƏLƏLƏR . . . . . . . . . . 2
XÜMS ÖDƏNİŞİNİN TƏCİLİ VACİBLİYİ . . . . . . . . . . 2
XÜMSÜ AYIRMAĞIN YETƏRSİZ OLMASI . . . . . . . . . . 3
XÜMSÜN HESABLANMASI VƏ ÖDƏNİŞ QAYDASI . . . . . . . . . . 4
XÜMS DÜŞƏN MALIN DİGƏR MALA QARIŞMASI . . . . . . . . . . 10
MALİYYƏ İLİ . . . . . . . . . . 12
XÜMSÜN SƏLAHİYYƏTLİLƏRİ . . . . . . . . . . 15
XÜMSÜN MÜSALİHƏSİ, MÖHLƏT ALMAQ VƏ ALIB-QAYTARMAQ . . . . . . . . . . 17
XÜMSÜN ÖDƏNİŞİNDƏ VƏKİL TUTMAQ . . . . . . . . . . 20
BİRİNCİ FƏSLİN QEYDLƏRİ VƏ XÜLASƏSİ . . . . . . . . . . 21
İKİNCİ FƏSİL XÜMSÜN VACİB OLDUĞU YERLƏR . . . . . . . . . . 22
1. İLLİK ZƏRURİ XƏRCLƏRDƏN ƏLAVƏ QAZANC . . . . . . . . . . 22
BORC VERİLMİŞ MAL . . . . . . . . . . 26
2. SƏRMAYƏ VƏ ONUN MƏNFƏƏTİ . . . . . . . . . . 29
3. HARAMA QARIŞMIŞ HALAL MAL . . . . . . . . . . 36
4. MƏDƏN . . . . . . . . . . 37
5. TAPILMIŞ XƏZİNƏ . . . . . . . . . . 38
İKİNCİ FƏSLİN XÜLASƏ VƏ QEYDLƏRİ . . . . . . . . . . 39
ÜÇÜNCÜ FƏSİL XÜMSÜN MÜSTƏSNALARI . . . . . . . . . . 42
1. HƏDİYYƏ EDİLMİŞ MAL . . . . . . . . . . 42
2. Mehriyyə (başlıq) . . . . . . . . . . 45
3. İrs . . . . . . . . . . 46
4. Vəqf vasitəsi ilə əldə edilmiş əmlak . . . . . . . . . . 47
5. “Nəfəqə” vasitəsi ilə əldə edilmiş əmlak . . . . . . . . . . 49
6. Sığorta yolu ilə əldə edilmiş əmlak, əşya və pul . . . . . . . . . . 50
7. Diyə . . . . . . . . . . 51
8. Xümsü ödənilmiş əmlak . . . . . . . . . . 52
9. “Məunə” (il ərzində lazım olan dolanışıq xərcləri) üçün xərclənmiş vəsait . . . . . . . . . . 53
10. Borc və kredit əmlak (“Qərzül-həsənə”) . . . . . . . . . . 64
11. Yaxın gələcəkdə ehtiyac duyulacaq vəsait, əmlak və əşya . . . . . . . . . . 68
Üçüncü fəslin mühüm nöqtələri və xülasəsi Xümsün istisnaları . . . . . . . . . . 70
Dördüncü fəsil: Xümsün sərf ediləcəyi yerlər və kəslər . . . . . . . . . . 72
Dördüncü fəslin mühüm nöqtələri və xülasəsi: Xümsün sərf ediləcəyi yerlər və xüms almağa haqlı kəslər . . . . . . . . . . 74
Beşinci fəsil: Üzərinə xüms gəlmiş əmlakdan istifadə etmək . . . . . . . . . . 75
Beşinci fəslin mühüm nöqtələri və xülasəsi Xüms düşən əmlakdan istifadə etmək . . . . . . . . . . 77
Altıncı fəsil Xümsün digər fərqli məsələləri . . . . . . . . . . 78
Nabaliğ və əqli qüsuru olan şəxslərin xümsü . . . . . . . . . . 80
Altıncı fəsilin mühüm nöqtələri və xülasəsi . . . . . . . . . . 82

XÜMS ÖDƏNİŞİNİN TƏCİLİ VACİBLİYİ

## Xümsün ödənişinin vacibliyində təcililik (təxirəsalınmazlıq) anlamı

1. Xümsün ödənişi təcili (təxirəsalınmaz) vacibdirmi? Yəni əgər şəxs xüms ilinin son günündə, malının xümsünü ayırıbsa, həmin vaxt öz mərcəyi-təqlidinə təhvil verməlidirmi? Əgər xümsü ayırması və ödəməsi müxtəlif vaxtlarda olarsa, bunun bir iradı varmı?

**Cavab: Xümsün ödənişi təcili olmalıdır. Əgər xümsü dərhal ödəmək çətinlik yaradırsa, ödəmə imkanı yaranan zamana qədər telefon əlaqəsi yaratmaqla icazə alınmalıdır.**

## Xümsün ödənişində gecikmə

2. Gələn ilə kimi xümsün ödənişini gecikdirməyin hökmü nədir?

**Cavab: Bir xüms ilindən növbəti xüms ilinə kimi xümsün ödənişini gecikdirmək icazəli deyil, hərçənd hər zaman ödəsə, borcu boynundan götürülür.**

3. Ödənişi gecikdirilən xümsə cərimə gəlirmi?

**Cavab: Əgər keçən ilin xümsü yeni ilin qazancından ödənilsə, yeni ilin qazancının xümsünü də ödəməlidir.**[(1)]

(1) Yəni bu ilin qazancı ilə keçən ilin xümsünü ödəmək istəsə, ilk olaraq keçən ilin xümsünü ödəmək istədiyi pulu xümsə bölsün. Məsələn, əgər keçən ilin xümsü 20 manat olubsa və bu il qazandığı 25 manatla keçən ilin xümsünü ödəmək istəyirsə, əvvəlcə 25 manatın 5 manatını bu ilin xümsü olaraq verməli, sonra yerdə qalan 20 manatla keçən ilin xümsünü ödəməlidir.

## Xümsün ödənişi təcili olmalıdır

4. Xüms ili çatdıqdan sonra xümsü mənfəətdən ayırıb qısa müddət ərzində (məsələn, iki həftə) müctehidin nümayəndəsini görənədək öz yanında saxlamaq olarmı?

**Cavab: Xümsü xüms ilinin başında (son günündə) ödəməlisiniz, nümayəndəyə əlinizin çatmaması isə istisna haldır. Xümsü ayırıb bir kənara qoymaq ödənişini gecikdirməyə haqq vermir.**

## Ayrılıb kənara qoyulmuş xüms pulundan istifadə

5. Mən, xüms ilinin başında xümsümü ayırmışam, amma bir hissəsini sonradan yerinə qoymaq şərti ilə xərcləmişəm. Bu, "pulun həbsi" sayılırmı? Əgər pulun həbsi sayılırsa, mənim vəzifəm nədir?

**Cavab: Bir qayda olaraq xümsü ayırıb kənara qoymaq xüms təklifini boyundan götürmür. Deməli, xüms ünvanında kənara qoyulmuş maldan istifadə digər qazanclardan istifadə hökmündədir və hər xüms ilinin başında xüms payını xümsün ixtiyar sahibinə (müctəhidə) və ya şəri vergi işləri üzrə nümayəndəsinə ödəməli, yaxud da möhlət almalıdır.**

6. Ötən il xüms adı ilə bir qədər pul ayırmışdım ki, Qum şəhərində Ali Dini Rəhbərin dəftərinə (baş ofisinə) ödəyim. Lakin şəhərimizdə mülk alqı-satqısı zamanı beh ünvanında maklerə ödədim. Həmin pul xümsü çıxmamış puldurmu? Qeyd edilən formada olan ticarət mərcəyi-təqlidin icazəsinə möhtacdırmı?

**Cavab: Malın xümsü adı altında ayrılan müəyyən miqdar pul mərcəyi-təqlidə və ya nümayəndəsinə ödənməyincə xüms sayılmır.**

# XÜMSÜN HESABLANMASI VƏ ÖDƏNİŞ QAYDASI

## Xüms ilindən öncə külli miqdarda pul qazanmaq

**7. Xüms ili yaxınlaşan bir şəxs birdən-birə (iş yerindən və ev girovundan) ehtiyac duyduğu külli miqdarda pul qazansa, həmin pul üçün ayrıca xüms ili nəzərdə tuta bilərmi, yoxsa həmin xüms ilinin sonunda xümsünü ödəməlidir?**

**Cavab: Bütövlükdə həmin ilin qazancı birgə hesablanır və "məunə"dən[1] artığına xüms düşür, evin girovu adı altında kirayəçidən aldığı pul isə əslində borcdur və xümsü yoxdur.**

## Hər qazancın ayrıca xümsü

**8. Hər qazancı üçün ayrıca xüms ili təyin edən kəs xüms ili çatan qazancının xümsünü üzərindən bir xüms ili ötməmiş digər qazanclarından ödəyə bilərmi? Bu qazancların ilin sonunadək toxunulmaz qalacağına və onlardan illik zəruri xərclərə istifadə edilməyəcəyini bildiyi surətdə, bunun hökmü nədir?**

**Cavab: Hər zaman bir gəlirli qazancın xümsünü digər qazancından ödəmək istəsə, o məqsədlə ödənilən məbləğin xümsünü də ödəməlidir. İllik məişət xərclərinə heç bir aidiyyatı olmayan qazanclarının xümsünü ödəməkdə ixtiyar sahibidir; əlinə çatdığı zaman da ödəyə bilər, xüms ili yetişənədək gözləyib həmin vaxtda da.**

## Mükəlləfin şəxsən xümsü hesablaması

**9. İnsan öz malının xümsünü hesablayıb sonra ona vacib olanı sizin vəkillərinizə ödəyə bilər?**

**Cavab: Eybi yoxdur.**

## Xümsü verilməmiş qazancdan torpaq sahəsinin xümsünü vermək

**10. Bir nəfərin üzərinə xüms gəlmiş mülkü (ev və ya torpağı) var, onun xümsünü illik gəlirindən verə bilərmi? Yaxud ilk öncə gəlirin xümsünü verib sonra mülkün xümsünü həmin xüms verilmiş pulun gəlirindən verməsi vacibdirmi?**

**Cavab: Əgər yerin xümsünü illik gəlirindən vermək istəyirsə, o gəlirin də xümsünü verməlidir.**

## Bəzi malların əskiyini başqa malların artığı ilə doldurmaq (bərpa etmək)

**11. Ötən il malımı hesablayıb özüm üçün xüms ili təyin etdim. Həmin vaxt xümsü ödənmiş doxsan səkkiz baş qoyunum, bir az nağd pulum, bir də motorsikletim vardı. Qoyunlarımı tədricən satdığım üçün sayları azalmağa başladı, əvəzində isə pulum çoxaldı. Hal-hazırda altmış baş qoyunum, bir miqdar da nağd pulum var. Həmin pulun xümsünü ödəmək mənə vacibdirmi, yaxud təkcə pulun artığının xümsünü verməliyəm?**

**Cavab: Əgər mövcud qoyunlarla nağd pulunuzun toplam dəyəri doxsan səkkiz baş qoyun və xümsünü öncədən verdiyiniz nağd pulun toplamından artıqdırsa, artığının xümsü vardır.**

## Xümsü verilmiş pulla ev ehtiyaclarını qarşılamaq

**12. Əgər bir nəfər hər aldığı qazancın xümsünü ödədikdən sonra həmin pulla ərzaq, geyim, kitab və s. kimi yaşam ehtiyaclarını qarşılasa, üzərindən bir il keçdikdən sonra üzərinə xüms gəlirmi?**

**Cavab: Üzərinə xüms gəlmir.**

## Birjada ucuzlaşmış səhmlər

**13. Mən iki il öncə beş min manatlıq (faizsiz) kredit götürdüm və səhmlər aldım. Səhmlərin qiyməti düşərək üç min manat dəyərində oldu. Digər tərəfdən kredit borcum da ödənib qurtardı. İndi mən beş min manatın xümsünü verməliyəm, yoxsa üç minin?**

**Cavab: Üç min manatın xümsü kifayət edir.**

## Xümsü ödəməkdən ötrü hər ilin qalığını növbəti ilinki ilə müqayisə etmək

**14. İndiyə kimi mənim xüms hesabım bu şəkildə olub: əvvəl xüms ilini ilk qazancımdan təyin etdikdən sonra hər il istifadəsiz qalan pul, qida və s. şeyləri hesablayıb keçən ilin qalığı ilə müqayisə edir, artıq qalan şeylərin xümsünü verirəm. Bu metod düzgündürmü?**

**Cavab: Keçmiş qalıqlardan heç nə qalmayıb sərf edildiyi surətdə metodunuz yanlışdır. Bütün qalıqlar kəsirsiz hesablanmalıdır.**

## Torpağın xümsünü onun özündən ödəmək

**15. Xümsü ödəməkdən ötrü mülkün satılmasını gözləmək istəmirəm və hal-hazırda mülkün bir qismini xüms vermək istəyirəm. Amma mülkün satışı zamanı qiymətlər qalxdı. İndi xümsə ayrılan mülkün dəyərini necə hesablamalıyam?**

**Cavab: Mərcəyi-təqlidin nümayəndəsindən icazə almaqla hazırda yerə verilən qiyməti xüms hesabı götürə bilərsiniz.**

## Xüms ili gününə yazılmış çek

**16. Əgər bir nəfər xüms ili gününə çek yazsa, xümsü hesablayarkən çekin məbləğini hansı ilə salmalıdır?**

**Cavab: Əgər borcu həmin gəlir ilinin zəruri illik xərclərindən olsa, istisna edə bilər.**

## Ölmüş insanın xümsünü hesablamaq

**17. Əgər bir şəxs xüms ilinin ortasında dünyasını dəyişsə, azyaşlı uşağı olmasına rəğmən, il ərzindəki (ölən günə qədərki) gəlirinin xümsü ödənilməlidirmi?**

**Cavab: Dünyadan köçdüyü gün, onun üçün ilin sonu sayılır və həmin ilin xümsü verilməlidir.**

## Mağaza mallarının xümsünü hesablamaq tərzi

**18. Xahiş edirəm, mağaza sahibinin xümsünü ödəməsi üçün mümkün qədər asan yolu bəyan edəsiniz.**

**Cavab: Xüms ilinin başında nağd mal və pulları hesablayıb qiymət qoysun, sonra toplamını əsas sərmayə ilə müqayisə etsin. Əgər sərmayədən artıq bir şey varsa, mənfəət hesab olunur və xümsü verilməlidir.**

**19. Xüms ilinin hesabı vaxtı mağazadakı mövcud mallara qiymət qoymaq çətindir. Onu necə hesablamaq lazımdır?**

**Cavab: Xümsü ödənilməli illik gəlirin hesablanmasından ötrü mağazadakı mövcud mallara mümkün olan hər surətdə - təxmini olsa belə - qiymət qoymaq vacibdir.**

**20. Mən hər il nağd pul və mallarının hesabını aparan mağaza sahibiyəm. Bəzi malların xüms ilinin sonunadək satılmadığını nəzərə alsaq, ilin sonunda və satışından öncə onların xümsünü ödəmək mənə vacibdirmi, yoxsa satıldıqdan sonra xümsü verilməlidir? Əgər malın xümsünü ödəyib sonra satsam, növbəti ildə necə hesablamalıyam? Əgər sözügedən malı sata bilməsəm və qiyməti dəyişsə, bunun hökmü nədir?**

**Cavab: İlin başına kimi satılmayan və müştərisi də olmayan malın hal-hazırda qiymət**

artığının xümsünü ödəmək vacib deyil, gələcəkdə onun satışından əldə ediləcək mənfəət satış ilinin gəlirindən hesablanacaq. Ancaq qiyməti bahalaşmış malın il boyu müştərisi olsa, siz də artıq qazanc məqsədilə ilin sonuna kimi onu satmasanız, xüms ili çatdığı zaman qiymət artığının xümsünü ödəməlisiniz. Bu surətdə xüms ilinin başında qiymət qoyulmuş və qiymət artığının xümsü ödənmiş mal növbəti ildə istisna olunur.

**21. Bir il üç aydır ki, ticarətlə məşğulam. Xümslə bağlı bir neçə sualım var:**
**1. Bir il öncə alınmış, satılmadığı üçün anbarda yatan və alış qiymətindən də aşağıya düşən mala da xüms düşürmü? Əslində bu tacir üçün zərər sayılır.**
**2. Bu gün mal alsam və sabahkı gün xüms ilinə təsadüf etsə, həmin mala xüms düşürmü, yoxsa üzərindən bir il ötməlidir?**
**3. Əgər mal çek formasında, məsələn pulu altı ay sonra üçün olsa necə? Sərmayə başqasının olsa necə?**
**4. Əgər əsl sərmayənin xümsünü vermis olsam; məsələn əsl sərmayə 10 mindirsə, pulu da hədiyyə və ya xümsü verdiyim məbləğdəndirsə və dövriyyəyə buraxmışamsa, xüms ilinin başında yerdə qalan mala yenə də xüms düşürmü?**

Cavab:
1. Əgər ticarət gəlirindən alınmış olsa, xüms ilinin başında satışı mümkün qiymətə xüms gəlir.
2. Əgər ticarət gəlirindən alınıbsa, xüms ilinin başında xümsünü ödəməlisiniz.
3. Əgər xüms ilinin başına kimi bütün pulunu ödənilməyibsə, xümsü yoxdur. Əks halda ödədiyi miqdarın xümsü var.
4. Fərz olunan suala əsasən, 10 min məbləğində olan pula xüms düşmür.

## Xüms düşməyən malın ona qarışan sərmayədən istisna edilməsi

**22. Xümsü olmayan (mükafat, hədiyyə kimi) mal sərmayə ilə qarışıbsa, xüms ilinin sonuna kimi onu sərmayədən ayırıb, qalan malın xümsünü ödəmək olarmı?**

Cavab: Həmin malı istisna etməyin eybi yoxdur.

## Nisyə verilmiş mallar

**23. Üç il öncə xümsü verilmiş mal ilə bir mağaza açdım. Xüms ilimin başı və sonu da Novruz bayramına təsadüf edir. İndiyə kimi xüms ilimin başı çatanda məlum olur ki, bütün sərmayəm borc şəklində camaatın öhdəsindədir. Özümün də çoxlu borcum var. Bu halda təklifim nədir?**

Cavab: Əgər xüms ilinin başında sərmayə və mənfəətinizdən yanınızda nağd bir şey olmasa, yaxud sərmayənizdə artım gözə dəyməsə, sizə xüms düşmür. Camaata nisyə satdığınız üçün yaranan tələbləriniz illik gəlir hesab olunur, hansı ki, nə vaxtsa sizə ödəniləcək.isə həmin alacaqlarınız sizə ödəniləcək ildə illik gəlirdən hesab ediləcəkdir.

## Borcları sərmayədən çıxmaq

**24. Mənim bir miqdar malım var; bir hissəsi nağd əlimdədir, digər hissəsi isə borc adı altında bəzi şəxslərin ixtiyarındadırdigər hissəsini isə bəzilərinə borc vermişəm. Digər tərəfdən keçən il yaşayış yeri aldığım üçün borcum oldu və bir neçə ay sonra çeklərdən birini ödəməliyəm. Yerin borcunu qeyd edilən məbləğdən (nağd və borc verilən) azaldıb qalanının xümsünü verə bilərəmmi? Həmçinin yaşayış üçün alınan torpağın xümsü varmı?**

Cavab: Bəzi şəxslərə borc olaraq verdiyiniz illik gəlirinizdən olan mal xüms ilinin başına kimi sizə qayıtmasa, sizə qayıdana kimi xümsünü vermək vacib deyil. Xüms ilinin başına kimi əlinizdəki illik gəlirdən olan maldan möhlət qoyulmuş borcunuzu ödəyə bilərsiniz.

**Amma ilin ortasında onunla borcunuzu qaytarmasanız və xüms ilinin vaxtı çatsa, artıq borcunuzu istisna edə bilməzsiniz, hamısının xümsü verilməlidir.**
**Yox əgər yaxın gələcəkdə hamısı və ya bir qismi ilə borcunuzu vermək qərarındasınızsa, digər tərəfdən xümsünüzü ödəmək istəsəniz, yerdə qalan məbləğ borcunuza çatmayacaq. Zəhmət və çətinliyə düşürsünüz deyə borcunuza verməli olduğunuz malın xümsünü ödəmək vacib deyil. Məskən üçün ehtiyac duyulan torpağa gəlincə, il boyu əldə edilən gəlirdən alınsa, xümsü yoxdur.**

## Daima borcu olanın xümsü

**25. Bir nəfər xüms ili təyin etməyib və hazırda isə xüms ili təyin etmək qərarına gəlib. Evləndiyi gündən indiyə kimi borclu olub. İndi o, xümsünü necə hesablasın?**

**Cavab: Əgər keçmişdən indiyədək məişət (yaşam) xərclərindən artıq gəliri olmayıbsa, keçmişlə bağlı boynuna bir şey gəlmir.**

## Xümsün vacibliyinə dair məsələlərin bir neçəsinin birgə olması

**26. Əgər bir nəfərin xüms ili çatdığında, malı harama qarışıbsa, digər tərəfdən gəlir mənfəəti də varsa, habelə malının bir hissəsini digər işlərdən ötrü ticarət sərmayəsi edərsə, həmin şəxs malının üç dəfə xümsünü verməlidir?**

**Cavab: Bir xüms malının harama qarışdığına görə vacibdir. Bir xüms də illik gəlirinin xərclərindən artıq olduğuna görə ödəməlidir. Əgər həmin malın xümsünü verdikdən sonra sərmayəyə çevirsə, xümsü yoxdur.**

## Xümsə aidiyyatı olmayan digər maldan xüms ödəmək

**27. Bir nəfərin bank hesabına (əmanət olaraq) qoyduğu pula xüms gəlir, amma həmin pula toxunmayıb onun xümsünü digər pulundan ödəmək istəyirsə, bu halda vəzifəsi nədir?**

**Cavab: Əgər həmin pul da qazancından sayılırsa, əvvəl onun xümsünü, sonra da xümsə aid borcunu ödəməlidir.**

## Qida məhsullarının xüms pulunu ödəmək

**28. Qida məhsullarının xümsünü pulla hesablayıb ödəmək olar, yoxsa məsələn düyünün özünü xüms vermək lazımdır?**

**Cavab: Maneə yaratmır, xümsün eyni maldan ödənilməsinə gərək yoxdur.**

## Yeni ilin gəlirindən xüms borcunu ödəmək

**29. Keçən ilin xüms hesabında bir miqdar xüms borcum oldu və cari ildə həmin borcun bir qismini qaytardım. Qeyd edilən borc illik məişət xərclərindən sayılır, ya yox?**

**Cavab: Sözügedən borc yeni ilin zəruri məişət xərclərindən sayılmır; qazancınızdan keçən ilin xümsünə xərclədiyiniz məbləğin də xümsünü verməlisiniz.**

## İlk xümsün hesablanması

**30. Bir nəfər ilk xümsünü vermək üçün malını hesablamaq istəyir, amma yaşadığı evin hansı pulla alındığını bilmir, bu halda hökm nədir? Əgər evin neçə illik əmanət puldan alndığını bilsə, hökmü nədir?**

**Cavab: Yaşayış evi və ya digər həyat ləvazimatlarının şəri cəhətdən xümsə aidiyyatı**

olmayan maldan (irs və hədiyyə kimi) alındığını ehtimal versə, boynuna xüms gəlmir, yox əgər öz qazancından aldığına əmindirsə, amma xüms ilinin ortasında, yaxud xüms ili bitəndən sonra, yaxud da qazancın xümsünü ödəməzdən əvvəl aldığını bilmirsə, vəkillərimizdən biri ilə müsalihə etməlidir. Əgər evi iş qazancından toplanmış neçə illik əmanətlə, xümsünü ödəməmişdən öncə aldığına əmindirsə, bu halda iş qazancından toplanmış əmanətin xümsünü verməlidir; əgər pulun dəyəri düşübsə, ehtiyatən vəkil və müctəhidin nümayəndəsi ilə müsalihə etməlidir.

## Xüms borcu kimi səhvən ödənilən xümsün hesablanması

**31. İllik xümsümün hesabı zamanı belə nəticəyə vardım ki, malımın bir qismini xüms verməliyəm və verdim də. Bu hesabla malımın dörd hissəsini xüms verilmiş mal adı ilə ayırıb əmanətə çevirdim. Növbəti ilin hesabında məlum oldu ki, mənə xüms düşmürmüş. Yuxarıda qeyd edilənləri və ödənilmiş xümsü mülahizə etsək, nəzərdə tutulmuş və ayrılmış məbləğ xüms sayılırmı?**

Cavab: Ödədiyiniz məbləğ xüms sayılmır, yerdə qalan məbləğə gəlincə, növbəti xüms ilinin başında xümsə aidiyyatı olsa, xümsü verilməlidir. Suala əsasən öncəki ödəmə, indiki ödəməni əvəzləmir.

**32. Xüms adı ilə ödədiyim xümsə aidiyyatı olmayan malı (məbləği) hazırda borclu olduğum xümsdən saya bilərəmmi?**

Cavab: Əgər həmin məbləğ şəri xərclərə sərf edilibsə, indiki xüms borcunuzun ödənişidən sayılmır, yox əgər xərclənməyibsə, mərcəyi-təqlidin nümayəndəsindən geri ala bilərsiniz.

## Əlavə xüms ödənişi

**33. Bir şəxs illik qazancının xümsünü artıq ödəyibsə, o artıq məbləği növbəti illərdəki xümsündən saya bilərmi?**

Cavab: Əgər artıq xüms adı ilə ödənilən pul növbəti ildə xümsü alanın əlində olmasa, gələn ilin xümsündən saya bilməz.

## Xümsü verilmiş pulu xümsü verilməmiş pulla dəyişmək

**34. Qəsdən xüms ili çatmamış pulu, xümsü ödənilmiş pulla dəyişmək olarmı?**

Cavab: Hər bir halda xümsü ödənilməmiş pul, xüms ilinin başına kimi qalsa, xümsü var.

## Müştərinin xüms verən olduğundan şübhələnmək

**35. Mağaza sahibi ondan alver edən müştərinin malının xümsünü verib-vermədiyini bilməsə, ondan aldığı məbləğin xümsünü ödəməsi vacibdirmi?**

Cavab: Satıcının öhdəsinə heç nə düşmür və bu xüsusda axtarış aparması lazım deyil.

## Xümsün ödənildiyinə şübhə etmək

**36. Əgər bir şeyin xümsünü verib-vermədiyimizi şəkk etsək, amma böyük ehtimalla ödədiyimizi düşünsək, bu halda vəzifəmiz nədir?**

**Cavab: Əgər o şeyə daha öncə xüms düşürdüsə və hal-hazırda xümsünün ödənilib-ödənilməməsi ilə bağlı şəkk edirsinizsə, xümsü vacibdir.**

**37. Mən, Allahın lütfü sayəsində hər il malımın xümsünü verirəm, amma xümsümü ödədiyim illər boyu onun hesabında şübhə**

**edirdim. Bu şübhənin bir hökmü varmı? Bu il bütün nağd malımı hesablamağım vacibdirmi, yoxsa bu xüsusdakı şəkkimə etina etməməliyəm?**

**Cavab: Əgər keçən illərdəki gəlir xümsünün hesabının doğruluğuna şübhə edirsinizsə, buna etina olunmamalıdır və yenidən xüms ödəməyiniz sizə vacib deyil. Yox, əgər qazancın mənfəətində şəkk edirsinizsə ki, xümsünü ödədiyiniz ötən illərin qazancının mənfəətindəndir, yoxsa xümsünü vermədiyiniz cari ilin qazan mənfəətindən, ehtiyatən onun xümsünü verməlisiniz, məgər ki, daha öncə xümsünü ödədiyinizə etiraf edəsiniz.**

(1) Məunə: İnsanın özü və bir nəfərin qəyyumluğu altındakı fərdlərin güzəranını keçirməsindən ötrü lazım olan xərc; ərzaq, geyim, məskən və s. xərcləri kimi.

XÜMS DÜŞƏN MALIN DİGƏR MALA QARIŞMASI

## Xümsü verilmiş malın xümsü verilməmiş mala qarışması

**38. Əgər bank hesabımda 1000 manat xümsü ödənmiş əmanətim olsa, bundan sonra ona 500 manat xümsü verilməmiş pul artırsam və il boyu ondan bir miqdar xərcləsəm, xüms ilinin sonunda hamısının xümsünü hesablamalıyam, yoxsa əlavə məbləğin yerdə qalan miqdarının xümsünü verməliyəm?**

**Cavab: Əgər hər hansı malın xümsü verilibsə, yeni ildə xərclənməmiş qalsa, əlavə xümsü yoxdur. Əgər o ilin gəliri xümsü verilmiş malla yanaşı illik xərclərə sərf edilsə, xüms ilinin sonunda yerdə qalan malın xümsü verilməmiş pulun xümsü verilmiş pula nisbətində xümsü ödənilməlidir.**[(1)]

**39. Bu ilin martında xümsümü ödədikdən sonra hesabımda 5500 manat pul qaldı. Zamanla aylıq gəlirlərim də onun üstünə gəldi. Belə ki, xümsü verilmiş və xümsü verilməmiş pulum bir-birinə qarışdı. Həmin pulları xərcləməklə bağlı vəzifəm nədir?**

**Cavab: Öz niyyətinizlə, hesabınızdan çəkdiyiniz pulun xümsü verilmiş puldan, yoxsa yeni ilin hüququndan olduğunu təyin edə bilərsiniz.**

**40. Toy hədiyyəsi, evlilik ipotekası və şəxsi maaşımdan ibarət malım var. Əgər bütün pulum qeyd edilən kredit və hədiyyə miqdarında olsa, ona xüms düşür?**

**Cavab: Xümsü verilməmiş malın xümsü verilmiş mala nisbətinə əsasən yerdə qalan məbləğin xümsünü verməlisiniz, məgər ki, puldan götürərkən hüququnuzdan xərclədiyinizi niyyət edəsiniz.**

**41. Əgər bir nəfərin xümsü verilməmiş pulun xümsü verilmiş pula qarışdığı əmanəti var; bəzən xərclərindən ötrü onun üstündən götürüb, bəzən də üstünə qoyur. Xümsü verilmiş pulun miqdarının məlum olmasına nəzərən, yerdə qalan malın toplam xümsünü ödəməlidir, yoxsa xümsü verilməmiş miqdarının?**

**Cavab: Xümsü verilməmiş pulun xümsü verilmişə nisbətində yerdə qalan pulun xümsünü ödəməlidir.**

## Dövriyyədə olan pullar

**42. Bankda ilbaşı xümsünü ödədiyim bir miqdar əmanətim vardı, amma cari ildə bir neçə dəfə o pula pul artırmış, yaxud üzərindən götürmüşəm. Hazırda xüms ilim başa çatıb, sözügedən pulun xümsünü necə ödəməliyəm? Pulun qismən dövriyyədə olduğunu nəzərə alsaq, toplam pulumun xümsünü verməliyəm, yoxsa hal-hazırda hesabımda qalan pulun keçən ildəki məbləğdən çox olduğu halda, artığının?**

**Cavab: Əgər qeyd edilən pul sərmayə kimi dövriyyə olubsa, artığının xümsünü vermək yetərlidir. Yox, əgər əmanət kimi saxlanılıb və tamamı da xərclənibsə, onun yerinə gələn əmanətin hamısına xüms düşür. Əgər bir qismi xərclənibsə, xümsü verilməmiş malın xümsü verilmiş mala nisbəti ilə hesablansın.**

## Xümsü olmayan malın xümsü verilməmiş mala qarışması

**43. Mən və həyat yoldaşım Təhsil Nazirliyində işləyirik. Həyat yoldaşım həmişə maaşını mənə hədiyyə edir. Bir miqdar pulla üzvü olduğum Təhsil Nazirliyi İşçilərinin Əkinçilik Şirkətinə şərik oldum, amma o pulun özümün və ya həyat yoldaşımın maaşından olduğunu bilmirəm. Xüms ilinin sonuna kimi həyat yoldaşımın maaşından yığılan pulun il boyu aldığı puldan az olduğunu nəzərə alsaq, qeyd edilən pula xüms düşürmü?**

**Cavab: Yığılan maldan və şirkət səhmlərini almaq üçün ödədiyinizdən puldan və hüququnuzdan olan mala xüms düşür. Həyat yoldaşınız tərəfindən hədiyyə olunan hissəyə gəlincə, əgər xümsdən qaçmaq məqsədi ilə olmasa və şəninə uyğun olsa, xüms düşmür. Əgər o malın sizin və ya xanımınızın maaşından olduğuna şəkk edirsinizsə, ona xüms vacib deyil, baxmayaraq ki, ehtiyat xümsü ödəmək və ya müsalihə etməkdir.**

## Niyyətlə xümsü verilmiş pulu xümsü verilməmiş puldan ayırmaq

**44. Sizin fətvasına əsasən, niyyətlə vahid bank hesabındakı mövcud pulun xümsü verilmişini xümsü verilməmişdən ayırmaq olar. Bu iş üçün ümumi niyyət kifayətdirmi? Məsələn, bir nəfər xümsü verilmiş pulunu saxlayıb il boyu təkcə cari qazancından istifadə etmək istəyir, amma xərclərində hər dəfə bunu niyyət etməmişdir. Bu halda şəri vəzifəsi nədir?**

**Cavab: Əvvəldən niyyət etsə ki, bankdan götürdüyü pullar xümsü verilməmiş puldandır, niyyətini dəyişmədiyi müddətcə hər dəfə başdan niyyət etməsinə gərək yoxdur.**

(1) Sualın misalına əsasən belə olmalıdır: xümsü verilmiş malın (1000) xümsü verilməmiş mala (500) nisbəti, 2-nin 1- nisbətidir. Misal üçün, əgər xüms ilinin başında 600 manat qalıbsa, 400 manatına xüms düşmür, amma 200 manatın xümsünü verməlidir.

MALİYYƏ İLİ

## Xüms ili

**45. Xüms ili nədir və xüms ili necə təyin edilir?**

**Cavab: Xüms ili bir müqavilə (saziş) deyil, həqiqi prosesdir. Yəni ilk qazanc tarixiniz, xüms ilinizin ilk günü olub və hər ilin həmin günü də xüms ilinizin başı sayılır. İl ərzində yaşam ehtiyaclarınıza və şəninizə uyğun xərclənmiş pula xüms düşmür. Növbəti xüms ilinin başına kimi qalan pula, əlavə olaraq düyü, noxud kimi istifadə oluna bilən, yaxud ilin sonuna kimi istifadəsiz qalan bu qəbildən olan şeylərə, habelə ehtiyac xaricində alınan və ya şənindən artıq olan mallara xüms düşür. Əlbəttə, mehriyyə, irs, hədiyyə, bayramlıq və mükafatın xümsü yoxdur. Bununla belə xümsün hesablanmasına dair sualınız varsa, vücuhat məsələləri, xümsün hesablanması ilə bağlı mərcəyi-təqlidin rəsmi ofisinə, ya da Ali dini rəhbərin səlahiyyətli nümayəndələrindən birinə müraciət edin.**

**46. Xümsün ödənişi üçün ilin əvvəli necə təyin olunur?**

**Cavab: Xüms ilinin əvvəli mükəlləfin özü tərəfindən təyin edilmir, əksinə təbii olaraq, illik gəlirin hasilolma keyfiyyəti ilə təyin olunur. Deməli, fəhlə və işçilərin əmək müqabilində ilk maaşlarını aldıqları birinci gün, tacir və satıcıların alverə başladığı tarix, əkinçilərin isə əkinçilikdən götürdükləri ilk məhsul günü, xüms ili başlamış olur.**

**47. Xüms ilimin əvvəlini keçən ilin üçüncü ayının ilk günü qərar verdim. Elə həmin tarixdə bank hesabımın mənfəətinin xümsünü hesablamaq üçün müraciət etdim. İllik malı hesablamaqdan ötrü bu üslub doğrudurmu?**

**Cavab: Sizin xüms ilinizin əvvəli ilk dəfə qazanc əldə etdiyiniz gündür. Xüms ilini o gündən geriyə atmaq olmaz.**

**48. Bir nəfər illik gəlirinin ilin sonunadək qalmayacağından əmindir, dahası gəlir və mənfəəti il ərzində yaşam tələbatlarına xərclənir. Bu halda özünə xüms ili təyin etməsi vacibdirmi? Əgər kimsə gəlirinin artıq qalmadığına əmindirsə və buna görə də xüms ili təyin etməyibsə, hökmü nədir?**

**Cavab: Xüms ilinin əvvəli mükəlləf tərəfindən təyin edilmir, əksinə təbii bir işdir. Belə ki, işi ticarət olanın alverə başladığı, əkinçinin məhsul yığımı dövrünün çatdığı, fəhlə və işçinin ilk maaşını aldığı gündən başlayır. Xüms ilinin əvvəlini və illik gəliri hesablamaq müstəqil vacib əməl deyil, xümsün miqdarını bilmək üçün bir yoldur. Xümsün ona aid olduğunu bildiyi, amma miqdarını bilmədiyi vaxt xümsün hesabı vacib olur. Əgər gəlirin mənfəətindən heç nə qalmayıb hamısı illik məişət xərclərinə (yaşam tələbatına) xərclənibsə, heç birinin xümsü ona vacib deyil.**

**49. Maliyyə iinin başı ilk iş günüdür, yoxsa maaş aldığımız ilk ay?**

**Cavab: Fəhlə və işçilər də daxil olmaqla hüquq alanların xüms ilinin başlanğıcı ilk muzd və ya maaşlarını aldıqları və ya ala biləcəkləri gündür.**

**50. İlk çekin alındığı tarixi xüms ili saymaq lazımdır, yoxsa nağda çevrildiyi günü?**

Cavab: Xüms ili nağd pul əldə etməyin mümkün olduğu zamandır.

## Qəməri və şəmsi il

**51. Xüms ili şəmsi tarixlə olmalıdır yoxsa qəməri?**

Cavab: Bu xüsusda mükəlləf ixtiyar sahibidir.

## Xüms ilini dəyişmək

**52. Bir nəfər deyir ki, xüms ilinin başı ilin onuncu ayı idi, amma unutduğu üçün on ikinci ayda xümsü ödəməmişdən öncə evə xalça, divar saatı və döşənəcək alıb. İndi isə xüms ilini ramazan ayına salmaq qərarına gəlib. Qeyd edilən əşyaların imam və seyid payı haqqında siz cənabın nəzəri nədir?**

Cavab: Xüms ilini irəli və geri salmaq icazəli deyil, yalnız mərcəyi-təqlidin nümayəndəsinin icazəsi ilə keçən müddəti hesabladıqdan sonra və xüms sahiblərinin zərərə düşməsinə səbəb olmamaq şərti ilə. Aldığınız ev əşyalarının pulu keçən ilin gəlirindən olduğu üçün o pulun xümsünü verməlisiniz.

## Nağd gəlir əldə etdikdən etibarən qazancların xümsünü vermək

**53. Hər növ nağd gəlir əldə etdikdən etibarən qazancının xümsünü ödəmək, bununla da xüms ilini təyin etmək və yerdə qalan sərvəti hesablamaq kimi işlərdən azad olmaq istəyirəm. Bu iş doğru və xümsü ödədiyimə kifayətdirmi?**

Cavab: Eybi yoxdur, amma belə bir hesablamada çoxluluq və müxtəliflik olduğundan çətinliklə üzləşə bilərsiniz, odur ki, bu işi görməyin. Bunun yerinə əldə etdiyiniz ilk gəlirin vaxtını xüms ilinizin başlanğıcının ilk günü qərar verin; lazımi xərcləri qazancınızdan götürün və xüms ilinin başında xərclərinizdən artıq qalan qazancın xümsünü ödəyin.

## Müvəqqəti işçilərin xüms ili

**54. Mən tələbəlik illərində bir neçə dəfə müvəqqəti işləmiş və aldığım hüququ həmin il ərzində xərcləmişəm. Hal-hazırda da tələbəyəm. Görəsən, xüms ilimi təyin etməli idimmi?**

Cavab: Xüms ili qərar verməklə deyil, təbii bir prosesdir. Yəni ilk qazancınızı əldə etdiyiniz tarix xüms ilinizin başlanğıc günü idi, hər ilin eyni günü də xüms ilinizin başıdır.

## Subay gənclərin maliyyə ili

**55. Ata-anası ilə yaşayan subay gənclərin xüms ilini təyin etməsi vacibdirmi? Onlar üçün xüms ilinin başı nə zamandır və necə hesablanmalıdır?**

Cavab: Əgər subay gəncin azda olsa şəxsi gəliri varsa, xüms ilinin təyin edib illik gəliri hesablaması vacibdir. Xüms ilinin sonuna kimi gəlirindən bir şey qalsa, xümsünü ödəməlidir. Xüms ilinin başlanğıcı isə ilk qazancı hasil olduğu gündür.

## Ortaq maliyyə ilinin təyini

**56. Maaşlarını müştərək şəkildə ev xərclərinə sərf edən ər-arvadın müştərək xüms ili ola bilərmi?**

Cavab: Onların hər birinin şəxsi gəlirindən müstəqil xüms ili olmalıdır və hər birinə maaşı və illik gəlirinin artığından xüms vermək vacibdir.

## Evdar qadınların maliyyə ili

**57. Mən evdar qadınam. Ərimin xüms ili var və vaxtı çatanda xümsünü ödəyir. Bəzən mənim də gəlirim olur. Xüms ödəmək üçün özümə xüms ili təyin edə və başlanğıcını xümsünü vermədiyim ilk mənfəət aldığım gün qərar verə, ilin sonunda da isə "məunə"ni ayırdıqdan sonra qalanının xümsünü ödəyə bilərəmmi?**

**Cavab: Sizə vacibdir ki, ilk gəlirinizin əlinizə çatdığı vaxtı xüms ilinizin başlanğıcı qərar verəsiniz və il ərzində gəlir mənfəətini qeyd etdiyiniz kimi şəxsi xərclərinizə sərf etdiklərinizin xümsü yoxdur. "Məunə" və illik xərcləriniz istisna olmaqla, ilin sonunda illik gəlir mənfəətinizdən artıq qalarsa, xümsünü verməyiniz vacibdir.**

## İşçilərin təlim kursuna aid xüms ili

**58. Mən yaxın vaxtlarda dövlət müəssisələrinin birində işə düzəldim. 1383-cü şəmsi ilin aban Aban (oktyabrOktyabr) ayının əvvəlində təlim kursu keçməli oldum. Təlim kursumuz təxminən beş ay oldu. Bu müddətdə təlim haqqı alırdıq. Fərvərdin (martMart) ayından etibarən maaşımız bütövləşdi. Sualım budur ki, xüms ilim hansı tarixdən başlayır; ilk bütöv maaşımı aldığım tarixdən, yoxsa ilk təlim haqqı aldığım vaxtdan?**

**Cavab: Əgər təlim haqqı maaş ünvanında sizə verilirdisə, ilk təlim haqqı aldığın tarix xüms ilinizin başıdır. Yox, əgər təlim haqqı yardım və hədiyyə ünvanında olubsa, xümsü yoxdur və xüms ilinizin başı ilk rəsmi maaş aldığınız gündür.**

## Sağ (diri) müctəhiddən yenidən icazə almaq

**59. İmam Xomeyninin (r) vaxtında xüms yığmaq səlahiyyəti olanlar, Ayətullah Xameneinin zamanında yenidən ondan icazə alması lazımdırmı?**

**Cavab: Bəli, icazə almalıdırlar.**

## Keçmiş mərcəyi-təqlidin fətvasına əsasən xümsə aidiyyatı olan mallar

**60. Əgər xüms xüsusunda sizə təqlid edə bilərəmsə, keçmişdə Ayətullah Ərakiyə təqlid etməyimlə bağlı vəzifəm nədir? Onun fətvasına əsasən, (almış olduğum) hədiyyə və mükafatlara xüms düşür, indi onların xümsünü verməliyəm?**

**Cavab: Əgər xümsünü ödəməmisinizsə, diri müctəhidin fətvasına uyğun əməl edə bilərsiniz, bu halda hədiyyənin xümsünü vermək sizə vacib deyil.**

**61. Nəzərə alsaq ki, İmam Xomeyninin (r) nəzərinə əsasən satışdan sonrakı "məunə"nin xümsü dərhal ödənilməlidir, ilər boyu onun müqəllidi olmağıma rəğmən bu məsələ üzərində dayanmış və ona əməl etməmişəm; hazırda bir neçə il olar ki, sizin müqəllidinizəm, xüms ilim olub, indi də var. Malımın xümsünü tam ödəməyə çalışmışam. Odur ki, sizdən xahiş edirəm, İmam Xomeyninin (r) müqəllidi olduğum illərdə həmin təklifə əməl etməməyimlə bağlı məni öhdəliyimdən azad edəsiniz.**

**Cavab: İndi onlara dair heç bir təklifiniz yoxdur.**

## Xümsə səlahiyyəti çatmayana vücuhatın (şəri vergi) verilməsi

**62. İmam Xomeyninin (r), sizin və bəzi fəqihlərin mübarək rəyinə əsasən vücuhat işlərinin müsəlmanların işinə səlahiyyəti çatana (vəliyyi-əmrə) aid olduğunu nəzərə alsaq, səlahiyyəti çatmayana (qeyri-vəliyyi-əmrə) şəri vergi ödəməyin hökmü nədir?**

**Cavab: Möhtərəm mərcəyi-təqlidlərin hər birinin müqəllidləri imam və seyidlərin payını ödəyərkən mərcəyi-təqlidin fətvalarına əsasən əməl etsələr, vəzifələrini yerinə yetiriblər, həm də məsuliyyətdən qurtulmaq deməkdir.**

## Xümsün səlahiyyətlisindən (vəliyyi-əmr) icazə almaq

**63. Təqlid edən şəxs xümsün səhmi-imamını xeyir işlərə, məsələn elm ocağına və ya uşaq evinə xərcləməsi üçün təqlid etdiyi müctəhiddən icazə alması vacibdirmi, yoxsa hər müctəhiddən icazə alması yetər? Ümumiyyətlə, müctəhidin icazəsi vacibdirmi?**

**Cavab: Bir qayda olaraq, hər iki (imam və seyid) payın içazəsi müsəlmanların səlahiyyətli rəhbərinin (vəliyyi-əmr) ixtiyarındadır. Hər kimin öhdəsində və ya malında imamın, yaxud seyidlərin haqqı olarsa, onu xümsün səlahiyyətlisinə, ya da onun tərəfindən icazəsi olan vəkilə təhvil verməlidir. Əgər onu qeyd edilən yerlərdən birinə xərcləmək istəsə, ilk öncə bunun üçün icazə almalıdır, eyni halda mükəlləf bu xüsusda mərcəyi-təqlidinin fətvasına riayət etməlidir.**

## Xüms məsələləri üzrə vəkillərin qəbz verməsi

**64. Sizin vəkilləriniz, yaxud şəri hüquqların yığımında vəkil olmayan şəxslər, xüms ödəyən kəslərə iki (imam və seyid) payın qəbzini verməyə borcludurlar, ya xeyr?**

**Cavab: Öz şəri hüquqlarını bizim möhtərəm vəkillərə və ya rəsmi ofisimizə çatdırmaqdan ötrü başqa şəxslərə ödəyənlər, onlardan üzərində möhrümüzün olduğu qəbzlər tələb etsin.**

## Xümsü bağışlamaq

**65. Xüms verənə hansı hallarda xümsünü bağışlamaq olar?**

**Cavab: İmam (ə) və seyidlərin payı bağışlanmazdır.**

## Şəri vücuhatların əmanət verilməsi

**66. Mən bir ərazidə şəri hüquqları toplayıram və buna icazəm var. Bəzən banklar bağlı olduğundan çeklərini nağd pula çevirmək üçün bəzi insanlar mənə müraciət edir. Nağd pula ehtiyacı olanın ehtiyacını həll etmək məqsədilə nağd xüms pulunu verib əvəzində çek almağım doğrudurmu?**

**Cavab: Şəri hüquq ünvanında aldığınız əmanətləri kiməsə vermək haqqınız yoxdur; vəkili olduğunuz mərcəyi-təqlidin icazəsi olduğu hal isə istisnadır.**

## XÜMSÜN MÜSALİHƏSİ, MÖHLƏT ALMAQ VƏ ALIB-QAYTARMAQ [1]

### Xümsü ödəmək iqtidarında olmamaq

**67. Bəzi şəxslərə xüms vacib olsa da, indiyədək xüms ödəməyiblər, hal-hazırda da ödəmək iqtidarında deyillər, yaxud bu işdə çox çətinlik çəkirlər. Bu halda onların hökmü nədir?**

**Cavab: Xümsü ödəməyə sırf gücün çatmaması və ya işin çətinliyi öhdəlikdən qurtulmağa, yaxud təklifin götürməsinə səbəb olmaz, imkan daxilində ödənilməsi vacibdir. Belə şəxslər xümsün səlahiyyətlisi (mərcə) və ya vəkilindən möhlət almaqla, tədricən və gücləri çatan miqdar və zaman kəsiyində ödəyə bilərlər.**

**68. Xaricdə yaşayan biri malının xümsünü ödəməyib, evini də xümsü verilməmiş pulla alıb. Hal-hazırda xümsü ödəməyə yetəcək pulu yoxdur, amma borclu qaldığı xümsü qaytarmaq üçün hər ilin xümsündən bir az artıq miqdar ödəyir. Bu iş doğrudurmu?**

**Cavab: Sualın fərzinə əsasən, öhdəsində olan xümsü hesablayıb, sonra tədricən ödəməsi üçün möhlət almalıdır. İndiyə kimi ödədiyi məbləğə görə də vəkillərimizdən birinə müraciət etsin.**

**69. Bir nəfər neçə illərdir ki, illik gəlirinin xümsünü ödəmir, indi də nə qədər borclu olduğunu bilmir. Bu halda xüms borcunu necə ödəsin?**

**Cavab: Xümsə aidiyyatı olan bütün mallarını hesablayıb xümsünü verməlidir. Şübhəli məqamlarda isə xümsün səlahiyyətlisi və ya vəkili ilə müsalihə etməlidir.**

### Alıb-qaytarılmış (dəstgərdan edilmiş) məbləğin xümsü

**70. Əgər xümsü alıb-qaytarsaq, növbəti ildə və ya illərdə xümsün qalanını ödədiyimiz zaman borc aldığımız miqdarı ödəməliyik, yoxsa növbəti ilin gəlirindən olduğu üçün ona da xüms gəlir? Yəni xümsə xüms düşürmü?**

**Cavab: Qeyd edilən məbləğin də xümsünü verməlisiniz.**

### Alıb-qaytarılmış (dəstgərdan) məbləğin ödənişində gecikmə

**71. Yeddi il öncə boynuma bir miqdar xüms gəldi və onu müctəhidlə alıb-qaytarma (dəstgərdan) edib, sonra bir hissəsini ödədim, qalanı isə öhdəmdə qaldı. O vaxtdan indiyədək qalan məbləği ödəmək iqtidarında deyiləm. Bu halda təklifim nədir?**

**Cavab: Xümsü ödəməyə gücü çatmamaq təklifi aradan qaldırmır, xüms borcunuzu ödəməyə - tədricən olsa belə - gücünüz çatdığı vaxt onu ödəməlisiniz.**

### Sərmayə qoyulmuş xümsün müsalihəsi

**72. Mən evlənmək qərarına gəldiyim üçün qazanc əldə etmək məqsədilə sərmayəmin bir hissəsini instituta yatırdım. Onun xümsü barəsində müsalihə etmək olarmı?**

**Cavab: Əgər qeyd edilən sərmayə qazanc mənfəətiniz sayılırsa, xüms ilinin başa çatması ilə xümsünü ödəməyiniz vacibdir. Qəti (hazır) xümsün müsalihəsi olmaz.**

### Digər mərcəyi-təqlidin vəkili ilə alıb-qaytarma (dəstgərdan)

**73. Bir müctəhidin vəkili başqa müctəhidin müqəllidi ilə alıb-qaytarma (dəstgərdan) edə bilərmi?**

**Cavab: Sualın fərzinə əsasən, alıb-qaytarma (dəstgərdan) əməli kifayət deyil.**

## Alıb-qaytarılmış (dəstgərdan) məbləğin ödənişində inflyasiyanın (bahalaşma) hesablanması

**74. Şəmsi 1368-ci ildə xümsü ayırmaq məqsədilə sizin nümayəndələrinizdən birinə müraciət etdim. Xüms borcumdan bir qismini həmin vaxt ödədim, qalanını hələ də ödəməmişəm. Digər tərəfdən bu il təməttö həccinə getməliyəm. İndi qalan məbləği o günə uyğun verməliyəm, yoxsa günün qiyməti ilə hesablamalıyam, təklifim nədir?**

**Cavab: Pulun inflyasiyası (dəyərini itirdiyi) xüsusunda ehtiyat, şəri hakimlə müsalihə etməkdir. Əgər xüms borcunuzu illik gəlirinizdən vermək istəyirsinizsə, onun xümsünü də verməlisiniz.**

## Xümsün tədricən ödənişi

**75. Əgər anbara yığdığımız çəltiyin xüms ili keçibsə, yalnız - istifadə üçün - ordan çıxarılan qədərin xümsünü vermək olar?**

**Cavab: Suala əsasən, hamısının xümsünü vermək vacibdir.**

## Xüms borcunun ödənişini gecikdirməklə yanaşı sədəqə vermək

**76. Mənim bir miqdar xüms borcum var və bunun üçün sizin dəftərxananızdan bir il möhlət almışam. Bu müddət ərzində ara-sıra sədəqə verə bilərəm, yoxsa pullarımı yığıb yaxın zamanda xümsü ödəməli, sonra sədəqə verməliyəm, ələlxüsus sədəqə vermək qeyd edilən müddətdə xüms pulunun azalması ehtimalını artırırsa?**

**Cavab: Vacib xümsün ödənişində səhlənkarlığa səbəb olmamaq şərti ilə şəninə uyğun sədəqə verməyin eybi yoxdur.**

## Alıb-qaytarılmış (dəstgərdan) məbləğin ödəniş yeri

**77. Deyilənə görə xüms pulunu hansı dəftərdə dəstgərdan etmişiksə, xümsu sonradan ora ödəməliyik. Bu belədir? Yoxsa icazə verirsinizmi, dəstgərdan etdikdən sonra xüms pulunu bölgələrdəki nümayəndələrinizdən birinə ödəyək?**

**Cavab: Alıb-qaytarmadan (dəstgərdan) yaranan borc, dəstgərdan edən şəxsə deyil, İmam (ə) və “səhmi-sadata” aid olduğundan Ayətullah Xameneinin səlahiyyətli nümayəndələrindən birinə ödəməyiniz kifayətdir.**

## Başqası üçün dəstgərdan etmək

**78. Bir nəfər başqası tərəfindən xümsü alıb-qaytara (dəstgərdən) bilərmi?**

**Cavab: Pul sahibi tərəfindən vəkaləti varsa, eybi yoxdur.**

## Xümsü ödəməklə həcc istitaətini (qüdrət və şərait) itirmək

**79. Əgər “müstəti” (həccə getməyə tam şəraiti olan) birinin təməttö həccinə yazılışından öncə xüms ili başa çatsa və xümsünü ödədiyi təqdirdə həccə yazılmağa yetərli pulu qalmasa, bu halda ona xüms düşürmü? Yaxud həmin şəxs istitaətinin – qüdrətini itirirmi?**

**Cavab: Əgər istitaət birinci hasil olubsa, sualın fərzinə əsasən, qeyd edilən məbləği xümsə səlahiyyəti olanın (müctəhidin) vəkili ilə alıb-qaytarma (dəstgərdan) etsin və tədricən borcunu ödəsin.**

(1) “Dəstgərdan” (bir əldən alıb o biri əldən qaytarmaq) məşhur şəriətçilər arasında bir termindir. Xümsünü hesablayıb, amma müəyyən səbəblərdən ödəməyə gücü çatmayan mükəlləf mərcəyi-təqlidə və ya vəkilinə müraciət edir; ondan borc alıb elə oradaca xümsünü ödəyir və ilk fürsətdə onu qaytarır. Mükəlləfə borc ünvanında verilən və xüms adı ilə alınan əmələ “dəstgərdan” deyilir.

XÜMSÜN ÖDƏNİŞİNDƏ VƏKİL TUTMAQ

## Xümsün vəkildə batması

**80. Əgər bir şəxs xüms pulunu mərcəyi-təqlidin dəftərinə çatdırmaqdan ötrü başqasına versə, pul da yol əsnasında itsə və ya oğurlansa, buna kim zamindir? Belə bir şəraitdə xüms vermək təklifi borclunun boynundan götürülürmü?**

**Cavab: Sualın fərzinə əsasən, əgər vasitəçilik edən şəxs onu qorumaqda səhlənkarlıq etməyibsə, zamin deyil, əvəzini ödəməyə də gərək yoxdur. Amma xümsü tapşırdığı şəxs mərcəyi-təqlidin vəkili deyilsə, xüms borclunun boynundandır və ödəməsi vacibdir.**

## Xümsün ödənişi üçün vəkil etmək

**81. Bir nəfər şəxsi torpaqlarını övladları arasında bölüb və onlara bildirib ki, bu yerlərin xümsünü verməmişəm. Hər kəs payına düşən torpağın xümsünü ödəməlidir. Övladlar da bu şərtlə torpağa sahib olublar. Bu halda övladlar onun xümsünü verməsələr, torpaq sahibinin boynunda qalırmı?**

**Cavab: Suala əsasən, vəkil etdiyi şəxslər xümsü ödəməyibsə, boynunda heç bi şey yoxdur.**

## Xümsü münasib şəxslərə verməkdən ötrü icazə

**82. Şəxsən xüms ödəyənin özünə seyidlərin payının seyid yoxsullara verməsinə icazə verirsinizmi?**

**Cavab: Seyidlərin payı öhdəsində olan kəs, ona haqqı çatana verməsi üçün icazə almalıdır.**

**83. Sizin müqəllidləriniz xümsün sərf olunmasında seyidlərin payını yoxsul seyidlərə verə bilərmi, yoxsa şəri yerlərə xərclənməsindən ötrü xümsün hamısını (İmam (ə) və seyidlərin payını) vəkilinizə verməlidir?**

**Cavab: Bu xüsusda İmam (ə) və seyidlərin payı arasında fərq yoxdur (hər ikisi vəkilə verilməlidir).**

**84. Şəri hüquqlar (xüms, rəddi-məzalim, zəkat) hökumət işlərindən sayılır, ya xeyr? Öhdəsində xüms olan kəs şəxsən seyidlərin payını, rəddi-məzalimi və zəkatı müstəhəq şəxslərə verə bilər?**

**Cavab: Zəkatda şəxs özü zəkatını dindar və iffətli yoxsullara verə bilər. Rəddi-məzalimdə ehtiyat, şəri hakimdən icazə almaqdır. Xümsdə isə xümsün hamısını ofisimizə, yaxud səlahiyyətli vəkillərimizdən birinə vermək vacibdir ki, nəzərdə tutulmuş şəri yerlərə xərclənsin, yaxud da münasib şəxslərə verməsi üçün icazə almalıdır.**

## BİRİNCİ FƏSLİN QEYDLƏRİ VƏ XÜLASƏSİ
## XÜMSÜN HESABLANMASI VƏ ÖDƏNİŞİNƏ DAİR MƏSƏLƏLƏR

- **Xüms vacib əməllərdəndir və onu ödəmək təcili (təxirəsalınmaz) vacibdir. Xümsün təcili ödənilməsi çətin olsa, mümkün olan vaxtda ödəmək üçün mərcəyi-təqlidin rəsmi ofisindən və ya nümayəndəsindən icazə ala bilər.**
- **Xümsün məbləğini bir kənara qoymaqla, təklif (vəzifə) insanın üzərindən götürülmür.**
- **Xüms ödəmək imkanı olmayan şəxs mərcəyi-təqlidin vəkilindən möhlət almalı, mümkün olan ilk fürsətdə borcunu ödəməlidir.**
- **Mükəlləf də öz xümsünü hesablaya bilər, amma xüms məsələlərinin incəliklərini nəzərə alsaq, yaxşı olar ki, mərcəyi-təqlidin rəsmi baş ofisinin "şəri vergi" (vücuhat) bölməsi, yaxud nümayəndəsi, yaxud da səlahiyyətli alimlə xümsünü hesablaya bilər.**
- **Əgər mükəlləf bir mal və ya pulun xümsünü xümsü verilməmiş puldan ödəmək istəsə, əvvəl həmin pulun xümsünü verməli, sonra məlum mal və ya pulun xümsünü ödəməlidir.**
- **Bir borc eyni xüms ilinin yaşam ehtiyacları və zəruri məişət xərclərinə aid olarsa, gəlirdən azaldılır.**
- **Mükəlləf öldüyü gün onun xüms ilinin başı sayılır və bu əsasla malının xümsü ödənilməlidir.**
- **Mağaza sahibi nağd olan bütün mal və pullarını xüms ilinin başında hesablayıb qiymət qoymalı, sonra toplamını əsas sərmayə ilə ölçməlidir. Sərmayədən artıq bir şey varsa, mənfəət sayılır və xümsü verilməlidir.**
- **Əgər bir mala xüms düşdüyünü bilib, amma daha öncə ödəyib-ödəmədiyini bilmirsə, xümsünü verməlidir.**
- **Əgər xümsünü verdiyi bir mal xümsü verilməmiş malla qarışarsa, belə ki, həmin qarışıq malın bir qismi istifadə olunarsa, xüms ilinin sonunda yerdə qalanın xümsü xümsü verilməmiş malıln xümsü verilmiş mala nisbəti ilə hesablanır. Misal üçün, əgər xümsü verilmiş pul 1000 manat, xümsü verilməmiş pul isə 500 manatdırsa, bu ikisinin nisbəti ½ nisbətidir. Məsələn, xüms ilinin başında 600 manat qalıbsa, 400 manatının xümsü yoxdur, 200 manatının isə xümsü ödənilməlidir.**
- **Əgər bir nəfər xümsü verilmiş pulla xüms verilməmiş pulu vahid hesabda saxlayırsa, ondan xərclədiyi zaman xümsü verilməmiş puldan götürdüyünü niyyət edə bilər.**
- **Xümsü hesablamağın meyarı maliyyə ilidir və bu da mükəlləfin niyyəti və qəsdi ilə təyin edilmir, əksinə ilk maaş alınan gün və ya sərmayənin mənfəəti əldə edilən, yaxud da məhsul götürülən ilk gün xüms ilinin başıdır.**
- **Xüms ili qəməri və ya şəmsi tarixlə hesablana bilər.**
- **Xüms ili olmasının meyarı gəlirin olmasıdır. Deməli, evdar qadın və ya valideynləri ilə yaşayan övladın gəliri olsa, xüms ili də ola bilər.**
- **Xümsün səlahiyyətlisindən (ixtiyar sahibindən) icazəsi olanlar xümsü qəbul edə bilərlər. Xümsü qəbul etdikləri halda xüms verənə möhürlü qəbz təqdim etməyə borcludurlar.**
- **Xüms bağışlanılan deyil və vəkillərdən heç birinin xümsü bağışlamaq səlahiyyəti yoxdur.**
- **Bəzi məqamlarda xümsün miqdarının dəqiq təyini mümkünsüzdürsə, mərcəyi-təqlidin vəkilləri xüms verənlə müsalihə (razılaşma) edə bilərlər.**
- **Mərcəyi-təqlid və ya vəkilinin icazəsi olmadan mükəlləf xümsünü yoxsul seyidə verə, yaxud savab işlərdə xərcləyə bilməz.**

## 1. İLLİK ZƏRURİ XƏRCLƏRDƏN ƏLAVƏ QAZANC

### Əkinçilik məhsulu

85. Əgər əkinçilik məhsulu xüms ilindən sonra əldə edilsə, əkinçinin bu xüsusda təklifi nədir?

**Cavab: Xüms ilindən sonra əldə edilən məhsullar növbəti ilin gəliri hesab olunur və həmin ildə "məunə"dən artıq qalarsa, xümsü var.**

### Ehtiyat saxlanılan taxıl məhsulları

86. Əgər əkinçilər düyü məhsulunu yığdıqdan sonra bir hissəsini satıb yaşam xərclərinə sərf etsələr, bir hissəsini də illik xərclərindən ötrü ehtiyat saxlasalar, yaydan etibarən illik xərc üçün ayrılan düyüyə xüms düşürmü?

**Cavab: Xüms ilinin başında illik xərcdən artığına xüms düşür.**

### İstifadəsiz mallar

87. Yaşadığım evə bir neçə plastik qapı aldım, amma iki ildən sonra istifadə marağım olmadığından onların satıb pulunu alüminium şirkətinin hesabını köçürdüm ki, sözügedən qapıların yerinə həmin qiymətə alminium qapılar hazırlasınlar. Həmin pula xüms düşürmü?

**Cavab: Qeyd etdiyiniz şeyin istifadə olunmadığını fərz etsək, alınan pulun qiymət artımına nəzərən xümsü var və qiymətin artığı satış ilinin gəliridir, Əgər həmin ilin "məunə"sinə sərf olunubsa, xümsü yoxdur.**

### Gecikmiş maaşın xümsü

88. Dövlət tərəfindən aylıq maaşı bir neçə il gecikdirilən işçilər maaşlarını aldığında o pullar həmin ilin (əldə etdikləri ilin) gəlirlərindən hesab olunur və xüms ilinin başında xümsü hesablanmalıdır, yoxsa qeyd edilən pullara ümumiyyətlə xüms düşmür?

**Cavab: Gecikmiş maaşlar əldə edilən ilin qazancından sayılır, o ilin xərclərindən artıq qalanına xüms düşür.**

89. İşlədiyim yerin bir neçə ildir mənə borcu var və hələ də ödəməyib. O pulu alan kimi ona xüms düşür, yoxsa üstündən bir il ötməlidir?

**Cavab: Sizə ödənilməli olan pul əmək haqqıdırsa və ilin başına kimi əldə edə bilməmisinizsə, əldə etdiyiniz ilin gəlirindən sayılır, belə ki, o ilin zəruri xərclərinə sərf olsa, xümsü yoxdur.**

90. Xüms ilimin başı (avqust) ayının əvvəlidir. Universitet və məktəblərin imtahanları isə adətən, aprel və may

aylarında başlayır. Deməli, altı aydan sonra imtahanlar ərəfəsində əlavə iş saatlarımızın haqqı ödənilir. Əgər xüms ili başa çatmamışdan öncə gördüyüm əlavə işlərin haqqını xüms ili başa çatdıqdan sonra alsam, ona xüms düşürmü?

**Cavab: Gecikmiş əmək haqqı və əlavə iş haqqı əldə edilən ilin gəlirindən sayılır. Əgər həmin ilin xərclərinə sərf edilibsə, xümsü yoxdur.**

91. Əgər bir işçi xüms ilinin əmək haqqısını il başa çatdıqdan sonra əldə etsə, xümsünü verməsi vacibdirmi?

**Cavab: Əgər xüms ilinin başına kimi əldə edilməndirsə, xümsünü vermək vacibdir, hərçənd hələ də əlinə çatmayıb. Əks halda əldə etdiyi ilin gəlirindən sayılır.**

## Xüms ilindən qabaq aylıq maaş almaq

92. Xüms ili, məsələn dekabr ayının sonuna düşən işçilər yeni ilin ilk ayında xərcləri olsun deyə əmək haqlarını xüms ilinin başa çatmasından beş gün qabaq (avans olaraq) alırlar. Onların xümsünü vermək vacibdirmi?

**Cavab: Əgər xüms ili başa çatmamışdan öncə hər hansı aylıq alınıb və ilin sonuna kimi "məunə"yə xərclənməyibsə, xümsünü vermək vacibdir.**

## Əmək haqqının qabaqcadan alınması

93. Əgər xüms ili başa çatmazdan öncə işin yarısı xüms ilində, yarısı da ondan sonra (yeni xüms ilində) görülmək şərti ilə əmək haqqını avans alsaq, bütün avansın xümsünü vermək vacibdirmi?

**Cavab: Avansın qarşılığında iş görülmüş miqdarının xümsü verilməlidir.**

## Təqaüd (pensiya) pulu

94. Aylıq alan təqaüdçülər il ərzində aldıqları təqaüdün xümsünü verməlidirlər?

**Cavab: Əgər illik xərclərindən artıq gəlsə, xüms ilinin başında artığının xümsü verilməlidir.**

## Təqaüdçülərə ödənilmiş məbləğlər

95. Məlum olduğu kimi işçilər təqaüdə çıxdıqdan sonra onlara təqaüd verilir, bu özü də üç qisimdən ibarətdir:

a. mükafat olaraq təqaüdçüyə verilən məbləğ;
b. hər ay işçinin əmək haqqından tutulub təqaüd çıxdıqdan sonra ona ikiqatı ödənilən məbləğ (sosial yardım);
c. işçinin istifadə etmədiyi məzuniyyətlər müqabilində aldığı məbləğ. Qeyd edilən məbləğlərin xümsü barəsində nəzəriniz nədir?

**Cavab: Birinci qismin xümsü yoxdur, amma ikinci qisimdə əmək haqqından tutulmuş məbləğ xüms ilinin başına kimi qaytarılandırsa, əldə etdikdən sonra xümsü var. Yox, əgər qaytarıla bilməzsə və işçinin ixtiyarı ilə də maaşdan tutulmursa, üçüncü qismin**

**hökmündədir. Əmək haqqında tutulma işçinin ixtiyarı ilədirsə, ehtiyat-vacibə əsasən, onu əldə edən kimi xümsünü versin. Üçüncü qismə gəlincə, xüms ilinin başına kimi xərclənməmiş qalsa, xümsü var.**

## Qeyri-müsəlmanlardan əldə edilmiş gəlir

96. Qeyri-müsəlman ölkəsində işləməklə, qeyri-müsəlmanlardan alınan əmək haqqına xüms vacibdirmi?

**Cavab: Xüms ili bitdikdə əgər illik zəruri xərclərinə (məunəyə) sərf olunmayıbsa, xümsünü vermək vacibdir.**

## Məddahların gəliri

97. Əgər bir nəfərə məddahlığına görə pul verilirsə, ona xüms düşürmü?

**Cavab: İllik xərcindən artıq qalsa, xümsü var.**

## Zaminliyə görə əmək haqqından pul tutulması

98. Mən bir nəfərin bank kreditinə zaminəm. O, bir neçə aylıq ödənişdən sonra kredit borcunu ödəmədi. Bu üzdən kredit aylıqları mənim əmək haqqımdan tutuldu:

a. Əgər o şəxs əmək haqqımdan tutulmuş məbləği xüms ilimdən sonra ödəyərsə – nəzərə alsaq ki, əmək haqqımdan tutulmuş məbləğ mənim əlimə çatmamışdan öncə kredit verənin bank hesabına köçürülüb – ona xüms düşürmü?
b. Əgər mən əlavə xərcləri (kredit faizi) ödəməkdən qaçmaq üçün, digər aylıqları banka birdəfəyə ödəsəm və kredit alan şəxs əmək haqqımdan tutulmuş məbləğləri xüms ilim bitdikdən sonra mənə ödəsə, ona xüms düşürmü?

**Cavab: Suala əsasən, əmək haqqınızdan tutulmuş və xüms ilindən sonra əlinizə çatmış məbləğin xümsünü onu aldığınız vaxt verməlisiniz.**

## Xüms ilindən qabaq qazancı mala çevirmək

99. Əgər insan xüms ilinin qazancını ilin sonunda gələcəkdə zəruri xərclərinə sərf etməkdən ötrü mala və ya sikkəyə çevirsə, xümsü vacibdirmi?

**Cavab: İlin sonunda illik qazancı gələcəkdə satıb zəruri xərclərə sərf etməkdən ötrü sikkəyə və ya digər mala çevirməsi xümsün vacibliyini qüvvədən salmır və xümsünü verməlidir.**[(1)]

## Abadlıq və tikinti işləri üçün pul ehtiyatı

100. Biz abadlıq və tikinti işləri görmək üçün böyük miqdarda pula ehtiyacımız və bir dəfəyə o pulu xərcləmək bizə çətindir. Odur ki, abadlıq üçün kassa təsis etmişik və hər aya ora pul qoyuruq. Məlum məbləğ toplanandan sonra abadlıq işlərini başlayacağıq. Kassada yığılan pul ehtiyatına xüms düşürmü?

**Cavab: Əgər şəxs tərəfindən kassaya ödənilən pullar illik gəlirindən olsa və abadlıq işlərinə xərcələnənə kimi onun mülkiyyətində qalsa, xümsünü verməsi vacibdir.**

(1) Tam məlumat üçün 3-cü fəslin, 11-ci bölümünə (Yaxın gələcəkdə zəruri xərclər üçün ehtiyac duyulan çoxlu mal) müraciət edin.

BORC VERİLMİŞ MAL

## Xüms ilindən sonra ələ çatan borc

**101. Əgər insanın başqasına verdiyi borcu xüms ilindən sonra alınə çatsa, bu mal həmin ilin gəlirindəndir, yoxsa borc verdiyi ilin qazancından hesab olunur?**

**Cavab: Borc verildiyi ilin gəlirindən sayılır, ona görə də ilin sonuna kimi borcludan borcunu ala bilsə, xüms ili başa çatdığında xümsünü verməlidir. Yox, əgər ilin sonuna kimi borcunu ala bilməsə, aldığı andan etibarən gecikmədən xümsünü ödəməlidir.**

## Ödənilməmiş borc

**102. Əgər bir nəfər borc alıb həmin ildə ödəyə bilməsə, onun xümsünü ödəmək borc verənin öhdəsindədir, yoxsa borc alanın?**

**Cavab: Borc almış şəxsə borc malın xümsü vacib deyil, yalnız illik gəlirindən bir qismini ödəyib və o məbləğ qalmadığı, yaxud sərmayə qoyulduğu təqdirdə vacibdir. Borc verənə gəlincə, əgər borc malı illik əmək gəlirindən, xümsünü ödəməmişdən öncə veribsə, ilin sonuna kimi borcu geri almaq iqtidarındadırsa, xüms ilinin başında xümsünü verməsi vacibdir. Yox, əgər ilin sonuna kimi borcunu ala bilmirsə, hal-hazırda xüms verməsi vacib deyil, amma əlinə çatdığında xümsünü verməlidir.**

## Banka yatırılmış əmanət

**103. İki il müddətinə əmanət kimi banka yatırılmış pula xüms düşürmü?**

**Cavab: Qazanc mənfəətindən ehtiyat saxlanılan hər hansı miqdarda pula bir dəfə xüms düşür. Pulun əmanət kimi banka yatırılması onu xümsdən azad etmir. Əlbəttə, xüms ilinin başına kimi borc alandan borcunu ala bilmirsə, bu pul əlina çatana kimi xümsünü ödəməsi vacib deyil.**

## Ortaq iş üçün borc

**104. Xüms ilim başa çatmamışdan öncə bir nəfər borc pul verdim. O şəxs də həmin pulla iş qurmaq və qazancını aramızda "bil-münasifə"(1) bölmək istəyirdi. Nəzərə alsaq ki, həmin pulun xümsünü verməmişəm və hal-hazırda da əlimdə deyil, sizin bu xüsusda nəzəriniz nədir?**

**Cavab: Əgər o malı borc vermisinizsə və xüms ilinin başına kimi geri alına bilməzsə, hazırda xümsü sizə vacib deyil, sizə çatdığı zaman isə vacib olacaq. Amma bu halda borc almış şəxin işindən mənfəət götürmək haqqınız yoxdur, əgər nəsə tələb etsəniz, sələm və haramdır. Yox, əgər o malı müzaribə sərmayəsi ünvanında ona vermisinizsə, müqaviləyə əsasən, mənfəətdə şəriksiniz və sərmayə borcundan sayılan bütün pulların xümsünü verməlisiniz.**

**105. Əgər bir nəfər xüms ilindən öncə gəlirinin bir qismini borc verib xüms ilindən bir neçə ay sonra geri alsa, bu pulun hökmü nədir?**

**Cavab: Borcu borcludan aldıqdan sonra xümsünü vermək vacibdir.**

**106. Mən borca pul vermişəm, hansı ki, geri aldığımda xüms ilimdən keçmişdi. Sizin nəzərinizə əsasən, pulu aldıqdan sonra**

**xümsünü verməliydim. Amma məndən borclu şəxs razılaşma ilə pulun yerinə maşın verdi. Bu halda xümsü necə olmalıdır? Görəsən, dərhal ödəməliyəm, yoxsa başqa zamanda?**

**Cavab: Xümsə aid miqdarının xümsünü dərhal ödəməyiniz vacibdir.**

**107. İki həftədən sonra xüms ilim başa çatır. Hazırda xümsünü məlum vaxtda ödəyəcəyim bir miqdar pulum var. Digər tərəfdən həmin pula tanışlardan biri üçün vacib mal almalıyam, o da pulunu xüms ilimdən sonra ödəcəyəcək. Xüms ilindən sonra əlimə çatacaq pula xüms düşürmü?**

**Cavab: Sualın fərzinə əsasən, pul sizə çatdığı zaman xümsünü verməlisiniz.**

## Bankda dondurulmuş pul

**108. Bir nəfər bankdan kredit alır, bank da kredit verdikdən sonra onun bank hesabındakı əmanətin müəyyən hissəsini dondurur ki, tam ödənişdən sonra – adətən bir il çəkir – ona qaytarsın. Bir ildən çox dondurulmuş pula xüms düşürmü?**

**Cavab: Əgər dondurulmuş məbləğ illik gəlirindən olsa, xüms ili başa çatdıqdan sonra xümsə aid olur və əldə edilməsi mümkün olduğu vaxt xümsü verilməlidir.**

## Evin girov pulu

**109. Kirayəçinin girov (önödəmə) ünvanında ev sahibinə verdiyi pulun xümsü kirayəçinin öhdəsinədir, yoxsa ev sahibinin?**

**Cavab: Əgər kirayəçinin gəlir mənfəətindən olsa, pulunu ev sahibindən geri aldıqdan sonra xümsünü verməlidir; kirayəçidən pulu borc adı ilə alan ev sahibinə isə heç nə düşmür.**

**110. Adətən, ev kirayəsindən ötrü qabaqcadan müəyyən məbləğdə pul verilir. Əgər həmin pul qazanc mənfəətindən olub bir neçə il ev sahibində qalsa, geri aldıqdan dərhal sonra xümsü verilməlidir? Həmin pula başqa evi kirayə tutsa necə?**

**Cavab: Xümsü dərhal ödənilməlidir, amma kirayə tutmaq üçün həmin pula möhtacdırsa, icazə almaqla ehtiyacını aradan qaldırdıqdan sonra ödəyə bilər.**

## “Qərzül-həsənə” (əmanət, borc) müəsisəsinin sərmayəsi

**111. Bir neçə nəfər “qərzül-həsənə” müəsisəsi yaratmaq qərarına gəliblər ki, ehtiyacları olduğu surətdə bir-birinə borc verə bilsinlər. Hər üzv işin təşkilində ilk ödəmədən əlavə, sərmayənin artması üçün hər ay müəyyən məbləğdə pul ödəməlidir. Lütfən, hər üzvün xüms ödəmə keyfiyyətini bəyan edin, əgər xəzinədəki sərmayə borc ünvanında daim üzvlərin əlində olsa, xümsü necə ödənməlidir?**

**Cavab: Üzvlərdən hər biri öz payını xüms ili keçmiş gəlir mənfəətindən veribsə, xümsünü ödəməlidir. Yox, əgər öz payını il ərzində veribsə, ilin sonuna kimi onu geri almaq iqtidarındadırsa, ilin sonunda xümsünü verməsi vacibdir. Digər halda, pul xəzinədə olduğu müddətcə xümsünü ödəmək vacib deyil, amma geri almaq mümkün olduqdan sonra dərhal xümsü verməlidir.**

**112. “Qərzül-həsənə”nin (borc) azad şəxsiyyət hüququ varmı? Əgər varsa, ondan hasil olan mənfəətə xüms düşürmü? Əgər azad şəxsiyyət hüququ yoxdursa, xümsü necə ödənilməlidir?**

**Cavab: Əgər xəzinənin sərmayəsi ayrı-ayrı şəxslərin ortaq şəxsi mülküdürsə, ondan hasil olan mənfəət hər bir üzvün payına nisbətən şəxsi mülkü sayılır və xüms ilinin başına kimi xərclənmədən qalıbsa, xümsü verilməlidir. Yox, əgər xəzinənin sərmayəsi şəxs və ya şəxslərin sərmayəsi olmayıb ümumi vəqf və bu qəbildən olan şeylərdən olsa, ondan hasil olan mənfəətin xümsü yoxdur.**

**113. Möminlərdən on nəfər qərara gəlib ki, bir nəfər hər ay, məsələn iyirmi manatdan yığsın və hər ay püşk atmaqla bir nəfər o pulu götürüb şəxsi xərclərinə sərf etsin. Beləcə, on iki aydan sonra növbə son nəfərə çatır, bu mənada ki, on iki ay ərzində ödədiyi iki yüz manatı geri götürəcək. Ona xüms vacibdirmi, yoxsa illik xərcindən sayılır? Əgər bu şəxsin müəyyən xüms ili varsa, aldığı pul da xüms ili bitdikdən sonra yanında qalsa, xümsünü ödəməyin lüzumundan yaxa qutarlmaqdan ötrü həmin məbləğə ayrıca xüms ili qoya bilərmi?**

**Cavab: Şəxslərin xəzinəyə ödədiyi pul əgər il ərzindəki illik gəlirlərindən olsa, hər bir nəfərin - illik xərcinə sərf etməkdən ötrü - öz növbəsində xəzinədən aldığı məbləğin bir miqdarı xəzinənin borcundan, bir miqdarı isə həmin ilin gəlirindən xəzinəyə ödədiyi məbləğə bərabər olsa, xümsü yoxdur. Yox, əgər ötən ilin gəlirindən olsa, keçən ilin gəlirindən olan məbləğin xümsünü verməlidir və əgər hər iki ilin gəlirindən olsa, hər ilin gəlirinin özünəməxsus hökmü var. Belə ki, illik gəlirindən xəzinəyə ödəmiş olduğu öz payından götürdüyü məbləğ həmin ilin xərcindən artıq olsa, artıq miqdarın xümsündən qaçmaqdan ötrü ayrıca xüms ili qoya bilməz, əksinə bütün illik gəlirləri üçün bir xüms ili təyin etməli və o ilin xərcindən artıq gəlirinin xümsünü verməlidir.**

## “Sərqofli” (2)

**114. “Sərgofli” mağaza adı altında məhkəmə tərəfindən təyin edilmiş məbləğin xümsü dərhal ödənilməlidir, yoxsa xüms ilinin başına, ya da növbəti ilə kimi gözləmək lazımdır?**

**Cavab: Əgər o məbləğin alınması şəri baxımdan halal olsa, cari ilin gəlirdən sayılır və ilin sonuna kimi xərclənməsə xümsü var.**

(1) Bərabər surətdə.

(2) “Sərqofli” dedikdə icarəçinin sahibə ödədiyi və ona icarədə üstünlük haqqı verən pul nəzərdə tutulur. Bu pulu ödəyən icarəçi mülkün icarəsində başqalarından önəmli haqqa malikdir. Qədimdə sərqofli olmamışdır. Bu gün belə bir məfhumdan istifadə olunur və sərqofli aşağıdakı şərtlərlə düzgün sayılır:
Sərqofli miqdarı məlum olmalıdır. Tərəflər razılıqla müamiləni yerinə yetirməlidir. Onlar büluğ həddinə çatmış, ağıllı, yetkin olmalı, sərqofli və onun şərtlərini bilməlidirlər. sərqofli verən icarəçi icarəyə götürdüyü obyektdə nüfuza sahib olur. Obyektin yiyəsi sərqoflini verənin icazəsi olmadanö öz əmlakında malik kimi müdaxilə edə bilməz.

## 2. SƏRMAYƏ VƏ ONUN MƏNFƏƏTİ

**115. Əsl sərmayəyə və mənfəətinə xüms düşürmü?**

**Cavab: Əsl sərmayənin xümsü verildiyi təqdirdə yerdə qalanı ilə ürfi ləyaqət və ictimai mövqeyə münasib yaşam xərclərini təmin edə bilməsə, xümsü yoxdur.**

## Qiymətli kağızlar

**116. Birjada olan qiymətli kağızların xümsü necə hesablanır? Nəzərə alsaq ki, xüms ilinin başında fərdin bir neçə şirkətdə səhmi vardır ki, adətən onlardan bir neçəsinin ticarət simvolu audit kimi məlum səbəblərdən dayanmışdır, nə vaxt, hansı qiymətlə açılacağı da məlum deyil, yaxud səhmin bazar qiymətinə müştərisi yoxdur, bu üzdən gələcək günlərdə qiymətlər düşsün və alıcı tapılsın (qanuna əsasən, hər gün qiymət 2 % dəyişə bilər) deyə gözləməliyik, həm də bu, səhmin həqiqi qiymətini hesablamaq üçün lazımdır.**

**Cavab: Xüms ilinin başa çatması ilə qeyd edilən səhmlərə qiymət qoyulmasına başlanılsın və hər zaman müyəssər olsa, xümsü hesablansın.**

## Sərmayə edilmi şəri haqq ilə ticarət

**117. Mədəniyyət institutunda gələcək maliyyə ehtiyaclarının təminindən ötrü ticarət qovşağı yaradılıb, hansı ki, sərmayəsi şəri haqlardandır. Ordan gələn gəlirin xümsü vacibdirmi? Yaxud xümsünü institutun xeyrinə sərf etmək olarmı?**

**Cavab: Mərcəyi-təqlid və ya vəkilinin icazəsi olmadan şəri haqla – hansı ki, şəri qaydalarda nəzərdə tutulmuş yerlərə xərclənməsi və mədəniyyət institutunun xeyrinə olsa belə istifadəsindən çəkinilməsi vacibdir - ticarətin işkalı var. Onunla ticarət edildiyi halda, hasil olunan mənfəət sərmayəyə tabedir; sərmayənin xərcləndiyi yerlərə sərf edilməlidir və xümsü yoxdur. Əlbəttə, müəsisəyə bağışlanmış hədiyyələrlə ticarət qurmağın eybi yoxdur, mənfəət və gəliri də müəsisə əmlakının sərmayəsindən olsa, xümsü yoxdur.**

**118. Kreditə salınmış evim, bir də ticarət obyektim var, hansı ki, gəlir götürürəm. Şəri vəzifəmə əməl etməkdən ötrü xüms ili təyin etmişəm. Lütf edib, evin xümsünü ödəməkdən məni azad edin, amma ticarət obyektinin xümsünü hissə-hissə ödəmək gücüm var.**

**Cavab: Sualın fərzinə əsasən, məskunlaşdığınız ev nisyə alınıb və xümsü yoxdur, ticarət obyektinizin xümsü vacibdir, məgər ki, xümsü ödədikdən sonra qalan pulla illik zəruri xərclərinizi qarşılayacaq, ürfi şəninizə (cəmiyyətdəki mövqe) uyğun iş görə bilməyəsiniz.**

**119. Ötən il Həcc təşkilatı həcc karvanına lazım olan bütün ləvazimatı məndən aldı, amma satdığım ləvazimatın pulunu (214000 tümən) cari ilin yayında aldım. Bundan əlavə keçən il 80000 tümən almışdım. Nəzərə alsaq ki, özümə xüms ili təyin etmiş və hər xüms ilində "məunə"dən artığının xümsünü verirəm, bir də nəzərə alsaq ki, qeyd edilən ləvazimat hacıların idarəsindən ötrü həcc karvanına müdiriyyəti öhdəmə götürdüyüm vaxt mənim özümə lazım idi, habelə satdığım zaman qiyməti aldığım qiymətdən baha idi, satıldığı məbləğin, yaxud hal-hazırkı qiymət fərqinin xümsünü vermək vacibdirmi?**

**Cavab: Əgər həcc ləvazimatını xümsü verilmiş pulla almısınızsa, satıldığı pulun xümsü yoxdur. Başqa halda xümsünü ödəmək vacibdir. Hər iki halda alış-satış qiymətinin fərqi (qiymət artımı) artım miqdarı azaltıldıqdan sonra satış ilinin gəlirindən hesab olunur.**

## Xümsü verilməmiş pula alınmış mağaza

**120. Təxminən 20 il öncə bir mağaza aldım, bir halda ki, xüms ilim yox idi. Alış üçün ödənilən məbləğin xümsünü vermək kifayətdir, yoxsa bugünkü qiymətin xümsü ödənilməlidir?**

**Cavab: Nə qədər ki, satmamısınız, alış pulunun xümsünü vermək kifayətdir. Əlbəttə, sualın fərzinə əsasən, pulun dəyərdən düşməsi xüsusunda mərcəyi-təqlidin vəkillərindən birini müraciət və müsalihə etmək lazımdır.**

## Kirayə verilmiş mənzil

**121. Üç qardaş üç mərtəbəli ev alıb, bir mərtəbədə məskunlaşıb, digər iki mərtəbəni isə kirayə veriblər. Kirayə verilmiş mənzillərə xüms düşürmü? Onların illik zəruri xərclərindən sayılırmı?**

**Cavab: Əgər evi illik qazanclarından məskunlaşmaq üçün alıb və hazırda yaşam ehtiyaclarını qarşılamaq üçün kirayə veriblərsə, ona xüms düşmür. Yox, əgər bəzi mərtəbələri illik qazanclarından kirayə vermək və kirayə pulu ilə yaşam ehtiyaclarını təmin etmək məqsədilə alıblarsa, evin həmin hissəsi sərmayə hökmündədir və xümsü var.**

## Xümsü verilmiş malın mənfəəti

**122. Məsələn, xümsü verilmiş malla 10000 tümənə bir xalça alıb müəyyən vaxtdan sonra 15000 tümənə satsam, xümsü verilmiş malın 5000 tümən gəliri qazanc mənfəəti sayılır və xümsü verilməlidir?**

**Cavab: Alış qiymətindən əlavə miqdar qazanc mənfəəti sayılır və illik illik zəruri xərclərindən artıq qalsa, xümsü vacibdir.**

## Şəxsi hesaba köçürülmüş pullar

**123. Banklarda pulu əmanət qoymağın bir yolu var, hansı ki, onun əsasında pul heç vaxt istifadəçinin əlinə çatmır, amma bank hesabına müəyyən seriyaya (nömrəyə) uyğun pul köçürülür. İndi o pullara xüms düşürmü?**

**Cavab: Əgər qeyd edilən mal illik gəlirdən olub bankdan alınması mümkün olsa, xüms ilinin başında xümsü verilməsi vacibdir.**

## İcbari yatırım (əmanət)

**124. Mən bankda işləyirəm, işə düzəlmək üçün banka 500000 tümən icbari yatırım etmişəm. Bu məbləğ öz adıma açılmış limitsiz hesabdadır və hər ay gəliri (faizi) mənə ödənilir. Bu halda bank hesabına yatırdığım məbləğin xümsü mənə vacibdirmi? Bunu da qeyd etmək lazımdır ki, sözügedən məbləğ dörd ildir, bankdadır.**

**Cavab: Əgər hal-hazırda o məbləği bankdan götürmək mümkün deyilsə, geri gələnə kimi xümsü vacib deyil, amma illik zəruri xərclərindən artıq olan illik gəlirinin xümsü vardır.**

## Qızıl sikkə

**125. Əgər bir nəfərin qızıl sikkəsi olsa, xümsünü verməsi vacibdirmi?**

**Cavab: Əgər qazanc mənfəətindən sayılsa, xümsün vacibliyi məsələsində digər qazanc mənfəətləri hökmündədir.**

## Qızıl sikkənin xümsünü adi qızılla ödəmək

**126. Qiymətləri artacaq deyə bir neçə qızıl sikkə aldıq. Xüms ilinin başında həmin sikkələrin beşdə birinin xümsünü vermək istəyirik, bu niyyətlə ki, indi xüms verdiyimiz üçün gələcək illərdə sikkələrə və qiymət artımına xüms düşməsin. Bu iş doğrudurmu?**

**Cavab: Sırf sikkələrin xümsünü vermək illik qiymət artımına düşən xümsün vacibliyini qüvvədən salmır, əksinə onun illik qiymət artımına da xüms düşür.**

## Qızıl yığmaq və ya əmanət saxlamaq

**127. Əgər bir nəfər qızılı sərmayə kimi yığsa və ya bankda əmanət saxlasa, hökmü nədir?**

**Cavab: Qeyd edilən fərzə görə xümsünü vermək vacibdir.**

## Ölü (sahibsiz) torpağı əkmək

**128. Bir nəfər şoran torpaqda dərin quyu qazıb və bəhrəsindən istifadə etmək məqsədilə orada meyvə ağacları əkib. Nəzərə alın ki, əkilən ağaclar bir neçə ildən sonra bəhrə verəcək və xərci də çox olduğundan, bu şəxs onlara bir milyon tümənən çox pul xərcləyib. Onun indiyə kimi xüms hesabı ili olmadığından əmlakının xümsünü ödəməyib. Hal-hazırda isə xümsünü ödəmək üçün malını hesablamaq qərarına gəlib. İndi baxdığında bahalaşma ucbatından quyu, torpaq və bağın ilkin xərcdən neçə qat artıq olduğunu görür. Onun hazırkı qiymətinin xümsünü vermək istəsə, buna gücü çatmaz. Xümsü torpaq, bağ və s. şeylərdən ödəmək istəsə də, çətinliyə düşəcək. Çünki özünü zəhmətə salmış bağın səmərəsindən istifadə ümidi ilə özü və ailəsinin yaşam xərclərinin təminindən ötrü ağır xərc və çətinliklərə qatlaşmalı olmuşdur. Bu izahdan sonra malının xümsünə dair vəzifəsi nədir? Rahat ödəyə bilsin deyə, xümsünü necə hesablamalıdır?**

**Cavab: Yalnız bağı əkmək üçün gəlirindən ayırdığı malın xümsü var; əlbəttə pul dəyərinin dəyişməsi xüsusunda mərcəyi-təqlidin vəkillərindən biri ilə müsalihə etməlidir.**

## Maşının təhvili imtiyazını satmaq

**129. Maşın almaq üçün beh ünvanında müəyyən məbləğ ödəmişəm, amma təhvil zamanı qalan pulu verə bilmədiyimdən imtiyazını atama verdim və o da, maşını aldı. İndi bir ildən sonra atam o məbləği mənə qaytara bilər. Əgər qeyd edilən məbləği mənzil girovu kimi ev sahibinə vermək istəsəm, xümsünü ayrıca ödəməliyəm?**

**Cavab: Qeyd edilən məbləğ əgər il ərzindəki gəlirinizdən olub və xüms ilinin vaxtı keçibsə, xümsü var.**

## İş avadanlıqları

**130. İş və qazanc yerində istifadə olunan avadanlıqlara xüms düşürmü?**

**Cavab: Qazan alətləri və avadanlıqları sərmayə hökmündədir, belə ki, qazanc mənfəətindən alınıbsa, xümsü var.**

**131. Klinikalarda mövcud avadanlıqlara, o cümlədən stol, stul, şkaf, tablo və sairəyə xüms düşürmü?**

**Cavab: Hər biri sizin sərmayənizdir və xümsü var.**

## Ədalətli (adi) səhm, ədalət hüququ

**132. Ədalətli səhmlərin xümsü varmı?**

**Cavab: Əgər dövlət tərəfindən paydırsa, xümsü yoxdur, amma kredit borcu kimi verilibsə, xüms ilinin başına kimi qazancdan ödənilmiş hissəsinin xümsü var.**

## Mağaza malları

**133. Mağazadakı satılıq malların xümsünü vermək vacibdirmi?**

**Cavab: Əgər qazanc mənfəətindən (əmək gəlirindən) alınıbsa, xümsü vacibdir.**

## Kənara qoyulmuş “rəddi-məzalim”[(1)]

**134. “Rəddi-məzalim”dən ötrü bir miqdar pul saxlamışdım. Üzərindən bir il ötməsinə rəğmən, hələ də əlaqədar mərcəyi-təqlidə təhvil verməmişəm. İndi ona xüms düşürmü? Əgər bu pulu banka yatırsam, onun mənfəətinə də xüms gəlirmi?**

**Cavab: Qeyd edilən məbləğ illik gəlirdəndirsə, xüms ilinin başında xümsü verilməlidir, ondan gələn mənfəətə də xüms düşür.**

## Həcc pulu

**135. Həcc və Ziyarət Təşkilatının bankla müqaviləsi nəticəsində təməttö həccinə getmək istəyənlər banka müraciət edib müzaribə[2] müqaviləsi ünvanında şəxsi hesablarına məsələn 1000 manat köçürür və əvəzində qəbz alır. Bu məbləğ həcc səfərinə kimi abonentin adında və şəxsi hesabında qalır. Yazılı müqaviləyə əsasən hər ilin sonunda bank hesabı olan abonentə müzaribənin mənfəəti ödənilir. Həcc və Ziyarət Təşkilatı daha tez müraciət edənlərə üstünlük verdiyi üçün təxminən üç ildən sonra şəxslərə növbəsinin çatdığını elan edir və razılıq əsasında həccə göndərir. Həcc növbəsi çatmış abonentlər bank hesabına müzaribə ünvanında köçürdükləri məbləği geri alıb qalan xərclərlə birgə sözügedən təşkilatın hesabına köçürür və həccə yollanır. Nəzərə alsaq ki, qeyd edilən müqavilə yazılıdır; pul sahibi və bank arasında şifahi danışıq keçmir, abonentin müzaribə mənfəəti ünvanında aldığı faizin hökmü nədir?**

**Cavab: Yuxarıda işarə edildiyi kimi yazılı müqaviləyə uyğun bank əməliyyatlarının bir nöqsanı yoxdur və müştərinin müzaribə müqaviləsindən qazandığı mənfəət halaldır. Yatırılmış məbləğin özünə gəlincə, əgər xümsü verilməmiş qazanc mənfəətindəndirsə, xümsü var və hasil olan mənfəəti həcc səfəri ilindən qabaq əlçatmaz olubsa, əldə etdiyi ilin gəlirindən sayılır, belə ki, həmin ildə həcc səfərinə xərclənsə, xümsü yoxdur.**

**136. Həcc və ya ümrə ziyarəti xərcləri üçün (gündəlik xərclərə qənaət edərək) toplanılan pula xüms düşürmü?**

**Cavab: Əgər il ərzindəki qazanc və gəlirdən olarsa, xüms ilinin sonunadək də istifadə edilməzsə, xümsünü vermək vacibdir.**

## Şirkətin sərmayə və mənfəəti

**137. Bir neçə nəfər xüsusi (qeyri-kommersiya xarakterli) məktəb təsis etmək qərarına gəlib. İxtiyarlarındakı az sərmayənin istifadəsindən sonra müəsisə heyəti xərcləri qarşılamaq üçün bankdan kredit götürmək qərarına gəlib, həmçinin sərmayəni tamamlamaq və kredit borclarını ödəmək məqsədilə üzvlərin hər biri müəyyən məbləğdə aylıq ödəməlidir. Sözügedən müəsisə hələ də məhsuldarlıq mərhələsinə çatmayıb. Bu halda müəssisə üzvlərinin aylıq ödədikləri məbləğə xüms düşürmü? Müəsisənin dəyəri olan bütöv sərmayəyə necə xüms düşürmü?**

**Cavab: Hər bir üzvə vacibdir ki, şirkətin sərmayəsi ünvanında ödədiyi aylığının xümsünü versin. Həmçinin başlanğıcda məktəb təsisi üçün ortaq səhm adı ilə ödədiklərinin də xümsünü verməlidirlər. Heyət üzvləri şirkət sərmayəsində qoduqları səhmlərinin xümsünü verdikdən sonra bütöv sərmayəyə yenidən xüms düşmür.**

**138. Mədəniyyət işçilərindən bir qrupunun Mədəniyyət İşçilərinin Əməkdaşlığı adlı şirkəti bir neçə ildir ki, təsis olunub. Başlanğıcda şirkətin sərmayəsi mədəniyyət işçilərinin səhmi ilə ərsəyə gəlib. Belə ki, onlar hər ay 100 tümən aylıq verirdilər. Əvvəldə səmrayə az olsa da, üzv sayının artması ilə hazırkı sərmayə 18 milyon tümənə yaxındır, əlavə olara şirkət maşınları da var. Şirkətin gəliri səhmdarlar arasında səhmlərinə uyğun olaraq bölünür. Onların hər biri rahatlıqla səhmini götürüb, şirkətlə təhvil-təslim edə bilər. İndiyə kimi sərmayə və mənfəətinin xümsü ödənməyib. Şirkətin idarə heyətinin sədri olduğumu nəzərə alsaq, şirkətin hesabına xüms düşdüyü halda onu təkbaşına ödəyə bilərəm? Bu xüsusda səhmdarların razılığı şərtdir?**

**Cavab: Şirkət sərmayəsinin və ondan gələn mənfəətin xümsünü ödəmək sərmayədəki səhminə uyğun olaraq hər bir üzvün vəzifəsidir. Əgər idarə heyətinin sədri bu işi görmək istəyirsə, şirkət səhmdarlarından vəkalət icazəsi almalıdır.**

## “99 illik layihə”nin satışından gələn qazanc

**139. “99 illik layihə” satışından gələcəkdə səhmim olacaq pula xüms düşürmü?**

**Cavab: Ondan gələn mənfəət xüms ilinin başına kimi illik məişət xərclərinə sərf edilməsə, xümsü var.**

## İş üçün nəqliyyat vasitəsi

**140. Bir nəfər zəhmət və təlaş hesabına illər sonra yük maşını alıb pul qazanır, xümsünü də verə bilməyib. Hazırda maşının kredit borcu bitsə də modeli aşağı olduğundan cari qanunlar ondan köhnəni dəyişib yeni model maşın almağı tələb edir. Bu da öz növbəsində xərc tələb edir. Bu üzdən yeni kredit borclarını ödəmək məcburiyyətindədir. Nəzərə alsaq ki, maşının gəliri yaşam xərclərini, kredit və xümsü ödəməyə çatmır, borclarını ödəmək xüsusunda vəzifəsi nədir?**

**Cavab: Əgər maşının qiyməti, xümsünü ödədiyi təqdirdə qalan satış puluna ürfi şəninə uyğun illik yaşam və məişət xərclərini təmin edə bilməyəcək həddədirsə, xümsü yoxdur.**

## Torpaq və qiymət artımı

**141. İyirmi il öncə aşağı qiymətə alındığı halda hazırda qiyməti təqribən 20 bərabər olan və xümsü ödənməmiş torpağın xüms hökmü nədir?**

**Cavab: Əgər torpağı qazanc mənfəəti, yaxud maaşından alıbsa, torpağın qiymətinə verdiyi məbləğin xümsünü ödəməkdə zamindir, amma köhnə qiymətin hazırkı ilə böyük fərq daşıdığını fərz etsək, qiymət fərqindən ötrü mərcəyi-təqlidin vəkili ilə müsalihə etməlidir.**

## Torpağın alışı və bahalaşmaya qədər saxlanılması

**142. Bir nəfər əkin yeri və ya torpaq sahəsi alıb və qiymətlər bahalaşanda satmaq qərarına gəlib. Xüms ili başa çatdıqda – satmaq qəsdi olmasa belə - xümsü vacibdirmi? Vacib olduğu təqdirdə, alış qiymətinin xümsünü hesablamalıdır, yoxsa hazırkı?**

**Cavab: Əgər torpağı xümsü verilməmiş pulla alıbsa, xüms ilinin başında xümsünü ödəməlidir. Xümsü verilmiş pulla aldığı halda isə əgər xüms ilinin başında qiymət bahalaşması və satış imkanı olubsa, qiymət artımını xümsünü xüms ilinin başındakı qiymətlə ödəməlidir.**

## Səhmlərin satış pulu

**143. İstehsal şirkətlərinin birində üzvlüyüm və səhmim vardı. Hər il şəri vergilərimi siz cənabın nümayəndəsinə ödəyirdim. Hazırda səhmimi təvhil verib şirkətlə hesablaşmışam. Aldığım məbləğə xüms düşürmü?**

**Cavab: Əgər şirkətdəki səhminizi xümsü verilmiş pulla, yaxud hədiyyə, irs və bu kimi xümsə aidiyyatı olmayan pullardan almısınızsa, şirkətlə hesablaşdıqdan və səhm pulunu aldıqdan sonra o pula xüms düşmür. Ancaq alış və satışdakı qiymət fərqi təhvil ilinin gəlirindən sayılır, belə ki, xüms ilinin başına kimi illik zəruri yaşam xərclərinə sərf edilməsə, xümsü var.**

## Xümsü verilmiş pulla alınmış torpaq

**144. Bir nəfər xümsü verilmiş pulla torpaq sahəsi alıb bir neçə ildən sonra satıb. Həmin pulu və il ərzindəki gəlirindən digər pulu birləşdirib başqa torpaq alıb. İndi isə o torpağı satmaq istəyir. Onun xümsü varmı?**

**Cavab: Əgər ticarət, yəni qiymət bahalaşdıqdan sonra satıb qazanc götürmək məqsədilə alıbsa, xümsü verilmiş pulu çıxmaq şərti ilə hazırkı qiymətinin xümsü var.**

## İstifadə məqsədi dəyişdirilmiş yer

**145. Bir obyekt əvvəldə maşın dayanacağı (park) məqsədilə tikilsə də, sonralar bu fikirdən daşınaraq icarəyə verilməsindən ötrü ticarət obyektinə çeviriblər. Onun tikinti puluna xüms düşürmü?**

**Cavab: Əgər qeyd edilən məkan əvvəldə dayanacaq məqsədilə tikilib və ən azından xüms ilinin sonuna kimi şəxsi qarac ünvanında istifadə olunubsa, istifadə dəyişikliyinə görə xümsü yoxdur, amma tikiliş ilinin ortasında qaracı ticarət obyektinə çeviribsə, sərmayə hökmündədir və xümsü var.**

## Yeni tikilmiş bağ

**146. Bir nəfər ticarət məqsədilə bağ tikib. Xüms ili başa çatdıqdan sonra meyvə ağacları səmərə verməmiş olsa, təkcə torpağın xümsü verilməlidir, yoxsa ağacların da?**

**Cavab: Əgər meyvə ticarəti məqsədilə bağ salıbsa, illik gəlirindən ona xərclədiyi bütün məbləğin xümsünü verməlidir. Bağın yeri xümsə aidiyyatı olmayan və ya xümsü verilmiş maldandırsa, xümsü yoxdur. Əgər bağı satmaq istəyirsə və bağ da satıla biləndirsə, xüms ilinin başında xərlənmiş məbləğin xümsündən əlavə, qiymət artımının da xümsünü ödəməlidir.**

## Yerdə qalmış və ya mala dəyişdirilmiş müzaribə pulu

**147. Əgər pul bir illik müddətinə müzaribəyə verilsə, digər tərəfdən xüms ili də müqavilənin əvvəlinə düşsə, habelə sərmayə qoyanın istədiyi vaxt pulu geri almaq icazəsi olsa, bu halda müzaribə verən şəxs müqaviləni dayandırıb, xümsünü ödəməlidirmi?**

**Cavab: Müzaribə ünvanında başqasına verilmiş pul il ərzindəki gəlirindən olsa, xüms ilinin başında xümsünü ödəməlidir, baxmayaraq ki, müzaribə müqaviləsinin əvvəlinə və ya ortasına təsadüf edir.**

**148. Bəzi şəxslər iş görmək üçün pullarını müzaribə ünvanında banka və ya şəxsə tapşırıblar, xüms ilinin başında iş görənin əlindəki pulla mal alınsa, bu kimi şəxslər də pullarının xümsünü verməlidir?**

**Cavab: Əgər banka yatırılmış pul qazanc mənfəətindən və xümsü verilməmiş mal olub xüms ilinin başında da geri qaytarmaq, yaxud iş görən tərəfindən alınmış satılması və ya pulunun geri alınması mümkün olsa, xüms ilinin başında o pulun xümsü verilməlidir.**

## Ticarət işi üçün xərclənmiş pul

**149. İnsanın gəlir qazanmaq və ya ticarətlə məşğul olmaq məqsədilə xərclədiyi mala xüms düşürmü?**

**Cavab: İllik qazancından gəlir əldə etmək, ticarət yolu ilə pul qazanmaq və digər işlər, o cümlədən anbar tutmaq, yük daşımaq, qapanda çəkmək və satış vasitəçiliyi kimi işlərə xərclədiyi pullar həmin ilin gəlirindən çıxılır və xümsü yoxdur.**

## Xümsə aid gəlirdən qiymət artımını azaltmaq (çıxmaq)

**150. İşim bina tikintisidir, xüms də verirəm. Bir yer alıb üzərində bina tikdikdən sonra satıram. Satışdan gələn pul üç qismə bölünür (əsl sərmayə, inflyasiya və qazanc). İndi nəzərə alsaq ki, bina tikintisi və satışından ibarətdir, işin davamı üçün satılmış binanın (hansı ki, xümsü verilmiş pulla tikilib və satılıb) yerinə oxşar bina tikmək üçün əsl sərmayəni, bir də qiymət artımından gələn gəliri xərcləməliyəm. Bu halda xümsü necə hesablayım?**

**Cavab: Xümsü verilmiş sərmayənin xümsü yoxdur, amma camaatın nəzərində qazanc sayılan şeyin xümsü verilməlidir. Amma qiymət artımı inflyasiyadan, yəni pulun dəyərdən**

düşməsindən qaynaqlansa, belə ki, bahalaşma ümumi hal alsa, xümsü yoxdur.

## Malın qiymətinin bahalaşması

**151. İnflyasiya nəticəsində malların bahalaşması bazar qiymətlərində artımdan hesab olunurmu?**

**Cavab: Qiymət bahalığı inflyasiya, yəni pulun dəyərdən düşməsi nəticəsində olsa və hər şey baha qiymətə alınsa, qiymət artımı sayılmır və qiymət artımının hökmləri ona dəxalət etmir.**

## İnflyasiyaya nəzərən bank gəlirləri

**152. İnflyasiya olduğuna görə bankların əmanətçilərə ödədiyi faiz (gəlir) əslində pulun dəyər itkisinin qarşılığı olur. Bu halda o faizə xüms düşürmü?**

**Cavab: Xüms ilinin başında gəlir sayılan miqdara xüms düşür.**

## Borc sərmayə və qazancı

**153. Həyat yoldaşım xalça toxuyur, sərmayəsi bizə aiddir və onu borc almışdıq. Hazırda xalçanın bir hissəsi toxunub, yarısı isə qalır. Xüms ilimin sona çatdığını nəzərə alsaq, xalça bitdikdən sonra yaşam ehtiyaclarının təminindən ötrü onu satsaq, yerdə qalanına xüms düşürmü? Xüms baxımından sərmayəmizin necə olacaq?**

**Cavab: Borc alınmış sərmayəni ayırdıqdan sonra xalçanın satışından qalan pul satış ilinin mənfəətindən sayılır və yaşam xərclərinə sərf edilmədiyi halda xüms ilinin başında xümsü var.**

## Xümsü verilməmiş toxum

**154. Əkinçi xümsünü vermədiyi toxumla əkin əkib. Məhsul topladıqdan sonra təkcə məhsula xüms düşür, yoxsa toxumun da xümsü hesablanmalıdır?**

**Cavab: Toxumun xümsünə zamindir. Xüms ilinin başına kimi məhsuldan və ya pulundan artıq qalana da xüms düşür.**

(1) Sahibi məlum olmayan və ya əlçatmaz olan mülkiyyət haqqı, hansı ki, sahibi tərəfindən yoxsula sədəqə verilir.

(2) Ticarət məqsədilə iki nəfər arasında bağlanılan müqavilə (əqd). Bu əsasla ki, biri sərmayə verir, digəri isə iş görür və əgər mənfəət əldə edilsə müqaviləyə müvafiq olaraq aralarında bölünür.

### 3. HARAMA QARIŞMIŞ HALAL MAL

## Harama qarışmış halal malın halal edilməsi

**155. Əgər insanın haram malı halala qarışarsa, o malın hökmü nədir və necə halallaşır? Haramlığını bildikdə və ya bilmədikdə insanın vəzifəsi nədir?**

**Cavab: Əgər əmlakında haram malın olduğuna əmin, lakin dəqiq miqdarı və sahibindən xəbərsizdirsə, halala çevirməyin yolu xümsünü verməkdir. Yox, əgər malına haram malın qarışdığına şəkk edirsə, bu halda öhdəsinə heç bir şey düşmür.**

## Haram sərmayədən qazanılan malın halal edilməsi

**156. Elə əvvəldən sərmayəsi haramdan olan şəxs həyatını halallaşdırmaq istəyirsə, vəzifəsi nədir?**

**Cavab: Əgər haram malların sahibləri məlumdursa, onlardan razılıq almalıdır. Yox, əgər sahiblərini tanımırsa və ya əlçatmazdırsa, miqdarı məlum olduğu halda "məchulul-malik"(1) hökmündədir; sahibi tərəfindən şəri yoxsula(2) sədəqə verilməlidir və ehtiyata əsasən, bu xüsusda şəri hakimdən(3) icazə almalıdır. Əgər haram malın miqdarı naməlum, sahibi də qeyri-müəyyəndirsə, bu halda xümsünü verməlidir.**

(1) Sahibi naməlum mal.

(2) Şəri yoxsul o kəsdir ki, özünün və ailəsinin illik xərcləri yetərincə deyil.

(3) Mərcəyi-təqlid, əlçatmaz olduğu halda vəkili.

## 4. MƏDƏN

157. Nəzərə alsaq ki, ixrac edilmiş mədənlərin xümsü vacibdir, bu vaciblik dövlət mədənlərinə də aiddirmi, dövlət də xüms ödəməyə borcludurmu?Nəzərinizə çatdırım ki, dövlət tərəfindən mədən ixracı üç haldan xaric deyil:
Dövlət birbaşa ixrac edir və mənfəətini xalqa xərcləyir, bu surətdə dövlət mədən ixracından sonra onu digərinə bağışlayan və ya sədəqə verən həqiqi şəxs kimidir. Bu halda qeyd etməliyəm ki, bu növ ixraclara da xüms düşür və xümsün vacibliyi dəlilləri ona da şamildir;
Bütün xalqı mədənləri sahibi bilməliyik, dövlət də xalq tərəfindən vəkalətlə ixrac işlərini həyata keçirir. Bu halda tək-tək insanlara xüms düşür, çünki ixracı həyata keçirən əslində xalqdır və xümsü ödəmək vəkilə yox, vəkil tutana vacibdir;
Dövlət xalqın vəlisi ünvanında mədən ixracını həyata keçirir, bu halda ixracçı ya vəlinin özüdür, ya da dövlət nümayəndə, xalq isə həqiqi ixracçıdır. Bu surətdə də xüms vacib olmalıdır.
Digər tərəfdən demək olmaz ki, dövlət ixrac edilmiş mədənləri xərcləmək və ya hədiyyə etməklə xümsdən azad olur, çünki mədən nisab həddinə (lazımi miqdara) çatdıqdan sonra xümsün vacibliyi qətidir.

**Cavab: Xüsusi (fiziki) bir şəxs tərəfindən, yaxud şəxslərin birgə əməkdaşlığı ilə ixrac ediliş mədənlərə xüms vacibdir, bu şərtlə ki, ixrac və təmizləmə xərclərini çıxdıqdan sonra şəxsin ixrac etdiyi və ya birgə əməkdaşlıqla ixracı gerçəkləşdirən şəxslərin hər birinin payı iyirmi dinar qızıl, yaxud iki yüz dirhəm gümüş, yaxud da hər ikisindən birinin qiymətinə bərabər olsun.**
**Bundan əlavə xümsün vacibliyi şərtlərindən biri budur ki, ixrac edilmiş mədən ixracçının mülkü olsun, halbuki dövlətin ixrac etdiyi mülk xüsusi-fiziki şəxs və ya şəxslərin mülkü olmadığından, cəhət(1) mülküdür. Bu üzdən xüms vacibliyinin şərti onda yoxdur. Nəticə etibarı ilə dövlət və hökumət üçün xümsün vacibliyinə yer qalmır və bu, mədəndə xümsün vacibliyinə bir istisna deyil.**

(1) Mülkiyyət hüququ – Dövlət, məscid və ya hüseyniyyənin bir şeyə malik olması kimi.

## 5. TAPILMIŞ XƏZİNƏ

158. Şəxsin malik olduğu ərazidən tapdığı xəzinə haqqında sizin nəzəriniz nədir?

**Cavab: Bu kimi işlərdə ölçü, İslam Respublikasının qanunlarıdır.**

### İKİNCİ FƏSLİN XÜLASƏ VƏ QEYDLƏRİ

### XÜMSÜN VACİB OLDUĞU YERLƏR

## 1) İllik xərclərdən artıq qalan qazanc

**- Əgər xüms ilinin başında qazancdan bir şey artıq qalarsa, xümsü verilməlidir; fərqi yoxdur artıq qalan şey ehtiyat saxlanılmış pul və ya sərf edilməmiş məhsul olsun.**

**- Xüms ilinin başında əldə edilməsi mümkün olmayan gecikmiş maaş və ya əlavə əmək haqqı əldə ediləcək ilin qazancından sayılır, belə ki, əldə etdiyi ildə yaşam xərclərinə sərf etsə, xümsü yoxdur. Xüms ilinin başında əldə edilməsi mümkün olan gecikmiş maaş və əlavə əmək haqqının isə xümsü vacibdir, hərçənd hələ ki ona çatmamışdır.**

**- Əgər xüms ili baş çatmazdan öncə beh ünvanında pul alsa, həmin behin qarşılığında iş görülmüş miqdarına xüms düşür.**

**- Təqaüd pulu və məzuniyyət haqqında istifadə etməmək müqabilində alınan pul xüms ilinin başına kimi qalarsa, xümsü vacibdir.**

**- Hər ay fərdin maaşından tutulub təqaüdə çıxdığında qaytarılan məbləğ əgər xüms ilinin başına kimi geri alına bilərsə, xümsü var, belə ki, onu aldıqdan dərhal sonra xümsü ödənməlidir. Yox, əgər əlçatmazdırsa, maaşından da icazəsiz tutulubsa, xüms ilinin başına kimi qaldığı surətdə xümsü var.**

**- Xüms ilinin başına kimi qalmış pulu məhsula və ya qızıl sikkəyə çevirmək, xümsün vacibliyinə xələl gətirmir, hətta xüms ilindən sonra satmaq, zəruri yaşam xərclərinə sərf etmək məqsədilə olsa da. Qarşıdakı bir neçə günün xərclərinə sərf etmək ərəfəsində olması və xümsü verməklə ehtiyaclarını qarşılaya bilməməsi halı istisnadır və xümsü yoxdur.**

**- Əgər birinə borc pul verib xüms ilinin başına kimi geri ala bilsə, xümsünü ödəməlidir. Buna imkan yoxdursa, geri ala bildiyi vaxt xümsünü ödəməlidir.**

**- Borc və ya kredit alınıb xərclənmədiyi surətdə xümsə aidiyyatı yoxdur, əgər borcundan bir miqdar qaytarıbsa, qaytardığı miqdarın xümsünü verməlidir.**

**- Bank əmanətləri illik gəlirdən olarsa, xümsü vacibdir, "qərzül-həsənə" (borc) ünvanında əmanət qoyulmuş olsa belə.**

**- Kredit alındığı zaman bankların dondurduğu pul illik qazancdan olsa, xümsü var və geri alındığında xümsü ödənməlidir.**

**- Kirayəçinin girov (önödəmə) ünvanında eh sahibinə verdiyi pul əgər qazanc mənfəətindən olsa, eh savibindən geri aldıqdan etibarən xümsünü verməlidir. Yox, əgər kirayə tutmaq üçün o pula ehtiyacı varsa, ehtiyacını aradan qaldırdıqdan sonra xümsünü verməlidir. Ev sahibinin borc ünvanında aldığı pula görə xüms verməsi vacib deyil.**

**- Mənzil tikintisindən ötrü şəxsin korporativ mənzil şirkətinə verdiyi pul (hansı ki, nəzərdə tutulan məbləğ toplandıqdan sonra mənzil tikintisinə xərclənəcək) illik gəlirdən olub, tikinti işlərinə xərclənənədək onun mülkiyyətində qalsa, xümsünü ödəməlidir. Yox, əgər şirkətin mülkiyyətinə keçsə, xümsü yoxdur.**

**- Ev "qərzül-həsənə"lərində, hansı ki, üzvlər xəzinəyə (lotoreya) aylıq verir və yığılan pulu püşklə hər ay biri götürür, hər üzv ayrıca xümsünü hesablamalıdır.**

**Deməli, yığılan puldan kredit formasında aldığı məbləğ, özünün daha öncə pullardırsa ki, geri alır, öncəki ilin gəlirinə aid olsa, xümsü ödənməlidir. Yox, əgər cari ilə aiddirsə, xüms ilinin başına kimi qaldığı halda xümsü vacibdir.**

## 2) Sərmayə

- Sərmayə, onunla qazanc əldə etmək olan hər hansı bir şeydir. Deməli, aşağıdakı yerlərdə xümsü ödəmək vacibdir:

1. Bank əmanəti;

2. Müzaribəyə verilən pul;

3. İş üçün nəzərdə tutulmuş maşın; yük maşını, avtobus, taksi kimi;

4. İş alətləri, avadanlıqlar və ticarət yerində lazımi vasitələr; miz, stul və s. kimi;

5. İcarəyə verilmək üçün alınmış yaşayış və ticarət məkanları;

6. Sərmayə qoymaq və mənfəət əldə etmək məqsədilə ehtiyat saxlanılmış torpaq sahəsi;

7. Əkinçilik məqsədilə alınmış bağ və torpaq ərazisi;

8. İqtisadi işlərdən ötrü torpağın dirçəldilməsinə sərf edilən xərc;

9. Satmaq üçün alınmış mal.

## * İki mühüm nöqtə:

1. Əgər yuxarıda qeyd edilənlər xümsü ödənilmiş pulla, yaxud xümsün müstənalarından olan pulla (hansı ki, üçüncü fəsildə gələcək) əldə edilibsə, xümsü lazım deyil.

2. Əgər əsl sərmayənin xümsü verildiyi təqdirdə yerdə qalanı ilə ürfi şən (mövqe) və ictimai mövqeyə münasib illik məişət və yaşam xərclərini təmin etmək mümkün olmasa, xümsü yoxdur.

- Əgər yuxarıda qeyd edilənlər – axırıncı bənd istisna olmaqla – xümsü verilməmiş pulla alınıbsa, alış pulunun xümsü verilməlidir. Qiymət artımı isə satış ilinin gəlirindən sayılır ki, əgər ilin başına kimi qalmış olsa, xümsü verilməlidir. Amma satmaqdan ötrü alınmış malların qiymət artımına uyğun xüms ilinin başında xümsü var, əlbəttə satış imkanı olduğu halda bahalaşmasını gözləmək məqsədilə satmayıbsa.

- Əgər şəxsi istifadədən ötrü ev və ya digər şeylər alınıb xüms ili olanlar üçün xüms ilinin sonuna kimi, xüms ili olmayanlar üçün də bir ilə kimi istifadə edilib, sonra yaşam ehtiyaclarından ötrü icarə verilsə, xümsü yoxdur.

- Anbar tutmaq, yük daşımaq, qapanda çəkmək, satış vasitəçiliyi kimi ticari və digər yollarla gəlir qazanmaqdan ötrü illik gəlirdən sərf edilən miqdar həmin ilin gəlirindən çıxılır və xümsü yoxdur.

- Xümsü verilmiş sərmayənin xümsü yoxdur, həmçinin qiymətinin artımı inflyasiyadan, yəni pulun dəyərini itirməsindən irəli gəlirsə, belə ki, hər şey daha artıq pulla alış-veriş edilirsə, xümsü yoxdur.

- Borc sərmayənin xümsü yoxdur.

## 3) Harama qarışmış mal:

**Bir kəsin öz əmlakında haram malın olduğunu bilirsə, bir neçə cürdürbilməsi aşağıdakı kimi təsəvvür edilə bilər:**

1. **Dəqiq miqdarını və sahibinin kimliyini bilmir, bu halda bu əmlakı halala çıxarmağın etməyin yolu xümsünü verməkdir. Əgər əmlakına haram malın qarışdığına şəkk edirsə, öhdəsində heçnə yoxdur;**

2. **Haram malın sahibləri bəllidir, bu halda onlardan razılıq (halallıq) almalıdır;**

3. **Haram malın sahibi məlum və ya əlçatılan deyil, amma haram malın miqdarı bəllidir, bu halda sahibinin adından şəriət baxımından yoxsula sədəqə verilməlidir. Ehtiyatən Ehtiyat üçün bu xüsusda şəri hakimdən icazə də almalıdır.**

## 4) Mədən

**Xüsusi (fiziki) şəxs tərəfindən, yaxud şəxslərin birgə əməkdaşlığı ilə ixrac ediliş mədənlərə xüms vacibdir, bu şərtlə ki, ixrac və təmizləmə xərclərini çıxdıqdan sonra şəxsin ixrac etdiyi və ya birgə əməkdaşlıqla ixracı gerçəkləşdirən şəxslərin hər birinin payı iyirmi dinar qızıl, yaxud iki yüz dirhəm gümüş, yaxud da hər ikisindən birinin qiymətinə bərabər olsun.**

**Bundan əlavə xümsün vacibliyi şərtlərindən biri budur ki, ixrac edilmiş mədən ixracçının mülkü olsun, halbuki dövlətin ixrac etdiyi mülk xüsusi (fiziki) şəxs və ya şəxslərin mülkü deyil. Bu üzdən xüms vacibolma şərti onda yoxdur.**

## 5) Xəzinə

**Xəzinə tapılması haqqında qanunların olduğunu nəzərə alsaq, bu kimi işlərdə ölçü, İslam Respublikasının qanunlarıdır.**

1. HƏDİYYƏ EDİLMİŞ MAL

## Həyat yoldaşının maaşdan payı (təqaüd haqqı)

**159. Mən təqaüdə çıxdıqdan sonra aylıq pensiya alıram. Bir neçə müddətdən bir həyat yoldaşı haqqı ünvanında müəyyən məbləğ alıb ona verirəm, o da pulu bankda saxlayır. Bu pula xüms düşürmü?**

## Bayramlıq

**160. Bir nəfər xümsü verilməmiş pulla bahalı mülk alıb, təmirinə də külli miqdarda pul ödəyib. Sonra onu həddi-buluğa çatmamış oğluna hədiyyə edib, belə ki, rəsmi adına keçirib. Nəzərə alsaq ki, o şəxs həyatdadır, qeyd edilən mükəlləfin xüms məsələsi necə olacaq?**

**Cavab: Əgər mülkün alışı, təmiri və abadlığına xərclədiyi məbləğ illik gəlirindəndirsə, mülkü oğluna bağışlaması eyni ildə və ürfi şən və ləyaqətinə uyğundursa, xümsü yoxdur.**

## Həyat yoldaşına hədiyyə

**161. Bir xüms ili keçməmişdən öncə hər hansı malı həyat yoldaşına hədiyyə etmək olarmı, baxmayaraq ki, həyat yoldaşının həmin malı gələcəkdə ev almaq və ya zəruri xərclər üçün ehtiyat saxladığını bilir?**

**Cavab: Bu iş caizdir. Həyat yoldaşınıza bağışladığınız mal ürfi baxımdan sizin və sizin kimi insanların şəninə uyğundursa, eləcə də bağışlamaq saxtakarlıq və xümsdən qaçmaq məqsədi ilə olmasa, xümsü yoxdur.**

## Hədiyyə olunmuş mənzil

**162. Qızıma toy hədiyyəsi olaraq bir mənzil bağışlamışam. Bu mənzilin xümsü varmı?**

**Cavab: Əgər qızına hədiyyə etdiyiniz mənzil ürfi baxımdan şəninizə uyğundursa, habelə xüms ilinin ortasında bağışlamısınızsa, xümsünü vermək vacib deyil.**

## Gəlinə süd haqqı ünvanında verilən əşyalar

**163. Əgər süd haqqı qarşılığında bəydən cehizlik üçün bəzi əşyaları almağı istəsələr, həmin əşyaların bir ildən artıq istifadəsiz qaldığını nəzərə alsaq, xümsü varmı?**

**Cavab: Əgər qeyd edilən əşyaları alıb gəlinə və ya ailəsinə təhvil veribsə, heç birinə xümsü vacib deyil.**

## Hədiyyənin xümsü verilməmiş pulla dəyişdirilməsi

**164. Bəzi vaxtlar bizə əşya və ya kitab kuponları hədiyyə verirlər. Hədiyyəyə xüms düşmədiyini və kuponların da mağazalar üçün nağd pul sayıldığını nəzərə alsaq, kuponları cari gəlirimdən olan pullarla bərabər miqdarda dəyişib, xümsü verilmiş pul kimi yığa bilərəmmi? Başqa biri ilə alıb-qaytarma (dəstgərdan), üzdə və ya həqiqi alış-veriş etməklə bu işi görə bilərəm?**

**Cavab: Qeyd edilən əməl qazancın xümsünü aradan qaldırmır, məgər ki, aidiyyatı qaydalara riayət etməklə başqasına satsın. Bu halda satışından gələn pula xüms düşmür.**

## Tələbə kitabları

**165. Gəlir mənbəyi olmayan tələbənin atasının puluna, yaxud institutun onlara verdiyi kredit hesabına aldığı kitablara xüms düşürmü?**

**Cavab: Kredit[1] puluna və ya atasının bağışladığı pula aldığı kitablara xüms düşmür.**

## Mükafat

**166. Mən azad edilmiş əsirlərdənəm. Allahın lütfü ilə əsarətimin iki bərabəri keçmiş xidmətim kimi hesablanıb. İndi təqaüdə çıxmışam. Yuxarıda qeyd edilənləri nəzərə alsaq, xidmətimin sonunda aldığım mükafata xüms düşürmü?**

**Cavab: Xüms düşmür.**

**167. Bayram ərəfəsində dövlət öz işçilərinə bayramlıq verir. Belə ki, onun bir hissəsi xüms ilinin başına kimi toxunulmaz qalır. Məlum olduğu kimi işçilərin bayramlığına xüms düşmür, amma biz bu hədiyyənin müqabilində müəyyən məbləğ ödəmişik. Odur ki, bizə verilənlər tam mənada hədiyyə deyil, az məbləğin müqabilində verilən əvəzdir. Bizə verilən əşyaların müqabilində ödədiyimiz pulun xümsünü verməliyikmi? Yaxud azad bazardakı həqiqi qiymətini hesablayıb xümsünü ödəməliyik? Yaxud da bayramlıq olduğu üçün heç bir xümsü yoxdur?**

**Cavab: Qeyd edilən fərzə əsasən, əslində dövlət tərəfindən işçilərə əşyaların bir hissəsi havayı, bir hissəsi də pulla verilir və qarşılığında pul alırlar. Odur ki, istifadəsiz qalmış əşyanın (məhsul) qarşılığında pul verdiyiniz nisbətində, hazırkı qiymətinə uyğun xümsünü verməlisiniz.**

## Qazi (müharibə əlili) və azad olmuşların əmək haqqısı

**168. Müharibə əlili və veteranlıq haqqına xüms düşürmü? Onların həyat yoldaşlarına ödənilən məbləğin hökmü nədir?**

**Cavab: Qazilər (müharibə əlili) fondunun möhtərəm qazi və veteranlara bağışladıqları məbləğin xümsü yoxdur. Baxıcılıq üçün həyat yoldaşlarına verilən haqq, əgər ərinə baxdığına görədirsə (belə ki, baxıcılıq etməsə verməzlər) illik xərcindən artıq qalsa, xümsü var, başqa halda xümsü yoxdur.**

**169. Dövlət azadələrin əsarət dövrünün buraxılış müddətini hesablayıb pulunu ödəmişdir. Bu pul gəlirdən sayılır? Əgər gəlirdən sayılırsa, xüms ona aiddirmi?**

**Cavab: Sualın fərzinə əsasən, xüms ona aid deyil.**

**170. İslam Respublikası tərəfindən əsirlərin ata-analarına əsarət müddəti boyu ödənilən və bankda əmanət saxlanılan aylıqlara xüms düşürmü?**

**Cavab: Qeyd edilən pulun xümsü yoxdur.**

## Şəhid ailələrinə verilən müavinətlər

**171. Şəhidlər fondunun şəhid ailələrinə verdiyi müavinətlətlərin illik xərclərdən artıq qalanına xüms düşürmü?**

**Cavab: Şəhidlər fondunun şəhidlərin möhtərəm ailələrinə hədiyyə verdiyi məbləğin xümsü yoxdur.**

## Mənzil subsidiyası

**172. Dövlətin öz işçilərinə verdiyi mənzil subsidiyasına xüms düşürmü?**

**Cavab: Hədiyyə olduğu halda, xümsü yoxdur.**

**173. Dövlət Məskən bankından mənzil krediti alanlar istehlak nümunəsinə riayət etsinlər deyə (75 $m^2$-dən aşağı) ildə subsidiya ünvanında pul ödəyir. Bu məbləğə xüms düşürmü?**

**Cavab: Xümsü yoxdur.**

## İdarələr tərəfindən ödənilmiş məvacib

**174. İdarələrdə müdirin nəzərinə əsasən, hər ilin sonunda işçilərə əlavə məvacib verilir. Ona xüms düşürmü?**

**Cavab: Əgər maaşdan sayılsa xümsü var, hədiyyə olduqda isə xümsü yoxdur.**

## Bayramlıq

**175. Bayram hədiyyəsi (bayramlıq) və bəxşişin xümsü varmı?**

**Cavab: Hədiyyə və bəxşişin xümsü yoxdur, hərçənd ehtiyat budur ki, illik xərcdən artıq qalsa, xümsü verilməlidir.**

## Bank mükafatları

**176. Banklar və "qərzül-həsənə"lərin istifadəçilərə verdikləri mükafatlara xüms düşürmü?**

**Cavab: Mükafat və hədiyyələrdə xüms vacib deyil.**

## Dövlət tərəfindən qaytarılmış pul

**177. Kanada ölkəsində dövlət hər il fərdlərin vergi bəyannamələrini aldıqdan sonra, az təminatlı ailələrə məsələn bağça xərclərinin müəyyən hissəsini qaytarır. Əgər ata xümsə aid pulu (vergi) versə, ilin axırında da dövlət bir hissəsini anaya qaytarsa (bağça xüsusunda pul həmişə anaya verilir), həmin pula xüms düşürmü?**

**Cavab: Əgər əvvəldən müəyyən məbləğin üzərində müqavilə bağlayır və işin sonunda öz mallarından bağışlayırsa, xümsü yoxdur.**

## Ev xərcləri üçün bəxşiş

**178. Mən evdar qadınam. Ərim özümün, övladlarımın və evin xərci üçün mənə pul verir; əslində pulu mənə bağışlayır, çünki heç vaxt necə və hara xərcləməyim barəsində soruşmur. Bu pullarla alınan geyim və ya ev əşyalarının (əlbəttə ehtiyac və şən və ləyaqət həddində) üzərindən müəyyən vaxt keçdiyi və istifadə olunmadığı təqdirdə xüms məsələsi necədir?**

**Cavab: Qeyd edilən fərzə əsasən, alınan geyim və əşyalara xüms düşmür, xüms ili təyin etməyə də ehtiyac yoxdur.**

## Təhsil xərclərinə yardım

**179. Bir çox tələbələr gözlənilməz problemlərin həllindən ötrü yaşam xərclərinə qənaət edirlər. Nəticədə təhsil xərcləri üçün onlara verilən nəzərə çarpacaq məbləğdə yardımlar toplanır. Sualım budur ki, Təhsil Nazirliyinin tələbələrə verdiyi puldan qənaətlə toplanmış bu məbləğə xüms düşürmü?**

**Cavab: Təhsil xərclərinə yardımın xümsü yoxdur.**

(1) Kreditlə bağlı tam məlumat üçün, həmin fəslin onuncu (borc və borc mal) bölümünə müraciət edin.

**2. Mehriyyə (başlıq)**

180. Xanımların süd pulu və mehriyyəsinə xüms düşürmü?

**Cavab: Mehriyyənin xümsü yoxdur; süd pulu hədiyyə ünvanındadırsa, xümsü yoxdur.**

## 3. İrs(1)

## Miras qalmış sikkələrin hökmü

**181. İrs olaraq mənə çatmış sikkələrim(2) var, onlara xüms və ya zəkat düşürmü?**

**Cavab: İrs olaraq çatmış əmlak və əşyaya xüms düşmür. Həmçinin əgər dediyiniz sikkələr bazarda geniş yayılmış və alverdə istifadə olunan ticarət markalı sikkələrdən deyilsə, zəkatı da yoxdur.**

## Meyitin mirasına xüms düşməsinə şəkk etmək

**182. Atam sağlığında torpaq sahəsini mənim adıma sənədləşdirmişdi, vəfatından sonra isə bu torpaq sahəsi mənə miras qaldı. Nəzərə alsaq ki, atam vəsiyyətnaməsində “Mənim malikiyyətimdə olan əmlak və əşyaların xümsünü verin” yazıb, bu torpağın xümsünü vermək mənə vacibdirmi?**

**Cavab: Əgər atanız o torpağın xümsünün verilməsinə vəsiyyət etmişdirsə, əvvəlcə vəsiyyətinə əməl edilməli, sonra mülkü varislərin ixtiyarına verilməlidir. Əgər sözü gedən torpaq sahəsi xümsü verilməmiş halda atanız tərəfindən sizin adınıza sənədləşdirilib və siz də təhvil almısınızsa, atanız sizə verdiyi bu pay (hədiyyə) şəri baxımdan qanunidir, amma o torpağın xümsü meyitin digər borcları kimi mirası bölünməmişdən çıxarılmalıdır.**

## Miras qalmış torpağın bahalaşması

**183. Bir atanın bağı bəxşiş və ya irs yolu ilə oğluna çatıb. Bu bağ oğula çatdığı zaman ucuz olub. Hazırda isə bağın qiyməti bahalaşıb və onu satmaq istəyir. Qiymətlərin bahalaşması səbəbi ilə bağın satışından əldə olunan gəlirə xüms düşürmü?**

**Cavab: İrs qalmış, bağışlanmış mala, habelə satışından qazanılan pula xüms düşmür, sonradan qiyməti bahalaşsa belə. Amma həmin əşyalar ticarət və qiymətlərin bahalaşması niyyəti ilə saxlanılıbsa, bu halda ehtiyat vacibə görə, həmin əşya satıldıqdan sonra əldə edilən gəlir “xüms ili”nin başına qədər qalarsa, qiymət artımının xümsü verilməlidir.**

(1) Sahibinin ölümündən sonra başqasının (övladın və ya yaxın qohumların) ixtiyarına keçən mal, mülk və s. miras.

(2) Kəsilmiş, zərb olunmuş qızıl pul.

### 4. Vəqf[1] vasitəsi ilə əldə edilmiş əmlak

**184. Xüms və zəkat baxımından vəqf edilmiş əmlak və ya torpaq sahəsinin mənfəət, yaxud məhsulunun hökmü nədir?**

**Cavab: Vəqf olunmuş məkan və əşyaların xümsü yoxdur. İstər ümumi vəqf olsun, istərsə də xüsusi[2] vəqf. Həmçinin səmərə və artımının[3] da xümsü yoxdur. Ümumi vəqfdə "moqufun əleyh"[4] vəfq edilmiş əşya və əmlakı təhvil almayınca, artımının zəkatı yoxdur. Amma "moqufun əleyh" vəqf olunmuş əşyanı təhvil aldıqdan sonra artım "nisab həddi"nə[5] çatasa və "zəkatın vacib olması şərtləri"nə sahib olarsa, zəkatı verilməlidir. Xüsusi vəqfin artımında isə "moqufun əleyh"lərin hər birinin payı "zəkatın vacib olma şərtləri"ni daşıyar və "nisab həddi"nə çatarsa, zəkatı vacibdir.**

**185. Mənim ana tərəfdən babalarım öz əmlaklarını vəqf ediblər və bu vəqfin vasitəsi ilə mənim əlimə müəyyən bir miqdarda pul çatır. Mən bu pulun xümsünü verməliyəm, ya xeyr?**

**Cavab: Vəqf vasitəsi ilə "moqufun əleyh"ə[6] çatan pula xüms düşmür, amma ehtiyat budur ki, xümsü verilsin.**

---

(1) Malı öz istifadəsindən çıxarıb, onun mənfəətini bə`zi fərdlərə və ya ümumi xeyir işlərə sərf etmək.

(2) Müəyyən bir dəstənin istifadəsi üçün edilən vəqf.

(3) Artım və çoxalma iki növdür: "Birləşik" və "əlahiddə". Məsələn qoyunun kökəlməsi, "bitişik" artımdır və qoyunun doğduğu balalar isə "əlahiddə" artımdır.

(4) Müəyyən əmlak və əşyanın istifadəsi üçün nəzərdə tutulmuş şəxs və ya şəxslər. "Xüsusi vəqfdə "moqufun əleyh" öncədən təyin edilmiş bir şəxs və ya bir qrup şəxsdir. "Ümumi vəfq"də isə ümumi kütlə "moqufun əleyh"dir.

(5) Nisab əsasən zəkat hökmlərinə aid olan bir termindir. İslam şəriətinə görə, insanın il ərzində əkib-becərdiyi bəzi məhsulların kütləsi, saxladığı heyvanların sayı və malik olduğu qızıl-gümüşün çəkisi müəyyən həddə çatdıqda, onların zəkatı verilməlidir. Zəkatın vacib olduğu həddə nisab deyirlər. Yəni adlarını çəkdiyimiz əmlak (məhsul, heyvanat və qızıl-gümüş) nisab həddinə çatanda onun zəkatı ödənməlidir. Şəriətdə nisabın dəqiq ölçüləri göstərilib. Məsələn, qoyunların sayı 40-a çatanda biri zəkat verilməlidir. Nisab həddinə çatmayan mal üçün zəkat verilməz.

(6) Müəyyən əmlak və əşyanın istifadəsi üçün nəzərdə tutulmuş şəxs və ya şəxslər. “Xüsusi vəqfdə “moqufun əleyh” öncədən təyin edilmiş bir şəxs və ya bir qrup şəxsdir. “Ümumi vəfq”də isə ümumi kütlə “moqufun əleyh”dir.

www.leader.ir

5. "Nəfəqə"(1) vasitəsi ilə əldə edilmiş əmlak

## Qadının "nəfəqə"dən topladığı pul

**186. Əgər ər öz xanımına "nəfəqə" üçün müəyyən miqdarı təyin etməyə və deyə ki, hər nə qədər istəyirsənsə, özün götür. Qadın da ərinin pulundan tədricən müəyyən miqdarda götürə və özünün gələcək günləri üçün toplayarsa, xüms ilinin başında bu pula xüms düşəcəkmi?**

**Cavab: Xanımın götürdüyü və dar günü üçün topladığı pullar ərinin ona verəcəyi vacib nəfəqə (arvadın dolanışıq haqqı) və ya "bəxşiş"dirsə, bu pulun xümsü yoxdur. Amma kişi xanımını evin gündəlik ehtiyacı olan şeylərini almaq üçün öz pulundan istifadə üçün vəkil edirsə və qadın da ərinin həmin ayırdığı puldan atıq qalanını özü üçün yığırsa, artıq qalan pul kişinin əmlakı sayılır və xüms ilinin başında xümsünü kişi verməlidir.**

## Valideynlər üçün ayırılmış davamlı xərclik

**187. Gündəlik dolanışıq xərclərim uşaqlarım tərəfindən ödənilən bir anayam. Xüms ilimin başında müəyyən bir miqdarda pul xərclərimdən artıq qalır. Mənim bu puluma xüms düşürmü?**

**Cavab: Sualda fərz olunan halda sizə xüms düşmür.**

## Övladlar üçün ayrılmış davamlı xərclik

**188. Bir şəxsin atası, qardaşı və ya qohumlarının birindən aldığı "nəfəqə" (gündəlik dolanışıq xərci) hədiyyə sayılır, ya yox? Əgər bu nəfəqəni verən öz əmlakının xümsünü ödəməyibsə, nəfəqəni alana aldığı miqdarın xümsünü ödəməsi vacibdirmi?**

**Cavab: Bir şeyin "hədiyyə" hesab edilməsi, onu verənin niyyətinə bağlıdır. Buna görə də əgət ata verdiyi pulu hədiyyə niyyəti ilə vermirsə, hədiyyə sayılmır. Amma hər halda, istər hədiyyə niyyəti ilə versinlər, istərsə də xərclik, xümsü yoxdur.**

(1) Nəfəqə (xərclik) - ehtiyacı olanlara göstərilən gündəlik təmənnasız yardım deməkdir. Sədəqə də infaqa aiddir. Şəriətdə ailə başçısının öz ailə üzvləri üçün xərclədiyi pula, eləcə də, yardıma ehtiyacı olan şəxslər üçün bunu verməyə borclu olan adamlardan alınan məbləğə (alimentə) də nəfəqə deyirlər. Öz həyat yoldaşının nəfəqəsini təmin etmək kişinin borcudur. Yetikinlik yaşına çatmamış övladların da nəfəqəsini ata verməlidir.

## Sığortaya ödənilən məbləğlər

**189. Həyat, əmanət, yanğın və bədbəxt hadisələrdən sığortalara xüms düşürmü? Əgər xüms düşürsə, bu xümsü kim verməlidir? (Sığortaçı, sığortalanmış, sığortada qazancı olan tərəf).**

**Cavab: Sığortaçının müqavilə əsasında sığortalanmış müştəriyə birdəfəyə və ya tədriclə ödədiyi "sığorta haqqı" həmin ilin qazancından sayılarsa, ilin "məunə"sindən (bir ilin dolanışıq xərcləri) hesab edilir və xümsü yoxdur. Həmçinin müştərinin sığortaçıdan müqavilə müddətinin sonunda və ya zərərin ödənməsi üçün göstərilmiş şərtlər əsasında aldığı vəsait qazanc sayılmır və xümsü də yoxdur. Amma sığortaçının işi bir növ ticarət sayıldığı üçün müştərilərindən aldığı sığorta haqqı illik qazancdan sayılır. Buna görə də ilin "məunə"sindən[1] artığına xüms gəlir.**
**Bundan başqa sığortalıya sığorta müqaviləsi üzrə dəymiş ziyana görə il ərzində ödənilən vəsait də sığortalıdan sığorta haqqı üzrə müqavilədən əldə olunan "məunə" (ehtiyat) sayılır. Və ilin sonunda artıq qalarsa onun (sığorta edən) üçün gəlir hesablanır və xümsü verilməlidir. Sığortalının üzərində bu barədə heç bir təklif yoxdur.[2]**

## Sığorta pulu

**190. Sığorta şirkətlərinin müqavilə əsasında zərərçəkmiş müştəriyə çəkdiyi zərərə görə ödədikləri pula xüms düşürmü?**

**Cavab: Sığorta şirkətlərinin müqavilə əsasında zərərçəkmiş müştəriyə çəkdiyi zərərə görə ödədikləri pulun xümsü yoxdur.**

## Tibbi sığorta pulu

**191. Bir şəxs illik gəlirindən övladının təhsil pulunu ödəyir. Həmin şəxs işlədiyi yer öncədən əldə edilən razılığa əsasən həmin təhsil haqqının 80 faizini geri ödəyir. Və ya bir nəfər öz müalicə pulunu xəstəxanaya ödədikdən sonra sığorta şirkəti həmin ödənilən məbləğin 80 faizini tibbi sığorta müqaviləsi əsasında xəstəyə geri ödəyir. İndi, yuxarıda sözü gedən şəxs iş yerindən və ya sığorta şirkətindən aldığı pulu xüms ilinin sonunadək xərcləməzsə, bu pula xüms düşürmü?**

**Cavab: Sualda deyilən surətdə xüms düşür.**

(1) Bir ilin dolanışıq xərcləri.

(2) Bundan əlavə sığortaçının sığorta müqaviləsi üzrə müştəriyə dəymiş zərərlərə görə il ərzində ödədiyi vəasit də sığortaçının illik sığorta müqaviləsi "məunə"sindən sayılır ki, müştəridən alınmış əsas məbləğdən çıxılır və yerdə qalanı xüms ilinin başında ilin qazancından hesab edilir və xümsü verilməlidir və bu barədə də sığortaçının üzərində bir təklik yoxdur.

7. Diyə[1]

## Diyə pulunun xümsü

**192. Diyə puluna xüms düşürmü?**

## Cavab: Diyə pulunun xümsü yoxdur.

(1) İslam qanunlarına görə, qəsdən cinayət törətmiş hər bir şəxs etdiyi əmələ müvafiq surətdə cəriməni zərərçəkənin özünə və ya varislərinə ödəməlidir. Bu cəriməyə "diyə" deyilir. Diyənin miqdarı törədilən cinayətin ağırlığından asılıdır. Məsələn, xüsusilə ağır olan qətl cinayətinə görə, cinayətkar şəriət məhkəməsi tərəfindən ya öldürülməli, ya da zərərçəkən tərəfə diyə ödəməlidir. Bəzən əks tərəf diyəni qəbul etməklə razılaşır və beləliklə cinayətkar ölümdən xilas olur.

### 8. Xümsü ödənilmiş əmlak

**193. Əlimdə xümsü ödənilmiş pul və ya əmlakım var ki, onun bir miqdarını istifadə etmişəm. Xüms ilinin sonunda illik gəlirin bir hissəsini (xümsünü hesablamamışdan öncə) həmin işlənən "müxəmməs" pulun və ya əmlakın əvəzinə götürmək olarmı?**

**Cavab: İllik qazancdan nəyisə, istifadə etdiyiniz xümsü verilmiş pulun və ya əmlakın yerinə götürə bilməzsiniz.**

**194. Bir şəxsin xümsü verilmiş buğdası var idi və yeni məhsulu biçən vaxtı həmin xümsü verilmiş buğdanı işlədirdi və işlətdiyinin yerinə təzə buğdadan qoyurdu. Və uzun illər bu işi görüb. İndi, bilmək istəyir ki, işlətdiyi xümsü verilmiş buğdanın yerinə qoyduğu yeni məhsul buğdaya xüms gəlibmi və əgər gəlibsə, hamısının xümsünü verməlidirmi?**

**Cavab: İşlətdiyi xümsü verilmiş buğdanın yerinə işlətdiyi miqdarda yeni məhsulun buğdasından qoya bilməz. Buna görə də yeni məhsul buğdadan "məunə"sini (il ərzində lazım olan miqdarda) istifadə etdikdən sonra xüms ilinin başında artıq qalan buğdanın xümsünü verməlidir.**

**195. Mənim iki bank hesabım var. Birinci hesabımdakı pul hədiyyədir ki, ona xüms düşmür. İkinci hesabımdakı pul qazancımdır və ona xüms düşür. Mən səhvən birinci hesabdakı (hədiyyə) pulumdan bir hissəsini bu niyyətlə ki, ikinci hesabımdakı (işimin qazancı olan) pulumdur, xərcləmişəm. Bilmək istəyirəm ki, ikinci hesabımdakı xümsü verilməmiş puldan götürüb birinci hesabımdakı səhvən xərclədiyim xüms düşməyən hədiyyə pulun əvəzinə birinci hesabıma köçürə bilərəm? Yəni xərclədiyim hədiyyə pulun yerinə ikinci hesabdan pul köçürsəm, bu pula xüms düşəcək, ya yox?**

**Cavab: İstifadə etdiyiniz məbləğ digər qazancdan istisna edilə bilməz – (yəni xümsü verilmiş pul və ya əmlak istifadə edilirsə, artıq itirilmiş sayılır və onun yerinə xümsü verilməmiş pul və ya əmlak qoymaq olmaz).**

9. "Məunə" (il ərzində lazım olan dolanışıq xərcləri) üçün xərclənmiş vəsait

## "Məunə"də xümsün vacib olmaması üçün meyar

**196. "Məunə"yə xümsün düşməməsi üçün meyar onu il əzrində xərcləməkdir, yoxsa, il ərzində ona ehtiyac olması kifayətdir, xərcləmək üçün şərait qabağa gəlməsə də?**

**Cavab: Paltar və döşənəcək (xalça, palaz, geyim əşyaları, yorğan-döşək) kimi istifadəsi zamanı özü qalan şeylərdə il ərzində onlara olan ehtiyac əsas meyardır – (yəni bir xalçanı təkcə qonaq üçün istifadə edirsənsə, həmin xalça hər ilin ehtiyacından sayılır, xüms ilinin sonunadək qonaq gəlsə də, gəlməsə də). Amma düyü, yağ və bunlar kimi gündəlik istifadəsinə ehtiyac olan şeylərdə əsas meyar "istifadə"dir ki, əgər xüms ilinin sonunda artıq gələrsə, xümsü verilməlidir.**

**197. Bir nəfərin öz ictimai şəninə uyğun və ailəsinə ev tikmək üçün ehtiyaclı olduğu ikinci torpaq sahəsi vardır. Amma il ərzində evi tikmək və ya bir il ərzində tikintini tamamlamaq imkanı yoxdur. Belə olan halda həmin torpaq sahəsinin xümsünü vermək vacibdirmi?**

**Cavab: Xümsün vacib olmaması üçün meyar ev tikməyə gərəkli torpaq sahəsinin və ya evin bir və bir neçə ədəd olması deyil. Bu məsələdə meyar həmin torpaq sahəsi və ya evin şəxsin ictimai şəninə və mövqeyinə uyğun olmasıdır.**

**198. Evdə mətbəxdə lazım olan çoxədədli qab-qacaq dəsti vardır. Bunlardan bəzilərinin istifadəsi yerdə qalanlarına xüms düşməməsi üçün kifayətdirmi?**

**Cavab: Həmin mətbəx əşyaları əgər şəxsin ictimai və ürfü şəxsiyyətinə, şəninə və mövqeyinə uyğundursa və o qab-qacaq dəstinə ehtiyacı varsa, il ərzində istifadə etməsə belə, xümsü yoxdur.**

## Xümsü verilməmiş pul ilə tikilən ev

**199. Xümsü verilməmiş pul ilə tikilən evə xüms düşürmü? Əgər belə bir evə xüms düşürsə, xüms tikildiyi vaxtın qiyməti ilə hesablanacaq, yoxsa, indiki qiymətlə?**

**Cavab: Əgər ev il ərzindəki yaşayış və məskən xərclərindən istifadə edilərək tikilibsə, xümsü yoxdur. Amma üzərindən xüms ili keçmiş qazancdan tikilibsə, evin tikilməsində istifadə edilən pulun xümsü verilməlidir.**

## Öncədən alınıb saxlanılmış kəfən

**200. Bir nəfər kəfəni alıb və neçə illər saxlayıb. Bu kəfənin xümsü indiki qiymətlə verilməlidir, yoxsa, kəfəni alıdığı vaxtdakı qiymətlə?**

**Cavab: Kəfəni xümsü verilmiş (müxəmməs) pul ilə alıbsa, (neçə il saxlasa da) xümsü yoxdur. Əgər xümsü verilməmiş pul ilə alıbsa, kəfənə verdiyi pulun xümsünü verməlidir. Əgər kəfəni aldığı zamandan indiyədək pulun dəyəri azalıbsa, ehtiyat vacibə əsasən bu barədə öz mərcə təqlidinin vəkili ilə "müsalihə"(1) eləsin.**

(1) Birinə göndərilən pay; hədiyyə, bəxşiş.

## Xümsdən qaçmaq üçün əmlak, əşya, pul və digər vəsaiti xərcləmək

**201. Bir kəs xümsdən qaçmaq üçün xüms ili çatmamış əmlakını xərcləyərsə, məsələn ziyarətə, müstəhəb Həccə gedərsə və ya ehtiyacı olmayan mənzil əşyaları alarsa və ya maşınını təzələyərsə və s. həmin şəxsin üzərindən xüms götürülürmü? Bu işin hökmü nədir?**

**Cavab: Öz həyatı və məişəti üçün xərclədiyi vəsaitin, sualda fərz edildiyi kimi də olsa, xümsü yoxdur. Amma ehtiyacı olmayan şeyləri alıbsa, xümsün vacib olması onun üzərindən götürülmür.**

## Məişət və ev əşyalarının xümsünün hesablanması

**202. Məişət və ev əşyalarının xümsü necə hesablanır?**

**Cavab: Məişətdə istifadə edilərkən özünün eyni qalan əşyaların, xalça, palaz, yorğan-döşək və s…, xümsü yoxdur. Amma düyü, yağ və bunlar kimi gündəlik istifadəsinə ehtiyac olan şeylər xüms ilinin başında artıq gələrsə, xümsü verilməlidir.**

**203. Əgər döşənəcək (xalça, kilim, palaz) və qab-qacaq il ərzində istifadə edilməzsə, amma qonaq gəldiyi vaxtlarda ona ehtiyac varsa, bu şeylərin xümsünü vermək vacib olurmu?**

**Cavab: Sualda deyilən halda xüms vacib deyil.**

## Maşını xüms ilindən sonra təhvil almaq

**204. Əgər xüms ili başa çatmamış il ərzindəki qazancımız ilə maşının pulunu ödəsək, maşını isə xüms ilindən sonra təhvil alsaq, maşına xüms düşürmü?**

**Cavab: Əgər ictimai maşın almaq sizin ictimai mövqeyiniz və ürfi şəninizə uyğun olubsa və alıbsınızsa, həmçinin öncədən ödədiyiniz pul da maşının qiymətinin bir qismi ünvanı ilə olubsa, xümsü yoxdur, əks halda xümsü olacaqdır.**

## Ev almaq üçün ilkin ödəniş

**205. Gələcəkdə ev yeri almaq üçün bir müəssisəyə 100 min tümən ilkin ödəniş etmişəm. İndi üzərindən bir il keçmişdir. Və bu tərəfdən də həmin ödədiyim pulun bir qismi özümündür, digrə qismini borc almışam və borcdan da bir miqdarını ödəmişəm. Həmin ilkin ödəniş etdiyim pula xüms düşürmü və əgər düşürsə, miqdarı nə qədərdir?**

**Cavab: Əgər ehtiyacınız olan evi tikmək üçün torpaq almağınız həmin ilkin ödənişə bağlıdırsa, əgər həmin məbləğ sizin illik qazancınızdan da olsa, ödənilmiş məbləğin xümsü yoxdur.**

## Şəxsi kitablar

**206. Tehranın beynəlxalq kitab sərgisindən kitab almaq üçün öncədən ödənilən pula xüms düşürmü, nəzərə alsaq ki, kitablar hələ göndərilməyib?**

**Cavab: Əgər qeyd edilən kitablar sizin ürfi və ictimai şəninizə uyğun miqdarda olarsa, xümsü yoxdur.**

**207. “Vəsailuş-Şiə” kimi çoxcildli kitablardan bir cildini istifadə etməklə yerdə qalan cildlərdən xüms götürülür, yoxsa, bunun üçün hər cilddən bir səhifə oxunulmalıdır?**

**Cavab: Əgər həmin çoxcildli kitabın bütün cildlərinə ehtiyac varsa və ya lazım olan cildi əldə etmək üçün bütün cildləri almaq məcburiyyətində olarsa, xümsü yoxdur. Əks halda**

istifadə edilməyən cildlərin xümsü verilməlidir və hər kitabdan təkcə bir səhifə oxumaq xümsün vacibliyinin götürlməsi üçün kifayət etmir.

**208. Tələbələrin sonrakı illər üçün aldığı dərslik kitablara ilin başında xüms düşürmü?**

Cavab: Əgər ürfi məqamlarına münasibdirsə və ehtiyacları varsa, xümsü yoxdur.

## Ərin arvadı üçün aldığı qızıl

**209. Ərin arvadı üçün aldığı qızıla xüms düşürmü?**

Cavab: Əgər ürfə uyğun və arvadın şanında olarsa, ilin məişət xərclərindən hesab edilir və xümsü yoxdur.

## Uşağa hədiyyə edilmiş əmlakın hökmü

**210. Əgər uşaq üçün müəyyən bir miqdar pul kənara qoyularsa və ümumiyyətlə hədiyyə olaraq ona bağışlanarsa, hədiyyə edilmiş pula xüms düşürmü?**

Cavab: Əgər hədiyyə və bəxşiş düzgün yerinə yetirilibsə və xümsdən qaçmaq üçün olmayıbsa, xümsü yoxdur.

## Sovqat(2)

**211. Bəzən ziyarət səfərlərində bir az geyim və digər şeylərdən sovqat hazırlayırıq, amma elə olur ki, artıq qalır və onu başqa vaxtlarda sovqat vermək üçün saxlayırıq. Bu kimi yerlərin xüms hökmü nədir?**

Cavab: Qeyd edilən əşyalar ilin qazancından alınıbsa və xüms ilinin sonunadək kimlərəsə sovqat verilərsə, xümsü yoxdur, əks halda xümsü verilməlidir.

(2) Bəzi vaxtlarda xüms verən adamın imkansızlığı nəzərə alınır və xümsü alan adam (müctəhidin vəkili) həmin pulu ondan alıb yenidən özünə qaytarır.

## Xümsdən qaçmaq üçün arvada pul bağışlamaq

**212. Ər və arvad ev almaq üçün topladıqları pullarını xümsdən qaçmaq qəsdi ilə bir- birlərinə bağışlayırlarsa, bunun şəri baxımdan müşkülü varmı?**

Cavab: Deyilən qayda ilə xümsdən qaçmaq olsa vacib təklifin götürülməsinə səbəb olmayacaqdır.

**213. Mənim xüms ilimin sonu hər ilin 10-cu ayının axırıncı günüdür. Ayında axırında da 10-cu ayın maaşını alıram. Bu pula xüms düşürmü? Maaşı alandan sonra onun qalanını ki, hər ayın adəti üzrə gələcək günlər üçün kənara qoyuruq, həyat yoldaşıma hədiyyə versəm, xümsü varmı?**

Cavab: Xüms ilindən əvvəl və ya xüms ilinin başa çatmasından bir gün əvvəl aldığınız maaşın ilin xərcindən artıq qalanının xümsünü verməyiniz vacibdir. Amma arvadınıza və ya digərinə hədiyyə etdiyiniz xümsdən qaçmaq üçün formal olmazsa və onların ürfi şənlərinə uyğun olarsa, xümsü yoxdur.

**214. Ər və arvad əmlak və qazanclarına xüms gəlməsin deyə, xüms ili başa çatmamışdan illik gəlirlərinin məişət xərclərindən artığını bir- birinə hədiyyə edirlər. Onların xüms hökmünü bəyan edəcəyinizə ümidvaram.**

Cavab: Xümsdən qaçmaq üçün formal hədiyyə ilə vacib xümsün təklifi onların

**boyunundan götürülmür.**

## Cehizlik üçün uşağın adına yaradılmış bank hesabına pul köçürmək

**215. Mənim 9 yaşlı qızım var və indidən onun adına bankda hesab açaraq hər ay müəyyən məbləğdə pulu hesabına köçürürəm ki, gələcəkdə ona cehizlik alanda həmin puldan istifadə edim. Bu pula xüms düşürmü?**

**Cavab: Əgər həqiqətən də ona hədiyyə edirsinizsə və bu hədiyyə onun şəninə uyğundursa, xümsü yoxdur. Amma həmin məbləğ ona hədiyyə olunmayıbsa və sırf onun adına depozit bank hesabı açıbsınızsa, xümsü vardır.**

## Cehizlik üçün yığılmış vəsaiti digər işlərdə xərcləmək

**216. Əvvəlcə cehizlik almaq niyyəti ilə hazırlanmış əmlak və vəsait bir neçə ildən sonra digər işlərdə istifadə olunarsa, bu əmlak və vəsaitə xüms düşürmü?**

**Cavab: Əgər cehizlikdən başqa işlərdə istifadə edilərsə, cehizlik hökmündə deyildir.**

## Cehizliyi daha yaxşısı ilə dəyişmək

**217. Bir şəxs tədriclə cehizlik alıb, indi həmin cehizlik dəbdən düşüb. Buna görə də istəyir ki, (qədimiləşmiş, dəbdən düşmüş) cehizliyi sataraq onun puluna daha yaxşısını alsın. Dəbdən düşmüş cehizliyi satarkən onun xümsünü verməlidir, ya yox?**

**Cavab: Əgər eyni həmin cehizi verib təzəsini alırsa, xümsü yoxdur. Amma dəbdən düşümüş cehizi sataraq başqa vəsait alırsa və ya onun pulunu öz məişət xərcləri üçün istifadə edirsə, (üzərindən xüms ili keçdiyi surətdə) xümsün hökmü ona aid olur.**

**218. Əgər qızın atası qızının dəbdən düşmüş cehizlik vəsatini öz məişət xərcləri üçün istifadə edərsə və yerinə daha yaxşısını alarsa, bunun (xüms baxımından) hökmü nədir?**

**Cavab: Əgər həmin cehizliyi ata qızına bağışlamışdısa və indi də qızı atasına geri verirsə, xümsü yoxdur. Əks halda xümsü vardır.**

## Qıza cehizlik pulu vermək

**219. Əgər cehizliyin pulunu qızın özünə versə ki, sonradan onunla özünə cehiz alsın, bu pula xüms düşürmü?**

**Cavab: Əgər hədiyyə etdiyiniz məbləğ qızınızın ürfü şəninə uyğundursa və xüms iliniz başa çatmamışdan öncə olarsa, xümsü yoxdur.**

## Hədiyyə və bəxşiş edilmiş cehizlik

**220. Əgər cehizlik vəsait alındığı vaxtdan bir neçə il keçdikdən sonra qıza təhvil verilməyərək kasıb bir insana bağışlanılırsa, bu cehizliyə xüms düşürmü?**

**Cavab: Sualda deyilən surətdə xümsü vardır.**

## Oğlanın cehizliyi

**221. Bəzi regionlarda adətdir ki, kürəkənin də ailəsi ev əşyalarını təmin etmək üçün oğlanlarına cehizlik verirlər. Əgər kürəkənin ailəsi bu cehizliyi müəyyən zaman müddətində və tədriclə hazırlayırlar və üzərindən il keçirsə, bu cehizliyin hökmü nədir?**

**Cavab: Əgər məişət əşyalarının öncədən hazırlanması həmin ürfdə ilin xərclərindən sayılırsa, xümsü yoxdur.**

## Zinət əşyaları və kolleksiyalar

**222. Əgər bir şəxs öz ürfi şəninə uyğun olaraq hər ay öz qazancından qızıl alırsa, bu qızıla xüms düşürmü?**

**Cavab: Sualda deyilən surətdə, əgər ürfi şəninə uyğun zinət üçün olarsa, xümsü yoxdur.**

**223. Evdə saxlanılan (qəfəs) quşları və akvarium balıqlarına xüms düşürmü?**

**Cavab: Əgər ilin məişət xərclərindən artıq və şəxsin ürfi şəninə uyğun olarsa və həmçinin xüms ilinin ortasındakı gəlir və qazanc ilə alınarsa, xümsü vardır, belə olmayan halda xümsü yoxdur.**

## Xeyriyyə işləri, ehsan və şəri haqlar

**224. Şəxsin məktəblərə, seldən zərər çəkmişlərə və s. xeyriyyə işləri üçün xərclədiyi pullar ilin "məunə"sindən (zəruri məişət xərcləri) sayılırmı və bu pullara xüms düşürmü?**

**Cavab: Bu xərclər ilin məişət xərcləri və "məunə"sindən sayılır və xümsü yoxdur.**

## Dövlət vergilərinin ilin gəlirindən hesablanması

**225. Mən 82-ci şəmsi ilində mağazamın bir illik xümsünü hesabladım. 83-cü ildə bir illik xümsümü ödəmək istəyirdim ki, 81-ci və 82-ci illərdəki dövlət vergilərimi də ödəməli olduğumu bildim. Nəzərə alsaq ki, mən dövlət vergililərindən xəbərsiz idim, 83-cü ilin xümsünü hesablayarkən 81-ci və 82-ci ilin dövlət vergilərini 83-cü ilin illik xərclərindən hesab edə bilərəm, ya yox?**

**Cavab: Hər ilin vergi borcları həmin ilin gəlirindən hesablanmalıdır və yerdə qalan qazanc "məunə"dən (bir ilin dolanışıq xərcləri) artıq gələrsə, xümsü verilməlidir. Həmçinin öncəki illərin də vergi borclarını bu il xüms iliniz başa çatmamış ödəsəniz, "məunə"nizdən hesablanır.**

## Həcc ziyarəti üçün öncədən ödənilmiş pul Meyitin Həcc ziyarəti üçün pulun köçürüldüyünü təsdiq edən qəbz

**226. Bir şəxs müstəhəb Həcc ziyarətinə getmək üçün öncədən Həcc təşkilatının hesabına pul köçürüb, amma Həccə getməmişdən öncə vəfat edib. Bu pulun hökmü nədir? Bu pulu meyyitin tərəfindən naib tutaraq Həcdə xərcləmək vacibdirmi? Bu pula xüms düşürmü?**

**Cavab: Öncədən Həcc təşkilatının hesabına köçürdüyü pul meyyitdəm qalma irs sayılır. Əgər meyyitin öhdəsində vacib Həcc yoxdursa və bu barədə vəsiyyət də etməyibsə, onun yerinə naib göndərmək lazım deyil. Əgər həmin pulun xümsü öncədən verilməmişdirsə, sualda deyilən surətdə verilməlidir.**

## Qonaqlıq xərclərini xümsü

**227. Bir nəfər qonaqdır və bütün xərcləri də digəri tərəfindən ödənilir. Belə halda evsahibinə xərclərin xümsünü verməsi vacibdirmi?**

**Cavab: Sözü gedən xərclər ürfə uyğun olarsa, xümsü yoxdur.**

## Az istifadə edilən əmlak

**228. Mən təqaüdə çıxmış dövlət işçisiyəm. Təqaüddən öncə bankdan və digər müəssisələrdən kredit götürərək Məşhəddə ev almışam. Həmçinin həmkarlarımla birgə ölkənin şimalında ev tikmək üçün torpaq sahəsi almışıq. Təqaüdə çıxarkən dövlətin mənə verdiyi pul ilə Məşhəddəki evimin və şimaldakı torpağımın banka olan borclarını ödədim. Təkcə bəzi müəssisələrə olan borclarım qalıb ki, buna görə də gələn bir il ərzində hər ay 75 min tümən ödəyəcəm. Digər tərəfdən də yenə də azad işlərdə işləyirəm. Məşhəddəki evdən də il**

ərzində özüm, ailəm və bəzən də qohumlar bir neçə dəfə istifadə edirik. Şimaldakı həyətyanaı torpaq sahəm isə elə də qalıb və orada ev tikmək və istifadə etmək üçün maddi gücüm yoxdur. Sualım budur ki, mənim əmlakıma xüms düşür, ya yox? Əgər düşürsə, indiki qiymətlə hesablamalıyam, yoxsa, aldığım qiymətlə?

Cavab: Əgər sizin ictimai mövqeyiniz və ürfi şəniniz Məşhəddə evinizin olmasını tələb edirsə, xümsü yoxdur. Əks halda Məşhəddəki evinizin və digər mülkünüzün qazancınızdan verdiyiniz hissəsinin xümsü verilməlidir. Hansı qiymət əsasında xümsü hesablamalı olduğunuza gəldikdə isə, əgər siz həmin mülkü satmaq üçün almamısınızsa, nə qədər ki, həmin evi və mülkü satmamısınız təkcə aldığınız qiymətin xümsünü, satdıqda isə qiymət fərqinə görə əldə etdiyiniz gəlirin də xümsünü verəcəksiniz.

**229. İstirahət üçün torpaq sahəsi və ya bağ almaq Ailəmin istifadəsi, maddi ehtiyacımızı təmin etmək və həmçinin ailəmizin istirahət günlərini keçirməsi üçün (bağ salmağa və əkinə yararlı) torpaq sahəsi almışam. Bu torpaq sahəsinə xüms düşürmü? Əgər xüms düşürsə, bu torpaq üçün çəkdiyim xərclərə də (hasara salmaq, ağac əkmək və s…) xüms düşür, yay ox? Və qeyd edim ki, bu torpağın pulunun bir qismi bankdan alınan kredit ilə ödənib və digər qismini də illik qazancımdan xüms ili tamam olmamış ödəmişəm.**

Cavab: Əgər bu torpağa istirahət, gəzinti və dincəlmək baxımından da olsa, sizin ehtiyacınız olubsa, həmçinin pulunu da illik qazancınızdan veribsinizsə, xümsü yoxdur.

**230. Bağ salmaq üçün torpaq sahəsi almışam, amma indiyədək bağ sala bilməmişəm. Bu halda xüms ili gəlib çatarsa, xüms ilinin başında bu torpağa xüms düşəcəkmi? Əgər xüms düşəcəksə, xümsünü necə hesablamalıyam?**

Cavab: Əgər dediyiniz torpağı şəxsi ehtiyaclarınız və istirahət üçün ilin qazancından alıbsınızsa və sizin ürfi şənizdən və ictimai mövqeyinizdən artıq deyilsə, xümsü yoxdur.

## Evlə birlikdə həyətdə olan mağazanı almaq

**231. Bir nəfər həyətində küçəyə açılan mağazası olan bir ev alır. Alıcının hədəfi də evi almaqdır, mağazanı deyil. Belə halda həmin mağazaya xüms düşür, ya yox?**

Cavab: Əgər mağazanı qazanc üçün almayıbsa, hazırda həm həmin mağazadan qazanc etmirsə və mağaza evin tərkib hissəsi sayılırsa, müstəqil hökmü yoxdur və evdən sayılır.

## Ev tikmək üçün alınan torpaq

**232. Yaşamaq üçün evi olmayan bir şəxs ev tikmək üçün torpaq sahəsi alıb. Amma evi tikmək üçün pulu olmadığına görə, torpağı aldığı vaxtdan bir il keçib, həmçinin torpağı da satmayıb. Bu torpağa (bir il istifadsiz qaldığı üçün) xüms düşürmü?**

Cavab: Əgər torpağı ilin qazancından ehtiyacı olduğu evi tikmək üçün alıbsa, xümsü yoxdur.

**233. Yaşamaq üçün evi olmayan bir şəxs ev tikmək üçün torpaq sahəsi alıb. Evi tikməyə də başlayıb. Amma evi tikməyə macal tapmamış, xüms ili gəlib çatıb. Belə olan halda evin tikintisi üçün işlətdiyi vəsaitin xümsünü verməlidirmi?**

Cavab: Sualda deyilən surətdə xümsü yoxdur.

## Övladların gələcəyi üçün alınmış evin hökmü

**234. Evin birinci mərtəbəsində yaşayan bir şəxs övladların gələcəyini nəzərə alaraq evə ikinci mərtəbəni də əlavə edirsə və buna hələ gələn bir neçə ildə ehtiyacı olmayacaqsa, ikinci mərtəbəni tikmək üçün xərclədiyi vəsaitə xüms düşürmü?**

Cavab: Əgər övladlarının gələcəyi üçün ikinci mərtəbəni tikmək hazırda onun ürfi və ictimai mövqeyinə uyğun xərclərdəndirsə, bu barədə xərclədiyi vəsaitin xümsü yoxdur.

**Əgər belə deyilsə, nə özünün və nə də övladlarının buna ehtiyacı yoxdursa, xümsünü verməlidir.**

**235. Sizin fətvanıza əsasən ilin xərclərindən hesab olunan vəsaitə xüms yoxdur. Belə isə yaşamaq üçün evi olmayan şəxsin gələcəkdə ev tikmək üçün aldığı, amma imkansızlıqdan ev tikə bilmədiyi torpağın üzərindən bir neçə il keçdikdə, nə üçün bu torpaq ilin xərclərindən hesablanmır? Lütfən, izah edin.**

**Cavab: Əgər evə ehtiyacı olduğu üçün ilin gəlirindən ev tikmək üçün torpaq alıbsa, onun hazırkı xərclərindən hesab edilir və xümsü yoxdur.**

## Artıq (əlavə) dərmanlar

**236. İlin ortasının qazancından dərman alınıb, xüms ilinin sonunadək istifadə edilməyib qalıbsa, bu dərmanlara xüms düşürmü?**

**Cavab: Əgər dərmanlar lazım olanda istifadə etmək məqsədi ilə alınıbsa və həmçinin həmişə ehtiyac olan dərmanlardandırsa, xümsü yoxdur.**

## Şəxsi istifadə üçün maşın almaq

**237. Bir şəxs ailəsinin rahatçılığı və ehtiyaclarını ödmək üçün ilin ortasında qazandığı və xümsü verilməmiş pul ilə maşın alıb. Bu maşının xümsünü vermək vacibdirmi? Əgər həmin maşını işi ilə əlaqədar alıbsa, necə?**

**Cavab: Əgər maşın iş və qazancla əlaqəli alınıbsa, iş alətləri barədə xümsün vacibliyi hökmü buna da şamildir. Amma öz ürfi şəninə uyğun yaşayış ehtiyaclarını ödəmək üçün alıbsa, xümsü yoxdur. Əlbəttə əgər maşına vediyi pulun üzərindən xüms ili keçibsə, xümsünü verməlidir.**

## Gələcək günlər üçün alınmış avadanlıq

**238. Mən tələbəyəm və evlənmək niyyətindəyəm. Buna görə də gələcək həyatım üçün məişət avadanlığı almaq istəyirəm. Mən indidən həmin avadanlıqları almağa başlasam və istifadə etmədən üzərindən xüms ili keçərsə, onların xümsünü verməliyəm, ya yox?**

**Cavab: Əgər gələcək üçün məişət avadanlıqlarını almaq sizin ürfi şəninizə uyğundursa, sizin ictimai mövqeyinizdə olanın illik xərclərindən sayılırsa və həmçinin birdəfəyə almaq imkanınız yoxdursa, bu halda xümsü vacib deyil.**

**239. Hazırda evdə lazım olan zəruri əşyaları bazar qiymətindən aşağı almaq imkanımız var. Bu əşyalara gələcəkdə ailə qurduqdan sonra bizim ehtiyacımız olacaq və o zaman məcburuq onları bir neçə dəfə bahasına alaq. Əgər biz indi ehtiyacımız olmayan və istifadə etməyəcəyimiz bu əşyaları alıb gələcəyimiz üçün saxlasaq, xümsünü verməliyikmi?**

**Cavab: Əgər siz bu əşyaları illik qazancınızdan alıbsınız və aldığınız ildə sizin ona ehtiyacız olmayıbsa, xüms ilinin başında onları aldığınız qiymətin xümsünü verməlisiniz. Amma sizin bu əşyaları birdəfəyə almaq imkanınız yoxdusrsa və məcbursunuz ki, tədricən alasıb ehtiyac zamanı üçün saxlayasınız, sizin ürfi şənizə uyğun olan miqdarda alıb salxaya bilərsiniz, bu sizin illik məişət xərclərinizdən hesabalanacaq və xümsü də yoxdur.**

## Bir il üçün öncədən alınmış ehtiyaclar

**240. Hər il Novruz bayramı öncəsi təşkil edilən məişət əşyaları sərgisində qiymətlər münasib olduğu üçün biz bir ilin ehtiyaclarını alırıq, xüsusi ilə də uşaqların yay və qış libaslarını. Bunlara xüms düşürmü?**

**Cavab: Əgər aldığınız zaman qeyd etdiyiniz geyimlər ailənizin ürfi şəninə uyğun olubsa və**

**ehtiyacınız olduğu üçün alıbsınızsa, xümsü yoxdur.**

## İcarəyə verilmiş ev

**241. Mənim kiçik bir evim var idi. Sonra işlədiyim idarənin mənzil kooperativi tərəfindən kredit götürərək yeni bir ev aldım. Bu evin pulunu çoxsaylı kredit vasitəsilə tədricən ödədim. Bundan sonra əvvəlki evimi icarəyə verdim və onun icarə pulu ilə yeni mənzilin kreditlərini ödəyirəm. Bilmək istəyirəm ki, mənim bu iki evimə xüsm düşür?**

**Cavab: Əgər əvvəlki evinizi illik qazancınız ilə almışdınızsa və ən azı bir xüms ilinin sonunadək o evdə yaşamışdınızsa, xümsü yoxdur. İkinci eviniz də ki, hazırda sizin yaşamaq üçün ona ehtiyacınız var, xümsü yoxdur.**

## Hər zaman lazım ola biləcək əşyalar

**242. Evdə bəzi əşyalar mümkündür istənilən vaxt istifadə üçün lazım olsun, lakin bəzən görürsən ki, üzərindən il keçir, amma istifadə edilmir. Belə hallarda bu əşyalara xüms düşür?**

**Cavab: Əgər həmin əşyaya ehtiyacınız olursa və pulunu da illik qazancınızdan vermisinizsə, il ərzində istifadə etməsəniz də xümsü yoxdur.**

## Dəftərxana ləvazimatı

**243. Dəftərxana və yazı ləvazimatına xüms düşürmü?**

**Cavab: Əgər ürfi mövqeyə uyğundursa, həmçinin ilin qazancından alınıbsa, xümsü yoxdur. Həmçinin əgər bu yazı ləvazimatları il ərzində istifadə üçün alınmışdısa və il ərzində istifadə edildikdən sonra artıq qalıbsa və bazar dəyəri vardırsa (satışa yararlıdırsa), xümsü verilməlidir.**

## İstifadə və istehlakdan artıq qalmış material, məhsul və vəsait

**244. Qələm, karandaş, xanımların bəzək əşyaları, geyim və kosmetika aksesuarları, ətir və s... bu kimi şeylərdən istifadə edildikdən sonra bəzən bir hissəsi artıq qalır və üzərindən il keçir. Bunun hökmü nədir?**

**Cavab: Əgər deyilən vəsait il ərzindəki qazancdan alınıbsa və qalan miqdarın da ürfi baxımdan bazar dəyəri vardırsa (satışa yararlıdırsa), xümsü verilməlidir.**

## Simkart nömrə almaq üçün ödənilən pul

**245.Mən mobil telefonuma (daimi) simkart nömrə almaq üçün aidiyyatı üzrə idarənin hesabına pul yatırtmışam. İndi isə mənim xüms ilimin sonuna az qalıb, amma mən hələ də simkart nömrəni təhvil almamışam. Mənim simkart nömrə üçün ödədiyim pula xüms düşürmü?**

**Cavab: Əgər simkart nömrə üçün öncədən ödəniş etdiyiniz pulu ilin gəlirindən və simkart nömrə almaq üçün ödəmisinizsə, investisiya üçün deyilsə və həmçinin sizin ürfi şəninizdə olan ehtiyacınızdırsa, xümsü yoxdur.**

**246. Xüms ili başa çatmamış mobil nömrəmin balansına pul yükləmişəm. Xüms ili başa çatdıqdan sonra həmin puldan nömrəmin balasında qalmışdır. Qalan pula xüms düşürmü?**

**Cavab: Mobil nömrənizin balansına yüklədiyiniz pul həmin ilin dolanışıq xərcləri qazancından olubsa, xüms ili başa çatdıqdan sonra nömrənizin balansında qalan pula xüms düşür.**

## Ev heyvanları və onların artımı

**247. Əkinçilərin dolanışıq xərclərini ödəmək üçün inək, qoyun və bu kimi heyvanlar saxlamağa ehtiyacları vardır. Onlar bu heyvanlardan əldə olunan gəlir (ət, süd, yun, bala) ilə gündəlik xərclərini öhdələyirlər. Bu heyvanlara və onlardan əldə edilən gəlirə xüms düşürmü?**

**Cavab: O heyvanların özü kəndçilərin ürfi şənlərindən artıq deyilsə və onlara ehtiyacları varsa, xümsü yoxdur. Amma onlardan əldə olunan gəlir (yun, yağ və s…) xüms ilinin sonunadək istifadə edilməzsə və xüms ilindən artıq qalarsa, xüms düşür.**

## “Məunə”nin satışı

**248. Əgər bir şəxs öz evini satarsa və pulunu faizlə banka qoyarsa, sonra xüms ili başa çatarsa, bu pulun hökmü nədir? Əgər bu pulu ev almaq üçün toplayırsa, hökmü nədir?**

**Cavab: Əgər evi özünün illik maaşından və ilin məişət xərcləri hesabından yaşamaq üçün tikib və ya alıbsa və xüms ilindən sonra satıbsa, o pulun heç bir halda xümsü yoxdur.**

## Xümsü verilməmiş vəsaitdən əldə edilmiş “məunə”nin satışı

**249. Məişətdə ehtiyacımız olan əmlak və əşyaları, o cümlədən maşın, motosiklet, döşənəcək və s..., xümsləri verilməmiş satsaq, satdıqdan dərhal sonra xümsü verilməlidirmi?**

**Cavab: Qeyd edilən əmlak və əşyalar əgər məişət ehtiyaclarındandırsa, il ərzindəki qazancdan pulu verilibsə və (xüms ilindən) sonrakı ildə satılıbdırsa, satışdan əldə edilən pulun xümsü yoxdur. Amma həmin əmlak və əşyalar üzərindən xüms ili keçmiş və xümsü verilməmiş pul ilə alınıbsa, onları satmasa da gərək onların alış qiymətinin xümsünü versin. Əgər xüms ili hesabı yoxdursa və bilmirsə, ehtiyacı olan o əşyaları aldığı pulun üzərindən xüms ili keçibdir, ya yox, gərək həmin pulun barəsində ofisin nümayəndələrindən biri ilə “müsalihə”(3) etsin.**

---

**(3) Bəzi vaxtlarda xüms verən adamın imkansızlığı nəzərə alınır və xümsü alan adam (müctəhidin vəkili) həmin pulu ondan alıb yenidən özünə qaytarır.**

## Maşın satışı

**250. Neçə il öncə bir maşın almışdım ki, hazırda satış qiyməti bir neçə dəfə bahalaşıb. İndi, istəyirəm ki, bu maşını satım və puluna ev alım. O maşını aldığım zaman maşına verdiyim pulun xümsün verməmişdim. Bilmək istəyirəm ki, maşını hazırkı qiymətə satandan sonra aldığım pulun hamısının xümsünü verməliyəm, ya təkcə maşını alarkən verdiyim pulun xümsünü verim və yeni qiymətdən qazandığım pulu ilin gəlirindən hesablayım, əgər xüms ilimin sonunadək xərclənməsə, onun xümsünü ilin başında verərəm?**

**Cavab: Əgər maşın sizin il ərzindəki ehtiyaclarınızdan olarsa və onu şəxsi istifadəniz üçün il ərzindəki qazandığınız pul ilə almısınızsa, onun satış pulunun xümsü yoxdur. Amma maşını işləmək üçün almısınızsa, sizin üçün qazanc alətidirsə, onu almaq üçün verdiyiniz pulun xümsünü vermək vacibdir. Əlbəttə siz maşını satan zaman qiyməti aldığınızdan az olarsa, bu barədə şəri hakimlə müsalihə etməyiniz ehtiyata uyğundur və əgər qiyməti bahalaşıbsa, bahalaşmadan əldə etdiyiniz gəlir maşını satdığınız ilin qazancı hesab edilir (və xüms ilinin sonunda artıq qalırsa, xümsü verilməlidir).**

## “Məunə”nin satışından qazanılan pulun istifadəsiz qalması

**251. Nəzərə alsaq ki, insanın ürfi şənində olan ev əşyaları və ya xanımın qızılları xüms ilindən sonra satılarsa, xümsü yoxdur, əgər bu ev əşya və qızılın satışından qazanılan pul bir neçə il istifadə edilməzsə, bu pula xüms düşürmü?**

**Cavab: Xümsü yoxdur.**

## Sərmayəyə çevirilmiş illik xərc (məunə)

**252. İl ərzində məişət üçün lazım olan ev kimi əmlak və vəsait xüms ilindən sonra müəyyən bir iş üçün əldə sərmayə edilərsə, ona xüms düşürmü?**

**Cavab: Sualda deyilən surətdə, xeyr, xüms düşmür.**

## Həyətyanı torpaq sahəsinin satılması

**253. Mən xümsü verilmiş pul ilə həyətyanı torpaq sahəsi almışdım. Bu niyyətlə ki, əgər imkanım olsa, ev tikərəm, olmasa da sataram və pulu ilə ev alaram. Bir neçə il keçdikdən sonra torpaq bahalaşdı və mən də həmin torpağı satdım və üstünə də öncədən topladığım pulu əlavə edərək ev aldım. İndi, bu evi aldığım pula xüms düşürmü?**

**Cavab: Sualda yazdığınız surətdə bu evə xüms düşmür. Amma o pul ki, toplamışdınız və sonradan torpağın satışından əldə etdiyiniz pulun üstünə qoymuşdunuz, əgər ilin qazancından olubsa, xüms ili də üzərindən keçibsə və siz xümsünü verməyibsinizsə, bu halda təkcə həmin məbləğə xüms düşür.**

## Şəxsi kitablar

**254. Bir nəfərin evində şəxsi kitabxanası var idi ki, müəyyən müddətdə bu kitabxananın kitablarından istifadə edib. Amma indi bir neçə ildir ki, həmin kitablardan istifadə etmir, lakin gələcəkdə istifadə edəcəyi ehtimal edilir. Bu kitablardan istifadə etmədiyi müddətdə həmin kitablara xüms düşürmü? Əgər xüms düşürsə, özü aldığı kitablar ilə atasının aldığı kitablarda xüms düşməsi cəhətindən fərq varmı?**

**Cavab: Kitabları aldığı zaman o şəxsin həmin kitablara mütaliə, lazım olanda baxmaq və araşdırmaq üçün ehtiyacı var imişsə və kitabların sayı da onun ürfi şəninə münasibdirsə, hətta kitabları aldığı birinci ildə də onlardan istifadə etməsə, yenə də xüms düşmür. Həmçinin həmin kitabları onun üçün valideyni almışdırsa və ya digərləri ona hədiyyə etmişdirsə və ya ona irs olaraq çatmışdırsa, xüms düşmür.**

## Övladların adına tikilmiş evi icarəyə verməyin hökmü

**255. Öz yaşayış evimizin üstünə iki mərtəbə də əlavə edərək uşaqlarımız üçün ayrıca ev tikmişik. Amma indi 2-ci və 3-cü mərtəbələrdəki bu iki mənzili başqalarına kirayə vermişik. Bu mənzillərin xümsünü necə hesablamalıyıq?**

**Cavab: Əgər övladlarınız üçün ikinci mərtəbədə ev tikmək hazırda sizin ürfi şəninizə uyğun xərclərdəndirsə, xümsü yoxdur. Əgər belə deyilsə və hazırda da nə sizin və nə də övladlarınızın bu evə ehtiyacı yoxdursa, bu evin tikilib başa gəlməsində xərclənən ümumi məbləğin xümsünü verməlisiniz.**

## İstehlakdan sonra istifadəsiz qalmış əmlak və əşyaların xümsü

**256. Bir neçə gün öncə, xüms ili başa çatmamışdan ev üçün bir yeni xalça aldım. Köhnə xalçanı evdən götürüb anbara qoyduq. Hazırda anbara atdığımız bu köhnə və istifadəsiz xalçaya xüms düşürmü?**

**Cavab: Əgər təzə aldığınız xalçaya sizin ehtiyacınız varsa, xümsü yoxdur. Həmçinin əvvəllər evinizdə işlətdiyiniz və indi anbara qoyduğunuz köhnə xalçaya da xüms düşmür.**

10. Borc və kredit əmlak ("Qərzül-həsənə")

## Borc pul almaq

**257. Bir neçə il öncə bankdan borc pul (kredit) aldım və indi həmin pulu bir ildir ki, istifadə etmədən şəxsi bank hesabımda saxlayıram və hər ayın başında da kreditini ödəyirəm. Bu pula xüms düşürmü?**

**Cavab: Dediyiniz borc pulun, xüms ilinizin sonuna qədər illik gəlirinizdən kreditini ödədiyiniz miqdarına xüms düşür və vacibdir.**

## Uzunmüddətli kredit borcu

**258. Mən evimi tikmək üçün müəyyən məbləğdə pul kredit götürərək banka borclanmışam, və bu pulu 12 il ərzində ödəməliyəm. Bilmək istəyirəm ki, bu borc mənim illik dolanışıq xərclərimdən sayılırmı?**

**Ev və buna oxşar məsələlər görə köhnə ildən qalmış kredit borcları təzə ilin dolanışıq xərclərindən hesab edilə bilər. Amma xüms ili başa çatdıqdan sonra gecikdirilmiş kredit borclarını köhnə ilin xərclərindən hesab etmək olmaz və xüms ilinin sonunda artıq qalan pulun xümsü verilməlidir – (yəni xüms ili başa çatdıqdan və ilin dolanışıq xərclərindən artıq qalan miqdar məlum olduqdan sonra, həmin artıq qalan vəsaitdən köhnə ilə aid olan kredit borclarını verə bilməz və mütləq qalan pulun xümsü verilməlidir).**

## İpoteka kreditləri Ev almaq və tikmək üçün alınmış kredit borcunun ödənilmiş miqdarının xümsü

**259. Mən, Təhsil Nazirliyinin təqaüdə çıxmış müəlliməsiyəm. Bir neçə il öncə yaşayış komplekslərindəki binalardan birində bir mənzil aldım. Bu mənzilin pulunun yarısını Təhsil Nazirliyinin mənə hədiyyə etdiyi "təqaüd bonusu" ilə ödədim ki, hədiyyə olduğu üçün bu pula xüms düşmür. Pulun qalan yarısını isə bankdan ipoteka krediti alaraq ödədim ki, bu pulu hər ay müəyyən məbləğdə ödəniş etməklə 10 il ərzində ödəməliyəm. Mən bu evi övladlarım üçün almışam və hazırda da övladlarım bu evdə yaşayır. Bu evə görə hər ay ödədiyim pula xüms düşür, ya ilin dolanışıq xərclərindən hesab edə bilərəm? Əgər xüms düşürsə, hər ayın başında xümsün ödəməliyəm, yoxsa, xüms ilinin sonunda birdəfəyə ödəyə bilərəm?**

**Cavab: Əgər dediyiniz evi övladlarınıza hədiyyə edibsinizsə, ödədiyiniz aylıq kredit borclarınızın xümsü yoxdur. Əgər evi övladlarınıza daimi verməmisinizsə və evin sahibi özünüzsüzsə və həmçinin bu ev sizin il ərzindəki məişət xərclərindən sayılmırsa, ödədiyiniz aylıq kreditlərin xümsünü hər ilin başında verməlisiniz.**

## Borclunun sərmayəsi üzərinə gələn gəlirin xümsü

**260. Bir şəxs xümsünü verdiyi sərmayə ilə özünə iş yeri açıb və bu iş yerindən hər ay gəliri vardır. Amma özünün maddi durumu belədir ki, həm özünün kimlərəsə borcu vardır, həm də digərlərin ona borcu var. Həmçinin özünün şəxsi evi yoxdur. Bundan əlavə digərlərinə maddi kömək də edir. Bu şəxsin aylıq gəlirinə xüms düşürmü?**

**Cavab: Həmin şəxs xümsünü verdiyi sərmayə ilə qazandığı puldan ilin zəruri xərclərini, o cümlədən yaşayış xərclərini, sədəqə və xeyir işlərə xərclədiyini çıxdıqdan sonra, xüms ilinin sonunda artıq qalanının xümsünü verməlidir. Borcları da əgər həmin ilin qazancı və yaşayış xərcləri ilə bağlı olarsa, ilin yaşayış xərclərindən hesab ediləcəkdir. Amma borcları öncəki illərə aid olarsa, hazırkı ilin dolanışıq xərclərindən hesab oluna bilməz. Digərlərinə verdiyi borca, yəni alacaqlarına gəlincə isə, əgər həmin borclar camaata verdiyi nisyə mala**

**görədirsə, həmin borcları verdiyi insanlardan gerdi aldığı ilin qazancından hesab ediləcəkdir.**

## Kreditə aldığı maşınla taksiçilik edənin xümsü

**261. Peşəsi taksiçilik olanın xüms ilinin sonunda vəzifəsi nədir və həmçinin əgər xüms ili yoxudursa, xüms barədə vəzifəsi necə olacaqdır? Və kreditlə taksiçilik üçün aldığı maşına da xüms düşürmü?**

**Cavab: Əgər kreditlə aldığı maşın üçün ödədiyi aylıqların xümsünü verməklə dolanışığını idarə edə bilməyəcəksə, xümsü yoxdur, əks halda isə hər ay kredit üçün ödədiyi miqdarın xümsünü verməlidir. Həmçinin onun taksiçilik ilə qazancı ilin dolanışıq xərclərindən artıq olarsa, xüms ilinin sonunda artıq qalmış pula xüms düşür.**

## İpoteka ilə satılan mənzilin imtiyazını borcla almaq

**262. Mən digər bir şəxsin ipoteka ilə götürəcəyi ev tikmək üçün həyətyanı sahənin imtiyazını 1200 manata almışam. Bu məbləğin 600 manatını borc alaraq ödəmişəm. Nəzərə alsaq ki, mən hələ həmin torpağı təhvil almamışam və xüms ilim də sona çatıb, o torpağa xüms düşürmü?**

**Cavab: Sulada qeyd edilən surətdə torpaq, ehtiyacınız olduğu evin tikilməsi üçün alınıbsa, xüms düşmür və borc etdiyiniz pulun da xümsü yoxdur.**

## Kirayənin(1) qarşılığında borc almaq

**263. Bir şəxsin iki mərtəbəli evi vardır. Özü yuxarı mərtəbədə yaşayır və birinci mərtəbəni başqa birinə kirayəyə vermişdir. Amma borcu olduğu üçün evini kirayəyə verdiyi şəxsdən kirə pulunun əvəzinə müəyyən məbləğdə borc pul almışdır. Borc alınan bu pula xüms düşürmü?**

**Cavab: Evi digərinə alınan borcun qarşılığında pulsuz kirayəyə verməyin şəri cəhəti yoxdur. Amma hər halda borc olaraq alınmış şeyin xümsü yoxdur.**

## Həcc üçün borc alınan pulun xümsü

**264. Bilmək istəyirəm ki, "təməttö həcci" üçün borc alınmış pulun xümsü verilməlidir və sonra xümsü ödənilmiş pulun yerdə qalanını Həcc üçün xərcləməliyəm, ya necə?**

**Cavab: Sualda deyilən surətdə borc aldığınız pulun xümsü yoxdur. Amma pulu kredit şəkilində qaytarırsınızsa, xüms ilinin sonuna qədər ödədiyiniz kreditlərin miqdarında olan məbləği xərcləməmisinizsə, xümsünü verməlisiniz.**

## Ev almaq üçün borc alınan pulun xümsü

**265. Mən beş il ərzində "Mənzil Fondu"na pul ödədim ki, ehtiyacım olan evi tikmək üçün həyətyanı torpaq alım. Amma indiyədək bu fond tərəfindən mənə torpaq verilməsi barədə qərar çıxarılmayıb. Buna görə də həmin pulu "Mənzil Fondu"ndan geri almaq istəyirəm. Nəzərə alsaq ki, "Mənzil Fondu"na beş il ərzində ödədiyim pulun bir hissəsini kredit götürmüşdüm, digər bir hissəsi üçün də evimi satmışdım və yerdə qalanını da həyat yoldaşımın müəllimlik hüququndan təmin etmişdim. İndi, bilmək istəyirəm ki, "Mənzil Fondu" mənim pulumu geri verdiyi təqdirdə mən həmin pulu təkcə ev almaq və ya ev tikmək üçün torpaq almağa xərcləsəm, o pula xüms düşürmü və əgər düşürsə, nə qədərinə düşür?**

**Cavab: Sualda yazdığınız surətdə ki, pulu borc, yaşamaq üçün sizə lazım olan əmlak və əşyanın satışı və hədiyyə yolu ilə əldə edibsiniz, xümsü yoxdur.**

## Borcu olan adamın xüms verməsinin vacibliyi

**266. Digərinə borcu olan adamlara da xüms vermək vacibdirmi?**

**Cavab: Əgər xümsün vacib olması şərtlərinə sahibdirsə, hər borc xümsün vacib olmasının qarşısını almır.**

## Hər ay verilən kredit[2] borcunu ilin dolanışıq xərclərindən hesablamaq

**267. Mən kredit ilə maşın almışam. İndi də xüms ilim sona çatıbdır. Mən öz borcumun məbləğini sərmayəmdən çıxa və sonra xümsünü hesablaya bilərmmi? Qeyd edim ki, bu borcum bir ildən çox müddətdə ödəniləcəkdir.**

**Cavab: Xüms ilinin sonunadək kredit borcunuz üçün ödədiyiniz məbləği həmin ilin məişət xərclərindən hesab edə bilərsiniz.**

## Ödəniləkcək pulun miqdarında verilən çekin[3] borc hesab edilməsi

**268. Övladımın adını məktəbə yazdırarkən onun təhsil haqqını ödəmək üçün möhlət aldım və həmin məbləği 4 və 6 ay müddəti olan 2 ədəd çek əsasında ödəmişəm. Bilmək istəyirəm ki, xüms ilinin sonunda bu çekin məbləği borcdan sayılır, yoxsa, onun ödənilməsini gələn ilin qazancından təmin etməliyəm?**

**Cavab: Sualda deyilən surətdə bu borc gələn ilin illik xərclərindən hesab edilir, məgər ki, borcunuzu bu xüms ilinizin sonunadək ödəmiş olasınız.**

## Qadının mehriyyəsinin borcdan hesablanması

**269. Qadının öz mehriyyəsini hər an tələb etmək hüququnu nəzərə alsaq, mehriyyə xüms ilinin sonunda kişinin borclarından hesab edilə bilərmi?**

**Cavab: Mehriyyəni ilin dolanışıq xərclərindən ödəmək olar. Amma xüms ilinin sonunadək ödənməzsə, ilin dolanışıq xərclərindən hesab edilmir və illik qazancdan artıq qalmış bütün gəlirin xümsü verilməlidir.**

## Nağd və kredit borcu olan işçi

**270. Bəzən hansısa bir müəssisə, şirkət və ya dövlət işçilərinin illik qazancı bir ilin dolanışıq xərclərindən azacı artıq gəlir və xüms ilinin sonunda artıq qalır. Nəzərə alsaq ki, bu işçilərinin nağd və ya kredit ilə borcları vardır, onların bu az artıq gəlirinə xüms düşürmü?**

**Cavab: Əgər o borcu il ərzində həmin ilin xərcləri üçün alıbsa və ya ehtiyacları olan vəsaitləri nisyə götürbsə, borcunu həmin ilin qazancından vermək niyyətində olarsa, borcun məbləğini xüms ilinin sonunda dolanışıq xərclərindən hesab edə bilər. Əks halda isə xüms ilinin sonunda illik dolanışıq xərclərindən artıq qalanın hamısının xümsünü verməlidir.**

## Borca görə pul ayırmaq

**271. Mən bir nəfərə pul borcluyam. Əgər xüms ilinin sonu çatarsa, borc sahibi də pulunu tələb etməzsə və borcumu ödəyə biləcəyim məbləğdə pul ilin dolanışıq xərcləindən artıq qalarsa, bu pulu ilin dolanışıq xərclərindən hesab edə bilərəm, ya yox?**

**Cavab: Borc istər pul almaqla, istərsə də ev əşyalarını nisyə almaqla olsun, əgər həmin ilin dolanışıq xərclərini təmin etmək üçün olarsa və həmin il ödəmək istəyərsə, ilin dolanışıq xərclərindən hesablanır və onu illik gəlirdən çıxmaq olar. Amma öncəki illərin qalıq borclarındandırsa, hərçənd ki, onu il boyunca ilin dolanışıq xərcləri üçün olan gəlir ilə ödəmək olar, lakin xüms ili başa çatınca ödəməzsə, xüms ili sona çatandan sonra o borcu**

**ilin gəlirindən artıq qalan məbləğdən çıxmaq olmaz.**

**272. Bir şəxsin illik hesabında müəyyən vəsait qalmışdır. Özü də borclu olduğu halda xüms ili də başa çatmışdır. Borcunu ödəmək üçün isə bir neçə il fürsəti vardır. Belə bir halda illik hesabda (istifadəsiz) qalan həmin o vəsaitə (əmlak, əşya və ya pul) xüms düşürmü?**

**Cavab: Ödənilməmiş borc, istər müddətli olsun, istər müddətsiz, (ilin dolanışıq xərclərindən hesab edilmir və) illik gəlirdən çıxıla bilməz. Məgər ki, həmin borc həmin ilin dolanışıq xərclərini təmin etmək üçün olsun. Belə olarsa, borcunun məbləğini illik gəlirdən ödəyə bilər və illik gəlirin həmin borc məbləğində olan miqdarına xüms düşməz.**

**273. Mən bankdan kredit borc götürmüşəm. Həmin borcun ödənilməsi vaxtı mənim xüms ilimin başa çatdığı tarixdən sonradır. Mən qorxuram ki, əgər həmin borcu bu il ödəməsəm, gələn ilin ödəməyə maddi gücüm çatmasın. Bilmək istəyirəm ki, xüms ilim sona çatanda mənim xüms vermək barədə vəzifə və təklifim nədir?**

**Cavab: Əgər ilin gəlirini xüms iliniz sona çatmamış borcunuz üçün istifadə etsəniz və aldığınız borc da sərmayənizi çoxaltmaq üçün olmayıbsa, xümsü yoxdur. Amma borcu sərmayənizi artırmaq üçün etmişdinizsə və həmçinin illik gəlirinizi gələcək üçün saxlamaq istəyirsinizsə, xümsünü verməlisiniz.**

## İl ərzində ödənilmiş kreditlər

**274. Aldığım kredit borcumun ödənişi bir neçə il davam edərsə, hər ildə ödədiyim aylıq kreditlərə xüms düşürmü?**

**Cavab: Əgər ilin dolanışıq xərclərini təmin etmək üçün borc almısınızsa və hər xüms ilində həmin ilin qazancından borclarınızı ödəmisizsə, ödənilmiş kreditlərin xümsü yoxdur. Amma aldığınız borc sizin özünüzdə isitfadəsiz qalırsa, işləyərək qazanıb ödədiyiniz miqdarın xümsünü verməlisiniz.**

**275. Bir nəfərin digərindən müəyyən məbləğdə alacağı vardır və həmin məbləğ qədər də borcu vardır. Əgər alacağı pulu borcuna verərsə, bu pulun xümsünü verməlidirmi?**

**Cavab: Əgər borcu həmin xüms ilinin dolanışıq xərclərində aiddirsə, alacağını borcuna verərsə, ilin dolanışıq xərclərindən hesablanır, ilin gəlirindən çıxılacaq (və xümsü yoxdur).**

(1) Müəyyən şərtlər əsasında daşınmaz əmlakın müvəqqəti istifadəyə verilməsi və ya alınması.

(2) Uzun və ya qısa müddətlər üçün borc olaraq mal və ya pul vermək.

(3) Təqdim edənə cari hesabdan müəyyən miqdarda pul verilməsi və ya onun hesabına keçirilməsi haqqında pul sahibinin sərəncamı olan sənəd və qəbz.

## Xüms ilinin birinci ayının xərclərini köhnə ildən çıxmaq

**276. Mən sabit maaş alan işçiyəm. Hər ayın axırında maaş alıram. Xüms ilimi isə Mehr (Oktyabr) ayının biri təyin etmişəm. Oktyabr ayındakı dolanışıq xərclərimi və kredit borcumu köhnə xüms ilinin qazancından, (məsələn, Sentyabr ayının maaşından,) çıxa bilərəmmi?**

**Cavab: Köhnə xüms ilindən qalan vəsaiti gələn ilin dolanışıq xərclərində istifadə etmək və ya kredit borcunu ödəmək bu şərtlə icazəlidir ki, həmin vəsaitin istifadəsinə yeni xüms ilinin yaxın günlərində ehtiyaclı olsun və xümsü vermək ehtiyaclarını təmin etməyə və borcunu ödəməyə çətinlik törətsin. Əks halda xümsünü ödəməlidir.**

## Övladların gələcək günləri üçün toplanan vəsaitin xümsü

**277. Bəzi şəxslər övladlarının gələcəyi üçün pul toplayırlar və hədəfləri də xümsdən yayınmaq deyil. Amma övlad nabaliğ olduğu və ata da övladın vəkili olduğu üçün həmin məbləğdə müdaxilə etmək hüququ vardır. Bu pula xüms düşürmü? Həmçinin ehtiyac olduğu zaman həmin puldan istifadə edərsə və yenidən imkan olduqda yerinə qoyarsa, əvvəlki pula xüms düşür, ya yox?**

**Cavab: Əgər valideyn həqiqətən də uşaqların gələcəyi üçün topladıqları vəsaiti uşaqlarına hədiyyə ediblərsə və bu hədiyyə etmək valideynin ürfi şəninə uyğundursa, xümsü yoxdur. Amma sırf pul toplamaq olubsa və hədiyyə deyilsə, xümsünü verməlidir.**

## Zəruri məişət xərclərini təmin etmək üçün vəsait toplamaq

**278. İlin gəlirindən zəruri məişət xərclərini təmin etmək üçün toplanılan pula xüms ilinin sonu çatan kimi xüms düşür, yoxsa, bir müddət sonra?**

**Cavab: İlin gəlirindən çətin günlər və zəruri məişət xərclərini təmin etmək üçün toplanılan vəsaiti gələn ilin zəruri xərclərində istifadə etmək bu şərtlə icazəlidir ki, həmin vəsaitin istifadəsinə yeni xüms ilinin yaxın günlərində ehtiyaclı olsun. Əks halda xüms ilinin sonunda xümsünü verməlidir.**

**279. İlin gəlirindən gələcək günlərin zəruri məişət xərclərini təmin etmək üçün toplanılan vəsaitin xümsünü vermədən saxlamağa neçə gün, ya neçə ay icazə vardır və hansı şərtlə və nə vaxta qədər?**

**Cavab: Əgər bir şəxsə ilin gəlirindən ev almaq və ya məişətdə ehtiyac duyulan zəruri şeyləri hazırlamaq üçün pul toplamaq lazımdırsa və toplanılan pulun xümsü verilərsə, həmin vəsaiti hazırlmaq mümkün olmazsa, caizdir ki, xüms ili sona çatdıqdan bir və ya iki ay sonraya qədər həmin pulu saxlasın və həmin müddət ərzində ehtiyacı olan şeyləri alsın. Amma bu şərtlə ki, xüms ili başa çatdıqdan sonra ilk fürsətdə ehtiyaclı olduğu məişət vəasitini alsın. Lakin xüms ili sona çatdıqdan bir həftə sora həmin istədiyi zəruri şeyləri ala bilərdi, amma üzürsüz olaraq almadı, sonradan almaq niyyəti ilə pulu öz yanında saxladısa, xümsünü verməlidir.**

## Evlənmək xərclərini təmin etmək üçün maaşı toplamaq

**280. Evlilik xərclərini gələcəkdə təmin edə bilmək üçün hər ay maaşımdan bir miqdarına qənaət edir və toplayıram. Bu pula xüms düşürmü?**

Cavab: Aylıq maaşınızdan kənara qoyaraq topladığınız pulun xümsünü il başında verməlisiniz. Məgər ki, xüms ilinin sonu ərəfəsində həmin pula evlilik xərclərini təmin etmək üçün ehtiyacınız olsun, hansı ki, evlilik üçün həmin zəruri ehtiyacları ondan tez almağa imkanınız olmamışdı və həmçinin xümsü ödəsəniz onları almaq imkanınız olmayacaq.

**281. İmkansızlıqdan indiyədək evlənə bilməmişəm. Hazırda əlimdə olan vəsaitin bir miqdarını gələcəkdə evlilik ehtiyaclarımı ödəmək üçün (xümsünü vermədən) saxlaya birlərmmi?**

Cavab: İllik gəlirin bir hissəsini yaxın günlərdə (gələcəkdə) evlənməyin zəruri ehtiyacları üçün saxlamağın xümsü yoxdur.

**282. İndiyədək (imkansızlıqdan) evlənməyən və evi olmayan dini tələbələrin təbliğ, iş və ya "səhmi-imam"(1) vasitəsi ilə əldə etdikləri pula xüms düşür, yoxsa, xümsün cavibliyi hökmündən istisna edildiyi üçün, xümsünü vermədən sonradan evlilik xərclərini təmin etmək niyyəti ilə toplaya bilərlər?**

Cavab: Təqlid mərcələri tərəfindən dini elmi hövzələrdə təhsil alan tələbələrə verilən şəri hüquqlar (aylıq, şəhriyyə, "səhmi-imam", "imam malı") hədiyyədir və xümsü yoxdur. Amma tələbələrin təbliğ və digər vasitələrlə əldə etdikləri gəlirləri, əgər xüms ilinin sonunda xərclənməyib qalarsa, xümsünün verilməsi vacibdir.

## Ev tikmək üçün toplanmış pul

**283. İki ildir ki, ev tikmək üçün həyətyanı torpaq sahəsi almışam. Hazırda kirayədə yaşayıram. Əgər gündəlik xərclərimə qənaət edərək ev tikmək üçün pul yığsam, xüms ilinin başında o pula xüms düşəcəkmi?**

Cavab: Əgər illik qazancınızı xüms ili başa çatmamış ev tikmək üçün ehtiyacınız olan tikinti materiallarına xərcələsəniz və ya həmin pulu yaxın günlərdə ev tikmək üçün istifadə edəcəksinizsə, xümsü yoxdur.

(1) Dini Elmi Hövzədə oxuyan tələbələrə təqlid mərcələri tərəfindən verilən təhsil xərci; aylıq; "şəhriyyə".

**Üçüncü fəslin mühüm nöqtələri və xülasəsi**

**Xümsün istisnaları**

**Xümsü olmayan vəsait, əmlak və əşyalar:**

## 1- Hədiyyə

**İnsan hədiyyə edilən pul, cins, mülk, məhsul, əşya və hər hansısa bir nəsnənin xümsü yoxdur. Əlbəttə, əgər xüms ilinin sonunadək istifadəsiz qalarsa, ehtiyat müstəhəb budur ki, xümsü verilsin.**

**Hədiyyənin hökmündə olanlar:**

**a) İş yerindən verilən bonus: nağd pul və ya ticarət üçün qəbz.**

**b) Qocalara verilən təqaüd pulu, şəhid ailələrinə, qazilərə və əsirlikdən azad edilənlərə verilən müavinət.**

**c) Dövlət tərəfindən verilən subsitlər**

**d) Bayram hədiyyələri**

**e) Bankdan verilən mükafatlar**

**f) Təhsilə kömək xərcləri, təhsil haqqı**

***Qeyd: Əgər ər və arvad və valideyn və övladlar xümsdən yayınmaq üçün bir- birinə hədiyyə versələr və ya onların ürfi şəninə uyğun olmasa, əldə edilən vəsaitin xümsünü vermək vacibdir.**

## 2. Mehriyyə

## 3. İrs

## 4. Vəqf yolu ilə insan çatan əmlak və əşya.

## 5. Valideynin övladlara, vladların valideynə və kişinin arvadına verdiyi xərclik.

## 6. Sığorta şirkətinin ömrünü və ya maşınını sığortalamış insana çəkdiyi zərərin qarşılığında ödədiyi pul.

## 7. Diyə*

*** İslam qanunlarına görə, qəsdən cinayət törətmiş hər bir şəxs etdiyi əmələ müvafiq surətdə cəriməni zərərçəkənə ödəməlidir. Bu cəriməyə "diyə" deyilir. Diyənin miqdarı törədilən cinayətin ağırlığından asılıdır. Məsələn, xüsusilə ağır olan qətl cinayətinə görə, cani ya öldürülməli, ya da zərərçəkən tərəfə diyə ödəməlidir. Bəzən əks tərəf diyəni qəbul etməklə razılaşır və beləliklə cani ölümdən xilas olur. Diyənin hökmləri mürəkkəbdir, bu barədə ətraflı məlumat almaq üçün mütləq şəriət kitablarına müraciət olunmalıdır.**

## 8. Xümsü öncədən verilmiş vəasit, əmlak və əşya, "müxəmməs".

## 9. Məunə: Yaşamaq üçün zəruri olan xərclər, vəsait, əmlak və əşya.

**Məunə də üç qismdir:**

**9-1. İstehlak* məhsulları: Düyü, çay, yağ, un, benzin, telefon konturları və sair məhsullar ki, il ərzində nə qədər istehlak edilsə, "məunə"dən hesab edilir və xüms ilinin başında artıq qalanının xümsü verilir.**

***Gündəlik zəruri tələbatı və ehtiyacı təmin etmək üçün hər hansı məhsulu əldə edərək, ondan istifadəetmək, işlətmək, sərf etmək.**

**9-2. İstifadə ilə tez məhv olmayan, davamlı və qalıcı əşyalar: Paltar, döşənəcək, qab, kitab, televizor və sair. Bunların "məunə" olmasının meyarı budur ki, il ərzində istifadə etməsə belə, insanın onlara ehtiyacı və ürfi şəninə uyğun olsun.**

**9-3: Daşınmaz əmlak: Ev, torpaq və sair ki, insanın ürfi şəninə münasib və ehtiyacı olsun.**

**** İnsan "Məunə" sayılan əşyanı xüms ilinin sonunadək istifadə etsə və xüms ilindən sonra satsa, onun satışından qazandığı pula xüms düşmür. Həmçinin əgər xüms ilinin sonunda həmin əşyadan istifadə etməyərək bir kənara qoyarsa, yenə də xümsü yoxdur.**

**10. Borc: İnsanın (şəxslərdən və ya kredit ilə banklardan) borc aldığı və istifadə etmədən gələcəkdə ehtiyacı olacağı gün üçün saxladığı pulun xümsü yoxdur. Amma həmin borcun ödədiyi miqdarının xümsünü verməlidir.**

**İnsan öz borclarını xüms ilinin başında illik gəlirdən artıq qalan puldan çıxsın. Məgər ki, borcu həmin ilin dolanışıq xərcləri üçün almış olsun. Əlbəttə insan xüms ili başa çatmamış bütün borclarını ilin gəlirindən verə bilər.**

## Xümsdən məktəb və mədrəsə tikmək üçün istifadə etmək

**284. Xümsü dövlət məktəbləri və mədrəsələrinə vermək olarmı?**

**Cavab: Hazırda hər iki mübarək hissə (səhmi-imam və səhmi-saadat) dini elmi hövzələrin idarəsi üçün lazımdır. Bu cür işlər üçün xeyriyyə işləri üçün nəzərdə tutulmuş vəsaitdən və möminlərin köməklərindən istifadə edin.**

## Xümsün xeyriyyə işlərində xərclənməsi

**285. Xümsün "səhm-sadatı"nı (seyid payını) xeyriyyə işlərində, məsələn, (imkansız) seyidləri evləndirməyə sərf etmək olarmı?**

**Cavab: İmamın (ə) mübarək səhmi kimi "səhmi-saadat" da (xümsün kasıb seyidlərə çatacaq hissəsi) mərcəyi-təqlidin ixtiyarındadır. Əgər bu barədə xüsusi icazə verilərsə, "səhmi-sadat"ın dediyiniz məsələdə sərf edilməsinin iradı yoxdur.**

## Xümsün kitab alınması və paylanılması üçün istifadəsi

**286. Siz "səhmi-imam"ın üçdən birini dini kitabların alınması və paylanılması üçün sərf edilməsinə icazə verirsinizmi?**

**Cavab: Əgər regionlardakı qanuni vəkillərimiz faydalı dini kitabların alınması və paylanılmasını lazım bilərlərsə, caizdir ki, həmin işi xümsün müəyyən edilmiş şəri məsələlər üçün ayrılmış üçdə birindən istifadə etsinlər.**

## Məscid tikmək üçün xümsdən istifadə etmək

**287. Mənim boynumda "səhmi- imam"dan müəyyən miqdarda xüms var ki, onu dəftərxananıza təqdim etməliyəm. Digər tərəfdən də bir məscidin tikintisinə kömək etmək lazımdır. Həmin məbləği məscidin xadiminə verə bilərəmmi ki, məscidin tikintisinə xərcləsin?**

**Cavab: Hazırda hər iki mübarək hissə (səhmi- imam və səhmi-saadat) dini elmi hövzələrin idarəsi üçün lazımdır. Məscidin tikintisinin təkmilləşdirilməsi üçün möminlərin köməyindən istifadə edin.**

## Xüms puluna xəstəxana tikmək

**288. Çox güman atamız sağlığında malının xümsünü tam ödəməyib. Biz də torpağının bir hissəsini xəstəxana tikmək üçün bağışlamışıq. Həmin torpağı mərhum atamızın malının xümsü saya bilərikmi?**

**Cavab: Sualda dediyiniz torpaq xüms hesab oluna bilməz.**

## Xümsün "səhmi-saadatı"nı təqlid mərcəsinin icazəsi olmadan vermək

**289. Bəziləri özbaşına (və müctəhiddən icazə almamış, əllərində olan xümsün "seyid malı" ilə) kasıb seyidlərin kommunal xərclərini ödəyirlər, bunu xümsdən hesab etmək olarmı?**

**Cavab: İndiyədək "səhmi-saadat" (seyid malı) ünvanı ilə ödədikləri qəbuldur, amma bundan sonra öncədən icazə almaq lazımdır.**

## Xümsün "seyid malı"nı evli seyyidə xanıma vermək

290. Müctəhidin xüms məsələlərində səlahiyyətli nümayəndəsindən icazə aldıqdan sonra “seyid malı”nı fəqir seyyidə xanıma vermək olarmı? Nəzərə alsaq ki, bu seyyidə xanımın uşaqları var, əri qeyri-seyid və həm də yoxsuldur? Və bu seyyidə xanıma xümsün “seyid malı” hissəsini versək, o, bu xümsü əri və uşaqlarına xərcləyə bilərmi?

**Cavab: Əgər bu seyyidə xanımın əri xanımın dolanışıq xərclərini təmin edə bilmirsə və xanım da şəri baxımdan fəqirdirsə,(1) ehtiyaclarını təmin etmək üçün xümsün “seyid malı” hissəsindən ala və əri və övladları üçün də xərcləyə bilər.**

## Seyidlərin xüms səhmini və payını ödəmək

**291. Bir seyyidə qadın iddia edir ki, atası ailəsinin dolanışıq xərclərini ödəmir və onlar gündəlik ruzilərini qazanmaq üçün məscidin həyatındə oturub dilənməyə məcbur olublar. Həmin regionun da əhalisi təsdiq edirlər ki, ailənin başçısı olan seyyid sərvətli adamdır, amma ailəsinə nisbət xəsisdir. Belə olan halda həmin ailəyə “seyid malı”ndan xüms vermək olar? Əgər ailənin atası desə ki, mənə vacib olan onların yemək və geyim ilə təmin etməkdir, amma qadınlara məxsus xərclər, uşaqların gündəlik pulu və sair mənə vacib deyil, həmin seyyidə xanıma və övladlarına digər ehtiyaclarını təmin etmək üçün “seyid- malı” vermək olarmı?**

**Cavab: Birinci halda, əgər öz gündəlik dolanışıq xərclərini atalarından ala bilmirlərsə, onlara “seyid malı”ından vermək olar. Həmçinin ikinci halda da, əgər yemək və geyimdən başqa öz ürfi mövqelərinə uyğun nəyəsə ehtiyacları varsa, həmin ehtiyaclarını təmin etmək miqdarında onlara “seyid malı”ndan vermək olar.**

## İşi və qazancı olan seyyidə xüms vermək

**292. İşləri və qazancları olan seyidlərə xüms vermək olar, ya yox?**

**Cavab: Əgər onların qazancları orta həddə dolanışıqlarına kifayət edirsə və ürfi mövqelərinə və şənlərinə uyğundursa, onların xüms almağa haqqı yoxdur.**

## Tələblər üçün xüms almağın şərti

**293. Dini Elmi Hövzənin tələbələrə verdiyi aylıqdan əlavə dolanışıqlarını təmin etmək üçün kifayət qədər qazancı olan seyidlərin “seyid malı” almasının hökmü nədir?**

**Cavab: Şəri baxımdan xüms almağa haqqı olmayan və həmçinin “şəhriyyə” (Dini Elmi Hövzənin tələbələrə verdiyi aylıq təhsil xərcliyi) almaq üçün şərtlərə də malik olmayan şəxsin o iki mübarək səhmi (imam malı və seyid malı) almağa icazəsi yoxdur.**

**294. 25 yaşlı cavan və işçiyəm. İndiyədək subay idim və valideynlərim ilə yaşayırdım. Atam iş bacarığını itirmiş qoca kişidir və qazancı da yoxdur. Və 4 ildir ki, ailənin dolanışıq xərclərini mən təmin edirəm. Nəzərə alsaq ki, mənim üçün həm illik gəlirin xümsünü vermək və həm də ailənin dolanışıq xərclərini təmin etmək çətindir və 19 min tümən də öncəki illərin gəlir xümsündən borcluyam, yazmışam ki, sonradan ödəyəm, caizdir ki, illik gəlirin xümsünü atam və anam kimi yaxınlarıma verim?**

**Cavab: Əgər sizin ata və ananınızın öz dolanışıq xərclərini təmin etmək üçün maddi güc və imkanları yoxdursa və sizin onlara kömək etmək imkanınız varsa, onlara kömək etmək sizə vacibdir. Onların zəruri ehtiyaclarını təmin etmək üçün verdiyiniz vəsait sizin illik dolanışıq xərclərinizdən hesablanır. Buna görə də siz valideynlərinizə verdiyiniz vacib nəfəqəni digər bir vabibin yerinə ki, həmin xümsdür, hesablaya bilməzsiniz.**

(1) Şəriətdə özünün və ailəsinin illik xərclərini ürfi və ictimai mövqelərinə uyğun təmin edə bilməyənə fəqir deyilir.

## Dördüncü fəslin mühüm nöqtələri və xülasəsi: Xümsün sərf ediləcəyi yerlər və xüms almağa haqlı kəslər

**Hazırda xümsdən məscid, xəstəxana, mədrəsə, məktəb və digər xeyir işlərdə istifadə etmək caiz deyil və xümsün bütün məbləği təqlid mərcələrinin dəftərxanasına və ya səlahiyyətli nümayəndə və vəkilinə verilməlidir.**

**İnsan xümsü öz yoxsul ata və anasına verə bilməz. Əlbəttə əgər ata və ana yoxsuldursa və övladın da onların dolanışıq xərclərini vermək imkanı varsa, övlada vacibdir ki, bunu etsin. Və övladın ata və anasına verdiyi nəfəqə onun illik xərclərindən hesab edilir.**

**Dini Elmi Hövzənin tələbələri "səhmi imam"dan istifadə etmək üçün təqlid mərcələrinin "şəhriyyə" (aylıq təhsil xərci) idarələrinin qoyduğu şərtlərə riayət etməlidirlər.**

## Sərmayənin özü və gəlirinin xümsünü bir vaxtda ödəmək

**295. Mən aylıq maaş alıram. Bu pulları xümsünü vermədən bankın investisiya hesabına[1] yatırda və əvəzində isə hesabdakı puldan istifadə etdiyim zaman sərmayənin özünün və üzərinə gələn gəlirin xümsünü bir vaxta verər bilərmmi?**

**Cavab: Əgər pula xüms gəlibsə, xüms ilinin sonunda ödənməlidir və xümsün ödənilməsini gecikdirmək caiz deyil.**

## Meyitin varislərinin xümsü verilməmiş əmlakda müdaxiləsi

**296. Bir nəfər ölümündən öncə boynunda olan xüms barədə yaddaşt dəftərində qeydlər aparıb və bu qeydlərdən görünür ki, mərhum həmin xümsü ödəmək fikrində olub. İndi isə mərhumun qızlarının birindən başqa, ailəsinin bütün üzvləri həmin xümsü ödəmək istəmirlər və mərhumun mirasında özlərinin və meyyitin işləri və digər şeylər üçün müdaxilə və istifadə edirlər. Bu haqda nəzərini bilmək istəyirik.**

**Cavab: Əgər meyit sərvətinin müəyyən miqdarının xüms ünvanı ilə verilməsi barədə vəsiyyət edərsə və ya varislərin yəqini olsa ki, meyit müəyyən məbləğdə xüms borcludur, meyyitin vəsiyyəti və ya xüms borcu onun mirasından ayırıb verməyincə, heç kim meyyitdən qalan əmlakda müdaxilə və ondan istifadə edə bilməz. Meyitin vəsiyyətinə əməl etməyincə və ya məlum olan borcunu ödəməyincə varislərin onun sərvətindən istifadə etməsi, qəsb hökmündədir və bundan öncə istifadə etdikləri əmlaka görə zamindirlər.**

## Xüms və Zəkat verməyən atanın sərvətindən istifadə etmək

**297. Mənim yəqinim var ki, atam sərvətinin xüms və zəkatını ödəmir. Mən ona deyəndə də xüms və zəkat ver, deyir ki, biz özümüz hamıdan daha möhtacıq və xüms və zəkat bizə vacib deyil. Lütfən, bu məsələnin hökmünü izah edirdiniz.**

**Cavab: Əgər atanızın xüms və zəkat düşən əmlak və sərvəti yoxdursa, ona xüms və zəkat vermək vacib deyil və bu barədə axtarış aparmaq və araşdırmaq da sizlə lazım deyil.**

**298. Mən ailəmlə yaşayan bir cavanam. Atam xüms və zəkatını vermir. Hətta evini də “riba”dan qazandığı sərvət ilə tikibdir. Evimizdə yediyim yeməyin haram olduğu aşkardır. Nəzərə alsaq ki, ailəmdən ayrılmağa da imkanım yoxdur, bu məsələdə mənim təklifim və vəzifəm nədir?**

**Cavab: Hətta yəqiniz də olsa ki. Atanızın sərvəti “riba” ilə qatışıqdır və ya xüms və zəkat vermir, yenə də tam yəqinliklə deyə bilməzsiz ki, onun özünün və ya sizin istifadə etdiyiniz əmlak və əşya da haramdır. İstifadə etdiyiniz şeylərin haramlığına tam yəqin etməyibsinizsə, ondan istifadə etmək sizə haram deyil. Əlbəttə, əgər yəqiniz varsa, atanızın mal və mülkündən istifadə etdiyiniz şeylər haramdır, bu zaman onlardan istifadə etmək sizə caiz deyildir. Məgər ki, ailədən ayrılmaq sizin üçün çox çətin olsun və problemlər yaratmış olsun. Bu halda həmin halala qarışmış haramdan isitfadə edə bilərsiniz. Amma işlətiyiniz şeylərdə digərlərinin haqqı da olarsa, siz zamin və borclusunuz.**

**Xüms verməyən adamla alver etmək və ünsiyyətdə olmaq**

**299. Biz hər gün xümsünü verməyən və xüms ili olmayan adamlarla alver edirik, onların görüşünə gedirik və onların yeməyini yeyirik. Bu məsələnin hökmü nədir?**

**Cavab: Sualda göstərilən surətdə sizin "əmr be məruf və nəhy əz münkər"dən başqa bir vəzifəniz yoxdur.**

**300. Dini məsələlərə əhəmiyyət verməyən, xüsusi ilə də namaz qılmayan və xüms verməyən müsəlmanlarla ünsiyyətdə olmağın hökmü nədir?**

**Cavab: Əgər onlarla ünsiyyətdə olmaq onları dini məsələlərə əhəmiyyət verməməkdə təsdiq və təyid etməzsə, eybi yoxdur. Əgər onlarla əlaqələri və ünsiyyəti kəsmək onların dini məsələlərə əhəmiyyət verməsində təsirli olarsa, bu halda vacibdir ki, "əmr be məruf və nəhy əz münkər" etmək üçün onlarla müvəqqəti olaraq əlaqə və ünsiyyətini kəsəsiniz. Amma onların əmlak və yeməyindən istifadə etməyin eybi yoxdur.**

## Xümsü verilməmiş pul ilə alver etmək

**301. Əgər mən neçə illər illik gəlirimi hesablamasam ki, mənim sərvətim nağd pula çevirilsin və sərmayəm çoxalsın və bundan sonra isə əvvəlki sərmayəmdən əlavə qazancımın xümsünü ödəyim, bunun iradı olar?**

**Cavab: Xüms ilinin başında sizin əmlak və sərvətinizdə az da olsa, xüms olarsa, gərək ödəyəsiz və bu işi gecikdirmək cazi deyildir.**

## Alıcının xümsü verilməyən məhsuldan istifadə etməsinin hökmü

**302. Əgər müştəri aldığı əmtəə və məhsulun satıcı tərəfindən xümsü verilmədiyini bilərsə, həmin əmtəə və məhsulu istifadə edə bilərmi?**

**Müştərinin həmin məhsulu istifadə etməsinin eybi yoxdur.**

## Xüms verməyən adamla şərik olmaq

**303. Əgər mənim şəriklərimin xüms ili yoxdursa, mənim şəri vəzifəm və təklifim nədir?**

**Cavab: Şəriklərin hər birinə vacibdir ki, öz səhmlərinin şəri vergilərini ödəsinlər. Əgər digər şəriklər öz vəzifələrinə əməl etmirlərsə və xümslərini ödəmirlərsə, siz öz vəzifənizə əməl edin və xümsünüzü ödəyin.**

**304. Əgər bir neçə nəfər bir-biri ilə şərikdirlərsə, onların hər birinə ayrılıqda öz gəlirlərinin xümsünü ödəmək lazımdır, yoxsa, müştərək hesabdan ödəməlidirlər?**

**Cavab: Müştərək investisiyadan qazanılan gəlirin şəriklər tərəfindən götürülməsi imkanı yarandıqdan və ya hər biri tərəfindən əldə edildikdən sonra, şəriklərin hər birinin vəzifəsidir ki, özlərinin illik dolanışıq xərclərindən artığının xümsünü ilin başında ödəsinlər.**

## Xüms düşən malı məscidə bağışmaq

**305. Əgər şəxs xümsü verilməmiş malı məscidə bağışlayarsa, həmin malı ondan almaq olarmı?**

**Cavab: Qeyd edilən malı məscid üçün götürmək olar.**

(1) Müəyyən perspektivli işə, müəssisəyə uzunmüddətli kapital, əsaslı vəsait qoyulması.

## Beşinci fəslin mühüm nöqtələri və xülasəsi Xüms düşən əmlakdan istifadə etmək

**Xümsün gecikdirilməsi caiz deyildir**

**Əgər meyyit vəsiyyət etsə ki, əmlak və sərvətinin xümsünü versinlər və ya varislər bilsələr ki, meyyitin xüms borcu vardır, xümsü ödəmədən meyyitin miras qoyub getdiyi əmlak və sərvətindən istifadə edə bilməzlər.**

**Xüms verməyən insanlarla alver etmək və ünsiyyətdə olmaq, əgər onların işinin təyid və təsdiqi anlamına gəlməzsə, eybi yoxdur. Əlbəttə "nəhy əz münkər və əmr be məruf" üçün şərait olarsa, onları bu işdən çəkindirmək lazımdır, hətta "əmr be məruf və nəhy əz münkər" etmək üçün müvəqqəti olaraq ünsiyyət və əlaqələrin kəsilməsi lazım olsa da.**

**Satıcı müştərinin ona xümsü verilməmiş pul verdiyini bilsə də həmin pulun xümsünü ödəmək vacib deyil.**

**Əmlakının xümsünü verməyən şəxslərlə şərik olmaq xümsünü verən şərikin əmlakını haram etməz.**

## Əmlaka xümsün gəlib-gəlməməsi barədə şəkk etmək

**306. Əgər malikiyyətimdə olan pula xümsün gəlib-gəlməmsəi barədə şəkk etsəm, təklifim nədir?**

**Cavab: Əgər məsələnin hökmünü bilirsiniz və təkcə bundan şək edirsiniz ki, həmun pula xüms gəlib, ya yox. Bu halda sizə xüms vacib deyil. Amma məsələnin hökmünü bilmirsinizsə, gərək araşdırasınız.**

## Başqaları üçün saxlanılan əmanətin xümsü

307. Əgər bir nəfərin pulu əmanət olaraq mənim ixtiyarımda olarsa, həmin pula xüms düşürmü?

**Cavab: O pulun xümsü sizin öhdənizə deyil.**

## Vergilərin xüms ilə rabitəsi; fərqlilik, ya eynilik

**308. Mən 1341-ci hicri-şəmsi ilində İmam Xomeynidən (r) təqlid etməyə başladım və şəri hüquqlarımı onun fətvaları əsasında ödəməyə başladım. İmam Xomeyni (r) 1346-cı hicri-şəmsi ilində vergilər və şəri hüquqlar barədə soruşulan suala cavab olaraq buyurdur ki, şəri hüquqlar həmən "xüms" və "zəkat"dır, "vergi"lər isə şəri hüquqlardan hesab edilmir. Hazırda biz İslam respublikasında yaşayırıq. Xahiş edirəm ki, bizim "vergi" və "şəri hüquq"lar barədə təklif və vəzifəmizi aydınlaşdırasınız.**

**Cavab: İslam cümhuriyyətinin dövlət qanunları əsasında təyin etdiyi "vergi"lər həmin qanunda nəzərdə tutulan şərtlərə malik fərdlər tərəfindən ödənilməsi vacibdir və həmçinin "vergi" insanın illik dolanışıq xərclərindən hesab edilir. Amma dövlətə verilən vergilər "xüms" və "zəkat"ı əvəz etmir. Buna görə də dövlətə "vergi" verənlər xüms ilinin sonunda illik gəlirin dolanışıq xərclərindən artıq qalanının xümsünü də (təqlid etdikləri mərcələrin özünə, dəftərxanasına və ya nümayəndəsinə) verməldirlər.**

## Şəri hüququ ödədikdən sonar geri istəmək

**309. Bir şəxs şəri hüquqlarını (xümsü, zəkatı və təqlid mərcəsinin icazəsi ilə istifadə edilən hər bir şeyi) dini müəssislərdən birində, ya mədrəsə, məscid və hüseyniyyə tikintisində istifadə etdikdən sonra, xərclədiyi pulu, tikilini və ya verdiyi torpağı geri istəmək üçün şəri haqqı vardırmı? Şəri hüquq olaraq dini müəssisəyə verdiyi binanı satışa çıxara bilərmi?**

**Cavab: Əgər həmin şəxs öz əmlakını şəri hüququn xərclənməsinə nəzarət edən səlahiyyətli şəxsin iştirakı və "şəri hüququn ödənməsi" niyyəti ilə mədrəsə təsis edilməsində və sualda göstərilən sair yerlərdə xərcləyibsə, onları geri istəmək və onlarda malik kimi müdaxilə etmək hüququ yoxdur.**

## Xümsü bank vasitəsilə çatdırmaq

**310. Şəhərlərin birində yaşayan bir alimə müəyyən məbləğdə xüms veriblər ki, təqlid mərcəsinin dəftərxanasına çatdırsın. Amma o, həmin pulun və ya malın eynisini sizə göndərə bilmir. Nəzərə alsaq ki, göndərilən şəhərdə banka verilən məbləğ sizə çatacaq məbləğin eynisi deyildir, həmin məbləği bank vasitəsi ilə sizə göndərə bilərikmi?**

**Cavab: Xümsün və digər şəri hüquqların bank vasitəsi ilə ödənilməsinin iradı yoxdur.**

## Dörd qızı olanın xüms ödəməsinə güzəşt edilməyib

**311. Dörd qızı olana da xüms vermək vacibdirmi? Çünki camaat arasında belə məşhurdur ki, kimin üç qızı varsa, xüms vermək ona vacib deyil.**

**Cavab: Belə bir şey doğru deyil. Hər bir halda ilin gəliri olan hər şeyə ilarasında xərclənməzsə və ilin sonunda dolanışıq xərclərindən artıq qalarsa, xüms düşür.**

## Uşaqların xüms və zəkatı

**312. Xüms və zəkat büluğ həddinə və təklif yaşına çatmayan uşaqlara vacibdirmi?**

**Cavab: Nabaliğ uşaqlara və təklif yaşına çatmayanlara zəkat vacib deyildir. Amma nabaliğ və təklif yaşına çatmayan uşağın malına xüms gələrsə (, məsələn, adına qızıl, gümüş mədəni və ya digər mədənlər olarsa və ya halal- haramı qarışmış mala sahib olarsa), onun "şəri qəyyum"una vacibdir ki, xümsü ödəsin. Bundan təkcə onun əmlakı ilə edilən ticarətin gəliri və ya qazanc mənfəəti istisna edilir. Bu mənaya ki, bunların xümsünü ödəmək uşağın "şəri qəyyum"una vacib deyi. Amma uşaq təklif yaşına və büluğ həddinə çatdıqda həmin gəlir və qazanc mənfəəti qalarsa, xümsünü vermək uşağın özünə vacib olacaqdır.**

**313. Uşaqların qazanc mənfəətinə xüms (səhmi-imam və seyid malı) düşürmü?**

**Cavab: Ehtiyat vacibə əsasən onlar təklif yaşına və büluğ həddinə çatdıqdan sonra uşaqlıq zamanında əldə etdikləri və büluğ yaşlarına qədər onların malikiyyətində qalan qazanc mənfəətlərinin xümsünü verməlidirlər.**

## Şəhid uşaqlarının sərmayələrinin xümsü

**314. "Şəhid Fondu"nun (İranda şəhid ailələrinin müxtəlif ehtiyaclarını təmin etmək üçün təşkilat) hər ay şəhid ailələrinə verdiyi puldan, bəzi şəhidlərin əkin sahəsi, dolanışıq xərclərini təmin etmək üçün səhmdar olduqları zavod və fabrikdən əldə edilən gəlirdən şəhidlərin kiçik və nabaliğ uşaqları üçün müəyyən məbləğdə pul toplamışıq. Bəzən bu puldan müəyyən miqdarı onların zəruri ehtiyaclarını təmin etmək üçün istifadə olunur. Bilmək istəyirik ki, şəhidlərin kiçik və nabaliğ uşaqlarının sıxıntılı günləri üçün saxladığımız bu pullara ki, aylıqdan və bəzi gəlirlərdən qənaət edərək saxlamışıq, xüms düşür, yoxsa, onlar büluğ həddinə çatmayınca xümsü yoxdur?**

**Cavab: Şəhidlərin övladlarına irs olaraq çatan və ya "Şəhid Fondu" tərəfindən verilən vəsaitə xüms düşmür. Amma Şəhid fondunun verdiyi hədiyyədən və irsdən götürdükləri gəlirin onların təklif yaşına çatana və baliğ olanadək malikiyyətlərində qaldığı miqdarına ehtiyat vacibə görə xüms düşür.**

## Təklif yaşına çatmamış uşaqlara verilən hədiyyələrdən hasil olan gəlirin xümsü

**315. Mən 10 yaşlı qızam. Hicri-şəmsi ilə 1383-cü ildə təklif və büluğ yaşıma çatmışam. Uşaqlıqdan indiyədək mənə verilən hədiyyələr və bayramlıqları valideynlərim tərəfindən mənim adıma açılan bank hesabında saxlamışam. Həmin pulun üstünə bank tərəfindən əlavə gəlir gəlib. Bu il şəhrivər ayında (sentyabr) mənim həddi-büluğ olmağımın bir ili tamam olacaqdır. Bilmək istəyirəm ki, əmlakımın xümsünü necə hesablamalıyam?**

**Cavab: Sualda deyilən surətdə sizin təklif yaşına çatmamışdan öncə əldə etdiyiniz və hazırda malik olduğunuz gəlirinizin xümsü ehtiyat vacibə görə təklif yaşına çatdıqdan sonra ödənməlidir və həmçinin təklif yaşına çatdıqdan sonrakı qazancınızın da xümsü verilməlidir.**

## Şüurunu (dərk vasitələri və hissiyyat) itirmiş şəxsin xümsü

**316. Bir nəfər sağlam olduğu zaman övladına müəyyən bir miqdarda pul verir ki, xüms adı ilə ödəsin. Övlad bu pulu xüms olaraq ödəmək istədikdə xəbərdar olur ki, atası şüurunu itirmişdir. Bu məbləği xüms adı ilə götürmək olarmı?**

**Cavab-135: Əgər ata şüurunu şəri təklifin saqit olacağı dərəcədə itimişdirsə, onun öz əmlakında xüms ödəmək və sair kimi müdaxiləsi keçərli və düzgün deyildir. Amma həmin şəxs vəfat edərsə, varislərinin vəzifəsidir ki, onun xüms borcunu mirasından ödəsinlər ki, mirasdan istifadə edə bilsinlər.**

Altıncı fəsilin mühüm nöqtələri və xülasəsi

## Xümsün fərqli məsələləri

**Xümsün hökmlərini bilən, amma əmlakına xümsün gəlib-gəlməməsində şəkk edənin (xüms ödəmək barədə) təklifi yoxdur. Amma bu şəkk məsələnin hökmünü bilməmək üzündən olarsa, vacibdir ki, bu barədə araşdırma aparsın.**

**Bir şəxsin yanında əmanət qalan pulun xümsünü ödəmək pulu əmanət saxlayanın vəzifəsi deyil.**

**İslam respublikasının dövlət qanunları əsasında təyin etdiyi "vergi"lərin həmin qanunda nəzərdə tutulan şərtlərə malik fərdlər tərəfindən ödənilməsi vacibdir və həmçinin "vergi" insanın illik dolanışıq xərclərindən hesab edilir. Amma dövlətə verilən vergilər "xüms" və "zəkat"ı əvəz etmir. Buna görə də dövlətə "vergi" verənlər xüms ilinin sonunda illik gəlirin dolanışıq xərclərindən artıq qalanının xümsünü də (təqlid etdikləri mərcələrin özünə, dəftərxanasına və ya nümayəndəsinə) verməldirlər.**

**Xümsü təqlid mərcəsinin vəkil və nümayəndəsinə verdikdən sonra geri tələb etmək və ya malik ünvanı ilə istifadəsində müdaxilə etmək olmaz.**

**Xümsün bank əməliyyatı sistemi ilə ödəməyin eybi yoxdur.**

**Nabaliğ və təklif yaşına çatmayan uşağın malına xüms gələrsə (, məsələn, adına qızıl, gümüş mədəni və ya digər mədənlər olarsa və ya halal- haramı qarışmış mala sahib olarsa), onun "şəri qəyyum"una vacibdir ki, xümsü ödəsin. Bundan təkcə onun əmlakı ilə edilən ticarətin gəliri və ya qazanc mənfəəti istisna edilir. Bu mənaya ki, bunların xümsünü ödəmək uşağın "şəri qəyyum"una vacib deyi. Amma uşaq təklif yaşına və büluğ həddinə çatdıqda həmin gəlir və qazanc mənfəəti qalarsa, xümsünü vermək uşağın özünə vacib olacaqdır.**

**Bir nəfər ağıl və şüurunu şəri təklifin saqit olacağı dərəcədə itimişdirsə, onun öz əmlakında xüms ödəmək və sair kimi müdaxiləsi keçərli və səhih deyildir. Amma həmin şəxs vəfat edərsə, varislərinin vəzifəsidir ki, onun xüms borcunu mirasından ödəsinlər ki, mirasdan istifadə edə bilsinlər.**

## Bir neçə terminin izahı

**1. Maliyyət: Satışı mümkün olan əmtəə, cins, mal və əmlakın üzərinə qoyulan ad. Bu tərifə görə, bir ədəd buğda dənəsinin "maliyyət"i yoxdur. Həmçinin qiyməti çox az olduğuna görə satılmayan şeylərin, məsələn, küçələrin torpağının, maliyyəti yoxdur.**

**2. Ehtiyat vacib: Təqlid mərcəsi qəti və yəqini fətva vermək üçün dəlil tapmayanda "ehtiyat vacibə əsasən" hökmünü bəyan edir. Belə halda müqəllid həm öz mərcəsinin göstərişinə və həm də həmin məsələdə konkret fətva verən mərcənin hökmünə müraciət edə və onun nəzəri əsasında əməl edə bilər.**

**3. Məunə: Bir nəfərin özünün və ailəsinin dolanışığı üçün lazım olan zəruri xərclər, o cümlədən yemək, libas və ev xərcləri...**

**4. Nəfəqə: Bir nəfərin gündəlik xərclərinin ödənişi üçün verilən pul, əmtəə. Kişinin arvadına, valideynin övladına, övladın valideynə verdiyi gündəlik dolanışıq xərcləri kimi. Kişiyə arvadının, övladlarının və imkansız valideynlərinin dolanışıq xərclərini vermək vacibdir.**

**5. Ürfi şə`n: Hər bir kəsin ictimai mövqe və durumu baxımından insanların nəzərində özünəməxsus bir rəftar tərzi və görünüşü olmalıdır. Bu hala "ürfi şə`n" deyilir. Buna görə də bir nəfər kasıbdırsa, həftəlik dolanışıq xərclərini verib arvadı üçün qızıl alarsa, cəmiyyət onu qınayacaq. Çünki o, bu halda öz ürfi şəninə uyğun rəftar etməyib.**

**6. Ribh (gəlir): Ticarətdən əldə edilən qazanc və gəlir.**

**7. Hibə: hədiyyə.**

**8. Əhvət: Fəqihlər arasında yayılmış termindir və iki yerdə işlənilir: 1. Ehtiyat vacib; 2. Ehtiyat müstəhəb. Ehtiyat müstəhəbdə fəqih və müctəhid bir məsələyə icazə fətvası verir və sonra müqəllidə tövsiyə edir ki, bu işi görməkdə ehtiyat etsin.**